www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 fevral 2017-ci il Çərşənbə № 34 (6648) Qiyməti 60 qəpik

## Xəbər

### Keçmiş NİDA-çı agent olduğunu etiraf etdi və Avropaya sığındı

yazısı səh.10-da

## Gündəm

### Parlament "Hərbi vəziyyət haqqında" qanun layihəsini qəbul etdi



Deputatlar işğala son qoyulması üçün düşmənə 1 il vaxt verilməsini təklif etdilər; hərbi vəziyyət şəraitində seçkilərin təxirə salınması ilə bağlı müddəa müzakirələrə səbəb oldu

yazısı səh.4-də

### Azərbaycanın beynəlxalq qaz layihəsi kimləri yandırır?

yazısı səh.8-də

### Ağ Evdə rus kəşfiyyatı qalmaqalı - Maykl Flinnin istefasının pərdəarxası

yazısı səh.15-də

### Prezident yeni qərar verdi: qaçqın yataqxanalarına sayğaclar quraşdırılmayacaq

yazısı səh.2-də

### Ermənilərin kabusuna çevrilən aprel - ikinci savaş anonsları...

yazısı səh.9-da

*Canəli Əkbərov:*

### "İndi də deyirlər ki, guya mən cuhud balasıyam"

yazısı səh.13-də

### Musa Pənahov yenə nazir müavini ola bilər

yazısı səh.5-də

### Bu gündən icbari tibbi müayinə başlayır

yazısı səh.10-da

### İqtidar-müxalifət dialoqu yenidən müzakirədə

yazısı səh.13-də

### Bakının mərkəzindəki təhlükəli müəssisələr nə vaxt köçürüləcək?

yazısı səh.14-də

# İQTİDAR HƏBSXANALARI BOŞALDIR - PREZİDENTİN YENİ SƏRƏNCAMI

Dövlət başçısı İlham Əliyevin cəzaların yüngülləşdirilməsi barədə imzaladığı sərəncamın icrası on minlərlə insanın taleyinə təsir edəcək; yaxın zamanlarda ölkə həbsxanalarında dustaqların sayı kəskin şəkildə azalacaq




yazısı səh.6-da

# Siyasət meydanında böyük qalmaqal

Zərdüşt Əlizadənin Elçibəyi təhqir etməsi müxalifət düşərgəsini ayağa qaldırdı; politoloq İsa Qəmbəri, İsgəndər Həmidovu kürd adlandırdı; sərt cavablar aldı

yazısı səh.3-də



### Ziya Məmmədovdan yeni açıqlama: "Mən artıq adi vətəndaşam..."

yazısı səh.5-də



Nuhəli Kərimov

### Əli Kərimlinin əmisi oğlundan sensasiyalı açıqlamalar: "Mən onun ağsaqqalıyam"

yazısı səh.7-də



Natəvan Mürvətova

### Ev dustağı olan qadın general məhkəmə qarşısında

yazısı səh.5-də



## Prezident Cocuq Mərcanlıya gedən avtomobil yolunun tikintisinə 4,3 milyon manat ayırdı

**Prezident İlham Əliyev Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın xəbərinə görə, sərəncama əsasən işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə gedən, ümumi uzunluğu 9 km olan avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə "Respublikanın kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması" üçün nəzərdə tutulmuş vəsaitin 4,3 milyon *(dörd milyon üç yüz min)* manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

## Azərbaycanda Qida Təhlükəsizliyi Agentliyi yaradılacaq

**Prezidenti İlham Əliyev ölkədə qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.**

APA-nın məlumatına görə, Azərbaycanda qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni (sanitariya normaları və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanmasını və təsdiqini), risklərin təhlilini, qanunla müəyyən edilmiş qaydada gigiyenik sertifikatlaşdırma işinin aparılmasını, o cümlədən xarici ölkələrə ixrac edilən qida məhsullarına keyfiyyət sertifikatının verilməsini, habelə qida məhsullarının istehlakçılarının hüquqlarının müdafiəsi sahəsində və "tarladan süfrəyədək" prinsipi əsasında məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi yaradılacaq.

Komissiyanın sədri

Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini

Komissiyanın üzvləri:

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

AR maliyyə naziri

AR səhiyyə naziri

AR kənd təsərrüfatı naziri

AR Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri

AR Əmlak Məsələləri Dövlət Komitəsinin sədri

AR Qida Təhlükəsizliyi Agentliyinin sədri.

## Test imtahanlarında iştirak ödənişli olacaq

**Azərbaycan prezidenti İlham Əliyev Dövlət İmtahan Mərkəzinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında sərəncam imzalayıb.**

APA-nın xəbərinə görə, sərəncamda qeyd edilib ki, Tarif (qiymət) Şurası orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahanlarda, dövlət qulluğu (dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi) üzrə test imtahanlarında iştirak etmək üçün ödənişin məbləğini 15 gün müddətində müəyyən edib Azərbaycan prezidentinə məlumat versin.


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Rumıniya üzərində "Çauşevski lənəti"

## 28 il əvvəl qanlı diktatorla qanlı hesablaşan rumın xalqı hələ də sabitliyə nail ola bilmir

**Rumıniya yenidən qarışıb. Hökumətin korrupsiya cinayətlərində ittiham olunanların əfvini nəzərdə tutan qanun layihəsi hazırlaması xalq etirazlarına səbəb olub. Etirazlar davamlı şəkildədir və artıq bir sıra məmurlar istefaya getdiklərini açıqlayıblar. Son olaraq ədliyyə naziri Florin Yordake istefa verdiyi elan edib.**



Etirazların davam etdiyi günlərdə ölkə prezidenti etirazçılar qarşısına çıxsa da, mitinqçilər onunla dialoqdan imtina ediblər.

Qeyd edək ki, Rumıniyada vaxtaşırı olaraq kütləvi etirazlar baş verir. 2015-ci ildə Rumıniyada korrupsiya əleyhinə çoxminli etiraz aksiyaları baş verib. Buna səbəb ölkədə gecə klublarından birində baş verən yanğın nəticəsində 30 nəfərin həlak olması olub. Yanğın hadisəsinə etirazla başlayan nümayişlər tezliklə siyasi islahat tələblərinə çevrilib. Nümayişçilər erkən seçkilər və siyasi islahatların keçirilməsini tələb ediblər. Kütləvi etirazlar başlayandan sonra baş nazir Victor Ponta istefa verdiyini bəyan edib.

Ümumiyyətlə, Rumıniya kütləvi etirazlar nəticəsində hakimiyyət və hökumət dəyişikliklərinin ən çox rast gəlindiyi ölkələrdən biridir. Rumıniya Avropa Birliyinin üzvüdür, ancaq ölkədə ciddi siyasi və iqtisadi problemlər mövcuddur. Eyni zamanda silahlı münaqişəsi olmasa da, Rumıniya kütləvi etirazlar səbəbi ilə qeyri-sabit ölkələrdən birinə çevrilib.

Nikolay Çauşevskinin 24 illik diktaturasından sonra Rumıniyada davamlı sabitlik əldə etmək mümkün olmayıb. Xatırladaq ki, 1965-89-cu illərdə Rumıniyanı qorxu və zor maşını vasitəsilə idarə etmiş Çauşevski sonda öz qəddarlığının qurbanı oldu. Ağır iqtisadi böhran yaşayan Rumıniyada dəbdəbəli həyat sürən diktatorun israfçılığın, əhalinin kasıblığı son nəticədə etirazlara səbəb oldu. Bir zamanlar "Varşava Müqaviləsi" təşkilatından çıxması ilə Avropada rəğbət qazanmış Çauşevski sonradan amansız diktatora çevrildi və Buxarestdə başlayan kütləvi etirazlar sonda ordunun etirazçıları dəstəkləməsi ilə nəticələndi. Çauşevski və həyat yoldaşının canlı yayımda davam edən 1 saatlıq məhkəmə prosesində mühakimə edərək barəsində edam qərarı verirlər. 1990cı il yanvarın 7-də hökm icra olunur. Çauşevski və həyat yoldaşı güllələnir.

Bu hadisə Rumıniyanın diktatura mirasından imtina etsə də, "Çauşevski lənəti" hələ də davam edir. Ölkədə kiçik narazılıqlar qeyri-sabitliyə və xaosa çevrilir. 1989-cu ildə macar əsilli Rumıniya vətəndaşı bir keşişin həbsinə etirazla başlayan aksiyalar Çauşevskinin devrilməsi və güllələnməsi ilə başa çatdı. Maraqlıdır ki, diktatorların edamı praktikası çox geniş yayılmasa da, bu hadisələrin baş verdiyi ölkələrdə uzun müddətli xaos davam edir. 2011-ci ildə etirazçılar tərəfindən öldürülən Müəmmar Qəzzafidən sonra Liviyada hələ də sabitlik yaratmaq mümkün olmur. Halbuki qonşu Tunisdə vəziyyət xeyli fərqli oldu, diktator Bin Əli qaçdıqdan sonra xalq hakimiyyətə sahiblendi.

❑ **KƏNAN**



## "Araz Əlizadənin mandatı ləğv olunmalıdır" - YAP Siyasi Şurasının üzvü

**Deputat Araz Əlizadənin Bakının xilaskarı Nuru Paşa haqqında dedikllərinə reaksiyalar gəlməkdə davam edir.**

Sabiq millət vəkili, YAP Siyasi Şurasının üzvü Musa Musayev "Azpolitika"ya açıqlamasında bildirib ki, belə məsələlərdə heç kimə güzəşt ola bilməz.

O, qeyd edib ki, hər kəs öz məsuliyyətini dərk etməlidir, kimsə dərk etmirsə müvafiq qurumlar onu başa salmalıdır: "Mən Araz Əlizadənin belə münasibətini təsadüfi hesab etmirəm. Cənab Prezident bir neçə gün əvvəl Cocuq Mərcanlı kəndinin bərpası haqqında sərəncam imzaladı. Bu tarixi bir hadisədir.

Bu qərarın əhəmiyyəti bir kəndin bərpası ilə məhdudlaşmır. Mən deyərdim ki, bu sərəncam böyük qayıdışın başlanğıcına bir işarədir. Bu təkcə uçub dağılmış evlərin deyil, həm də milli yaddaşın bərpası deməkdir. Cocuq Mərcanlı kəndinə qayıdış eyni zamanda tarixə, ilkə, mənbəyə qayıdış deməkdir".

**M.Musayev hesab edir ki, belə bir məqamda Araz Əlizadə kimilərin xalqın əsəblərinə toxunan hücumları məqsədlidir:** "Görünən budur ki, Cənab Prezidentin bu addımı anti-dövlətçi, Azərbaycanı sevməyən mərkəzlərin əsəblərinə toxunub. Jirinovski dərhal Azərbaycan dövlətçiliyini aşağılayan bəyanatla çıxış edir. Millət vəkili dediyimiz Araz Əlizadə də Azərbaycan dövlətçiliyinin və tarixinin şanlı səhifələrinə dil uzadır, ləkələməyə çalışır.

Mən bunu bir Nuru Paşaya olan yanlış kimi dəyərləndirməzdim. Çünki Araz Əlizadə Azərbaycan dövlətçiliyi üçün müqəddəs sayılan bütün dəyərlərə həqarətlə yanaşır. Yəqin ki, xatırlayırsınız, o bizim himnimiz haqqında da yersiz və əsassız açıqlamalar verməşdi. Guya ki, himnimizin mətni yaxşı deyil və onu dinləyən də "elektrik almır" və s..

İndi hamı hamını yaxşı tanıyır. Biz Araz Əlizadənin hansı ideologiyadan "elektik aldığını" yaxşı bilirik. Ona görə də, mən, Azərbaycan dövlətçiliyini düşünən hər kəsdən xahiş edirəm ki, tarixmizə, milli heysiyyatımıza uzanan çirkli əllər kəsilib atılmalıdır. Və əminəm ki belə də olcaq. Milli Məclis Araz Əlizadının mandatı ilə bağlı məsələni müzakirə edəcək".

## Abdulla Gül: "Ölkədə vicdan və ədalətə uyğun olmayan durumlar görürəm"

**Türkiyənin 11-ci prezidenti Abdulla Gül fövqəladə vəziyyət rejiminin verdiyi səlahiyyət çərçivəsində imzalanan qanun hökmündə qərarnamələr vasitəsilə universitetlərdən kütləvi xaricedilmələrə münasibət bildirib.**

APA-nın "Hürriyet"ə istinadən verdiyi xəbərə görə, A.Gül bu qərarlardan narahat olduğunu deyib: "Xüsusən elm dünyasında, universitetlərdə bu işin sıxlaşması çox narahatlıq doğuran, vicdanı yaralayan durumdur. Ümid edirəm ki, bunlar sürətlə düzəldiləcək".

A.Gül yaranmış vəziyyəti üzüntü ilə izlədiyini söyləyib: "Həm vicdan, həm də ədalətə uyğun olmayan bir çox durumlar görürəm".

Qeyd edək ki, son qanun hökmündə qərarnamə ilə Türkiyə universitetlərindən 330 professor və müəllim qovulub.

## FTX Avropada gizli Qafqaz agent şəbəkəsi qurur




**Almaniyanın ZDF televiziyası "Putinin soyuq müharibəsi" sənədli filmini yayımlayıb. Axar.az xəbər verir ki, filmdə Rusiyanın uzun illər ərzində Almaniyaya Federal Təhlükəsizlik Xidmətinin agentlərini qaçqın formasında göndərdiyi bildirilib. Filmin müəllifləri Kremlin bu addımı ölkədə destabilizasiya yaratmaq üçün atdığını vurğulayıb.**

Filmdə əsas qəhrəman kimi Rusiyadan qaçmış FTX-nın keçmiş polkovniki göstərilir. Televiziya filminin müəllifləri bu şəxsin Putinin hakimiyyəti dövründə Avropaya qaça bilmiş ən yüksək rütbəli rus zabiti olduğunu iddia edirlər. Məhz bu şəxs 20 il ərzində Rusiya xüsusi xidmət orqanlarında xidmət edib və özü şəxsən çeçen casuslarının Almaniyadakı müsəlman icmalarına qaçqın adıyla salınması üçün təşkil edilən xüsusi əməliyyatlarda iştirak edib. Polkovnik bu agentlərin hələlik "yatdığını" (yatmış hücrələr) və zamanı gələndə "oyadılacağını" söyləyib.

Filmin müəllifi olan Eqmont Kox ZDF televiziyasına müsahibəsində FTX-nin eks-əməkdaşı ilə 5 dəfə görüşdüyünü və onunla 15 saat söhbət apardığını bildirib. Kox keçmiş polkovnikin ona bu əməliyyatı həyata keçirən generalları tanıdığını və Kremlin Qərbdə qaçqın formasında gizlənən agentlərindən hansı məqsədlə istifadə edəcəyini bildiyini söyləyib.

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017





# "Azərbaycan Dəmir Yolları" inzibati binasının açılışı oldu

## Müasir standartlara cavab verən binada sərnişinlər üçün pulsuz Wi-Fi sistemi də nəzərdə tutulub




**Fevralın 10-da "Azərbaycan Dəmir Yolları" inzibati binasının açılışı olub. Açılışda prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva da iştirak edib. Onlar inzibati binada yaradılan şəraitlə və Dəmir Yolu Vağzalında aparılan quruculuq işləri ilə tanış olublar. Dəmir Yolu Vağzalına baş çəkərək oradakı yeni şərait və hazırda vağzal ərazisində aparılan abadlıq işləri ilə maraqlandıq.**


Nizaməddin Eminov

Paytaxt Bakının giriş qapısı sayılan bu vağzalda yüksək standartlara cavab verən quruculuq işləri aparılıb. 2015-ci ildən başlanan abadlıq işləri demək olar ki, yekunlaşıb. Vağzalın ətrafındakı köhnə obyektlər sökülüb, hazırda onların yerində müasir standartlara cavab verən mağazalar tikilir. Dəmiryol İdarəsinin yenicə təmirdən çıxan inzibati binası isə özünəməxsus dizaynı ilə seçilir. Vağzalın əsas binasının üzlüyü memarlıq üslubu saxlanılmaq şərti ilə yenidən qurulub, binanın əsaslı təmir işləri aparılıb.

Binanın birinci mərtəbəsində 2 saylı "ASAN kommunal" fəaliyyət göstərir. Həmçinin bilet satışı kassaları, sərnişin platformaları müasir üslubda əsaslı təmir olunub, eskalatorlar yenisi ilə əvəzlənib. Yük, sərnişin və əlillər üçün liftlər quraşdırılıb. Əsaslı təmir zamanı burada inzibati otaqlar, müasir standartlara cavab verən ticarət və iaşə obyektləri yaradılıb, ana-uşaq otaqları, gözləmə zalı, saxlama kameraları sərnişinlərin istifadəsinə verilib. Binada sərnişinlər pulsuz Wi-Fi sistemindən də istifadə edəcəklər.

**Bakı Dəmir Yol Vağzalının stansiya rəisi Nizaməddin Eminov** bizimlə söhbətdə aparılan abadlıq və yenidənqurma işlərindən danışdı: "Biz həmişə demişik ki, Bakı Vağzalı şəhərin əsas giriş qapısıdır. Gördüyünüz kimi, köhnə vağzal əsər-əlamət qalmayıb. Etiraf gedək ki, əvvəl burada yaxşı istər işçilər üçün, istərsə də sərnişinlər üçün normal şərait yox idi. Bütün bunlar Cavid Qurbanovun apardığı işlərdən qaynaqlanır. Bu gün həm də Cavid Qurbanovun Azərbaycan Dəmir Yollar İdarəsinə sədr təyin olunmasının iki ili tamam olur. Bu da bir təsadüfdür. Bakı Avtovağzalı yüksək standartlara cavab verir. Təbii ki, bütün bunlar cənab prezident İlham Əliyevin diqqəti və qayğısı nəticəsində baş verdi".

AZƏRTAC-ın məlumatına görə, burada yaradılan "ASAN kommunal" mərkəzi qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara, o cümlədən vağzaldan istifadə edən bütün sərnişinlərə xidmət göstərəcək. Burada həmçinin "Azərişıq" və "Azərsu" ASC-lər, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 45 növ xidmətin göstərilməsi nəzərdə tutulur. Bank və notariat xidmətlərinin də təşkil edildiyi mərkəzdə 51 əməkdaş, 20 könüllü, ümumilikdə, 71 nəfər işlə təmin olunub. Bu il yanvarın 15-dən fəaliyyətə başlayan 1 saylı "ASAN kommunal" mərkəzində bu günədək 3200-dən artıq müraciət qeydə alınıb.




Qeyd edək ki, binada işçilərin yüksək səviyyədə çalışmaları üçün hərtərəfli şərait var. Server otağında qatarların hərəkətinin onlayn və GPS izlənmə sistemləri tətbiq edilib. Binanın 280 nəfərlik müasir akt zalında bütün imkanlar yaradılıb. İnzibati otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Binada, həmçinin şəhid dəmiryolçuların fotolarından ibarət guşələr yaradılıb. Müasir yeməkxana işçilərin ixtiyarına verilib.

Xatırladaq ki, Bakı Dəmir Yolu Vağzalının binası 1884-cü ildə Mavritaniya üslubunda inşa olunub, 1926-cı ildə isə rekonstruksiya edilib. Elə həmin ilin iyununda keçmiş SSRİ məkanında ilk dəfə Azərbaycanda Bakı-Sabunçu dəmir yolu sahəsində elektrik qatarı hərəkətə buraxılıb. 1977-ci ildə dəmir yolunun Bakı sərnişin stansiyasında yeni vağzal binası tikilib.

❑ **Məğrur MƏRD**
❑ **Fotolar müəllifindir**

---

**Blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiyası son günlər ölkə və dünya gündəminin əsas müzakirə mövzusudur.**

# "Lapşini idarə edənlər Moskva və İrəvandadır"

## Qabil Hüseynli: "O, beynəlxalq imperializmin agenti kimi, bacarıqlı və böyük bir çətirin altında gizlədilən şəxs olub"; Rusiya və İsrail səfirliyi bloggerlə görüşüb




Artıq Lapşin istintaqa ifadə verib və ittiham üzrə özünü qismən təqsirli bilib. Bu barədə Lapşinin hüquqlarını qoruyan və fevralın 9-da Bakı İstintaq Təcridxanasında onunla görüşən vəkil Səfər Hüseynov məlumat verib: "Öz yazdığı məqalələri təsdiqləyib, ora getdiyini, Qarabağa keçdiyini etiraf edib. Özünü qismən təqsirli bilir. Ona dəstə tərəfindən törədilən cinayət ittihamı verilib. Onlar bir qrup adam olublar. Həmin adamlar haqda da ifadə verib. Deyib ki, bu adamlar vasitəsilə getmişəm, adlarını çəkib, amma soyadlarını bilmir".

"Azərbaycan tərəfi Rusiya-Azərbaycan razılaşması üzrə öhdəliklərini yerinə yetirib".

APA-nın verdiyi məlumata görə, bunu **Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin** "İnterfaks-Azərbaycan"a müsahibəsində blogger Aleksandr Lapşinin işi ilə bağlı məsələyə münasibət bildirərkən deyib.

O qeyd edib ki, səfirlik Rusiya vətəndaşının saxlanması ilə bağlı vaxtında məlumatlandırılıb: "Fevralın 9-da, yəni bizim sorğumuzun göndərilməsindən bir gün sonra konsulluq işçisi Lapşinlə görüşüb. Gördük ki, həmin şəxsin saxlanma şəraiti normaldır, onun şikayəti yoxdur, vəkil müdafiəsi ilə təmin olunub. Səfirlik beynəlxalq hüquq normalarına və Azərbaycan-Rusiya razılaşmalarına uyğun olaraq Lapşin işinin obyektiv və ədalətli həllinə inanır".

Qeyd edək ki, fevralın 10-da Lapşin vətəndaşı olduğu İsrailin Azərbaycandakı səfirliyinin əməkdaşları ilə görüşüb. Bu barədə APA-ya Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib. O qeyd edib ki, görüş beynəlxalq hüquq normalarına uyğun olaraq, İsrailin Azərbaycandakı səfirliyinin Azərbaycan Xarici İşlər Nazirliyinə müraciəti əsasında baş tutub.

Azərbaycanlı vəkilin Lapşinin hüquqlarını qoruması sosial şəbəkələrdə müəyyən müzakirələrə səbəb olub. Vəkili qınayanlar da var, bir şəxsin hüquqlarının qorunması baxımından müdafiə edənlər də.

**Vəkil Əsabəli Mustafayev** bunları dedi: "Xarici ölkə vətəndaşı yerli dili bilmir, yerli qanunvericiliklə tanış deyil. Düşünürəm ki, xarici vəkillər də onun müdafiəsinə qoşulacaqlar. Düzdür, qanunvericiliyimiz xarici vətəndaşların ölkəmizdə vəkillik etmələrinə icazə vermir. Onlar ancaq məsləhətçi kim iştirak edə bilərlər. Amma hökumət məhkəmənin tam qanunla keçməsinə şərait yaratmalıdır ki, prosesin ədalətli keçməsində kimsənin şübhəsi olmasın. Azərbaycan beynəlxalq hüquq sistemini bilən mütəxəssislər dəvət etməlidir. Əgər xaricdən təcrübəli mütəxəssislər qoşulsa, bizim üçün çətin ola bilər. Hökumət indidən bunu düşünməlidir".

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Lapşin Azərbaycana qarşı olan təxribatın bir fiqurudur: "Onu idarə edənlərin əksəriyyəti zənnimcə, Moskva və İrəvandadır. Ola bilsin ki, onun uzantıları ölkəmizə də gəlib çıxsın. Əgər Lapşin adı "qara siyahı"da ola-ola iki dəfə Azərbaycana gəlirsə, onun Ukrayna pasportundan istifadə etdiyini söyləyirlərsə, bu kifayət qədər inandırıcı deyil. Ayıq-sayıq sərhəd işçiləri bunu dəyərləndirməli idilər. Aydındır ki, Lapşin təkbaşına o qədər yazılarını müxtəlif ölkələrdə dərc etdirə bilməzdi, təkbaşına bu şəkildə fəaliyyət göstərməsi də çətindir. Bunun üçün böyük vəsait, qeyyumluq lazım idi. Bunun bir ucu mütləq Ermənistanın siyasi rəhbərliyinə gedib çıxır. İstintaqda Ermənistan, eləcə də qondarma "Dağlıq Qarabağ Respublikası"ndan kimlərdən təlimat aldığını bülbül kimi ötəcək. Məni həyəcanlandıran odur ki, burada Azərbaycanla bağlı da müəyyən xoşagəlməz məqamlar üzə çıxa bilər. Ölkəmizdən kimlərinsə d ola bilsin ki, onu himayə etdikləri üzə çıxsın. Bunu ixtiyyarən arzulamıram. Belə olarsa, bu çox böyük biabırçılıq olar. Lapşin beynəlxalq imperializmin agenti kimi, bacarıqlı və böyük bir çətirin altında gizlədilən şəxs olub. Ona görə bu prosesləri həyata keçirə bilib. O etdiyi əməllərin cəzasını çəkməlidir. O, bir qrup şəxsin əli ilə ora getməsi barədə elə də önəmli məlumat vermir. Belə səfərləri Ermənistan rəhbərliyi təşkil edir. Qondarma rejimi təbliğ etmək üçün belə metodlardan istifadə edir. Həmin şəxslərin adlarının verilməsi Azərbaycan üçün də böyük əhəmiyyət kəsb etmir. Rusiya və digər ölkələrdən adlar çəkilərsə, bunun bizə bəzi müsbətləri olar. Həmin şəxslərin İnterpol xətti ilə tutulub Azərbaycana gətirilməsi müəyyən çətinliklər yarada bilər. Amma hər halda bunun da müəyyən rolu olar. Lapşin adi jurnalist, blogger deyil. O çox böyük yükün altına girmiş, böyük missiya daşıyan və böyük tapşırıqlar icra edən bir fiqurdur. Dağlıq Qarabağa gedən başqa qruplar, şəxslər olsun, onlar bunun qədər təhlükəli işlər görməyiblər. Çünki onun yazıları, televiziya verilişləri, Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyəti bir çox məqamlarda effektli olub. Bu nöqteyi-nəzərdən demək mümkündür ki, Lapşin təkbaşına fəaliyyət göstərməyib. Nə olsun ki bir qrup adamla gedib. Onlar müxtəlif qrup adamlar ola bilərlər. Lapşin xırda balıqların adını çəkməməlidir. Onu bu yola çəkən iri balıqların adını çəkməlidir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

# "Sipark Qrup"un rəhbəri televiziya açır

## Seymur İsayev: "TDT türk coğrafiyasında yaşayan türklərin ortaq televiziyası olacaq"

**"Sipark Qrup"un rəhbəri, iş adamı Seymur İsayevin Bakıda olduğunu bilib, ondan "Yeni Müsavat" qəzeti üçün müsahibə aldıq. Müsahibəni təqdim edirik.**

***- Seymur bəy, sahibi olduğunuz "Sipark Qrup" inşaat sektorunda fəaliyyət göstərən bir təsisatdır. Şirkətiniz haqda bir az məlumat versəydiniz, oxucular üçün də maraqlı olardı.***

- "Sipark Qrup" bir neçə qurumdan təşkil olunmuş böyük şirkətdir. Bu şirkətin tərkibində "Sipark İnşaat", "Sipark Turizm", "Sipark Otelçilik", "Sipark Əmlak", "Sipark Media" kimi qurumlar fəaliyyət göstərir. Bu günlərdə isə Qrupa Türk Dünyası Televiziyası(TDT) də əlavə olundu. "Sipark"ın baş ofisi İstanbuldadır. Amma bu, bir Azərbaycan şirkətidir. Türkiyəli şəriki yoxdur. Üç azərbaycanlı şərikdən ibarət bir qrupdur. Rəhbəri mənəm. "Sipark Qrup" sadaladığım təsisatların hüquqi və faktiki sahibidir. Şirkətimizin fəaliyyət növü rəngarəng olsa da, ana işi inşaatdır.

***- İnşaatın yönümü nədir? Sosial evlər tikirsiz, iş mərkəzləri, ya yaşayış binaları?***

- "Sipark"ın əsas yönümü sosial yönümlü evlərdir. Hazırda Bakıda iki layihəmiz var. Biri Həsən Əliyev küçəsindədir. Digəri Təbriz küçəsində. Cənab prezidentin haqqında danışdığı layihə - köhnə evləri yıxıb, yerində müasir binalar tikmək, bax, biz o layihələrdə iştirak edirik. Məsələn, beş girişli yaşayış massivi salırıq. Altı girişli yaşayış massivi isə Təbriz küçəsindədir. Bundan başqa, bizim Elmlər Akademiyasında olan işimiz var. Bakıda 9-a yaxın bitən layihəmiz var, İstanbulda isə bitən layihələrin sayı 4, davam edən layihənin sayı isə 2-dir. O layihənin biri də İstanbulun şah əsəri olan Bağdat Caddəsinin üzərindədir. Çünki Bağdat Caddəsi öz-özlüyündə həm qiymətli büdcədir, həm də İstanbul sosyetesinin əsas yaşadığı bölgədir.

***- Artıq ona da start verilib?***

- Bəli, qaba inşaat bitib, incə işlər gedir. 10 mərtəbəli arxadı, 4 mərtəbəli isə öndür. Bundan başqa, Ataşəhərdə, Beylikdüzündə və Floriyada bitirdiyimiz üç layihəmiz var. Bağdat Caddəsi və Ümraniyədəki layihəmiz isə davam edir. Kiprdə də yeni başladığımız layihə var.

***- "Sipark İnşaat", "Sipark Turizm", "Sipark Media" və sonuncunun nəzdində olan televiziya. Bir iş adamı üçün televiziya açmaq müəyyən risklər yarada bilər. Özü də bu biznes layihəsinə bənzəmir. Bu addımı atmağa sizi nə vadar etdi? Sadəcə, bir həvəsmi, şöhrətmi, yoxa içinizdə buna bir mənəvi ehtiyacmı hiss etdiniz?***

- Əvvəl biz Türkiyədəki Ege TV-ni almaq istədik. Hər hansı televiziya olsa da, istəyirdik ki, onun Azərbaycanla bir bağlılığı olsun. Çünki türk dünyası televiziyası olmasa, onun Azərbaycanla əlaqəsini, bağını qura bilməzdik. Türk dünyası ölkələrindən biri də Azərbaycandır. Bu gün Azərbaycandakı iki iş adamının qardaş ölkədə telekanalı var. Amma onlar həmin kanalda Azərbaycanla bağlı bir dəfə, ya iki dəfə nəsə hazırlayarlar, ondan artığını yox. Amma biz bu kanalda Azərbaycanla bağlı nəsə hazırlayanda heç kimə qəribə gəlməyəcək. Çünki Azərbaycan türk dünyasının əsas ölkələrindən biridir. Üstəgəl, türkçülük qanımızda var, ordakı dostlarımız da türkçüdülər. Ona görə də belə bir layihə edə bilərdik ki, türkçülüyü təbliğ edək və siyasətdən uzaq olaq. Bir siyasətimiz olacaq, o da türkçülük.

***- Bəs biznes marağı?***

- Elə məsələlər var ki, biznes maraqları orda arxa plana keçir. Biz başqa sahələrdən qazandığımızı türk millətinin yolunda xərcləməyi planlaşdırırıq. İnşallah gələcəkdə TDT böyüyər, o zaman həm də pul gətirəcək, biznes layihəsinə çevriləcək.

***- Türkçülüyü hansı yöndən təbliğ edəcəksiz?***

- Yayım siyasətimiz hazırlananda biz bu məsələləri müzakirə etdik. Məqsədimiz orda türkçülüyün özünü qabartmaq deyil. Biz türklərin adət-ənənələri, ortaq yarışmasını həyata keçirmək istəyirik. Məsələn, biz artıq məşhur "Surviover" yarışmasının patentini, müəlliflik hüququnu aldıq. Bu yarışmanı türk ölkələri arasında edəcəyik. Məqsəd sırf türkçülüyü qabartmaq deyil.

***- Yəni məqsəd türk coğrafiyası boyunca mədəniyyətlərin, folklorun, adət-ənənənin, idmanın təbliğatıdır?***

- Bəli, bütün bu sahələrin təbliği və təqdimidir. Əsas fikir odur. Amma bununla yanaşı, bizim siyahıda türkçülüyü yüksək səviyyədə təbliğ edən elm adamlarımız, professorlarımız da var. Yəqin ki, Azərbaycandan da çağırılacaq. Onların öz yeri var. Hansı ki, onların iştirakı ilə biz türkçülüyü də təbliğ edəcəyik. Amma kanal sırf türkçülüyün təbliği ilə məşğul olma missiyasını öz üzərinə götürsə, bu, monotonluq və müəyyən ünvanlardan qıcıq yaradar. Çünki Türkiyədə kürd də var, laz da, başqa etnik qruplar da. O cümlədən Azərbaycanda. Sadəcə məqsəd odur ki, onlar da baxsın, amma onu qabarıq xətt kimi götürməyək. Bilməyənlər türk folklorunu, mədəniyyətini, klassik idman növlərini bizim kanal vasitəsilə öyrənsinlər.

***- Telekanaldakı verilişlərin adları, süjet xətti, mövzusu, formatı nədən ibarət olacaq? Məsələn, Qazaxıstanla Azərbaycan studiyaları arasında telekörpü olacaqmı?***

- TDT-nin rəhbəri tanınmış televiziyaçı Cenk İçtendir. Bütün məsələləri o müəyyən edəcək. Telekörpülər isə olacaq. Türk coğrafiyasında olan bütün ölkələrdə öz ofisimizi qurmaq istəyirik. Sadəcə olaraq, bir operator, bir müxbir yox, hər ölkədə ayrıca bir ofis.

***- Büronuz üçün binalar almısızmı?***

- Orta Asiyadakı ofislərlə bağlı məsələni yerli hökumətlə də razılaşdırmışıq. Məsələn, Özbəkistan bizə keyfiyyətli tanıtım üçün billbordlar hədiyyə etdi.

***- Azərbaycanla bağlı təşkilati işlər necə gedir? Ofis almısızmı?***

- Azərbaycanda ümumən ofislərimiz çoxdur. Amma bizim ən birinci fikrimiz Türksat yayımı ilə bağlı təşkilati işləri bitirməkdir. Hazırda internet yayımı gedir. 24 saat yayımdayıq. Tanıtım xarakterli. Amma Türksat yayımını mart ayının 1-dən başlamaq istəyirik. Danışıqlarımız, müqavilələrimiz də bu istiqamətdə gedir. Hazırda yayımlamaq üçün məhsulumuz var. Amma bundan sonra yayım gedə-gedə ofislərimizi bir-bir açacaq və bunun xəbərini də verəcəyik.



**"Biz siyasətlə məşğul olmayacağıq, əsas məqsədimiz Qarabağ probleminin düzgün çatdırılması, Azərbaycan həqiqətlərinin yayılması, türkçülüyün təbliğidir"**

***- Türkiyə ofisiniz İstanbulda olacaq?***

- İstanbulda. Amma TDT-in ana ofisi Kiprdədir. Hazırda fəaliyyət ana ofisdən gedir. Bütün studiyalar orda, konkret olaraq Girnedədir. Çünki bizim kanal orda var olan bir kanalın bazasında qurulub. Akdeniz TV adlı kanlı TDT-yə çevirdik.

***- Akdeniz TV-nin sahibi kim idi?***

- Hüseyn Macid Yusif. O, Kiprin Türkiyədəki böyük elçisidir.

***- Niyə TDT-nin rəhbərliyini Cenk İçtene verdiniz?***

- Cenk İçten Azərbaycanın televiziya sahəsində 15 ilə qədər çalışıb. Bir neçə layihəsi, verilişləri olub. Özü də türkçüdü. Türkçü alimlərdən başlamış, türkçü sənət adamlarını yaxşı tanıyır, əlaqələri gözəldir. Həm Hüseyn bəyə, həm də mənə uyğun insan idi. Ona görə də onunla çalışmağa qərar verdik.

***- Bakı ofisinizdə müxbirləriniz, operatorlarınız da seçilibmi?***

- Bəli, bildiyim qədər artıq Cenk bəy onları da seçib və təyin edib.

***- Canlı yayım verilişləriniz də olacaqmı?***

- Mütləq. Bizim artıq Türkiyədə də, Kiprdə də canlı yayım maşınlarımız var. Bunu Azərbaycanda da edəcəyik.

***- Bakı ofisinizin ştatı hazırdır... Bəs telekanalın fəaliyyət göstərəcəyi bina hazırdırmı?***

- Yox, binamız hazır deyil. Bizim binamız Türksat yayımına çıxandan sonra, yəni, gələn ayın 1-də hazır olacaq. Həm də tikinti şirkəti olduğumuz üçün yer problemimiz yoxdur. Bütün Orta Asiya, eləcə də Azərbaycan şöbəmiz üçün lazım olan texniki avadanlıqları almışıq. Harda ofis açacağıqsa, onun texniki avadanlıqları hazırdır. Bizim Türkiyə və Kipr şöbəmiz üçün avadanlıqlarımız var idi və Akdeniz TV-nin bazasında idi. Biz digər ofislərin ləvazimatlarını aldıq. Ştat da bəllidir.

***- Bakı ofisinizdə nə qədər işçi olacaq?***

- 4 nəfər.

***- Yayım 24 saat olacaq?***

- Bəli, 24 saat. Bir məqamı da deyim. Niyə baş ofisi Kirpdə etdik? Çünki Kiprin daha çox tanıtıma ehtiyacı olduğunu nəzərə alıb, baş ofisi orda seçdik. Əslində fikir ordan yarandı ki, bəzi Türkiyə kanallarında belə Azərbaycanla bağlı Türkiyə cəmiyyətinə yanlış informasiyalar verilir. Sahibi azərbaycanlı olan kanalların sayı isə cəmi iki dənədir ki, onlar da ancaq reklam kanallarıdır. Bu gün Türkiyədə sahibi azərbaycanlı olan, qeyri-reklam sahəsi üzrə fəaliyyət göstərən telekanal yoxdur. Yəni, TDT Azərbaycan həqiqətlərinin türk dünyasını çatdırılması üçün vəsilə olacaq. Mən bir azərbaycanlı olaraq hesab edirəm ki, türk ölkələri arasında ən çox problem və qayğı ilə üzləşən Türkiyə və Azərbaycandır. Biz də türkün harda düşməni varsa, onu göstərəcəyik. Təbii ki, siyasi məsələləri yox, bu, bizim sahəmiz deyil. Amma digər bütün məsələlər üzrə fəaliyyətimiz türk düşmənlərinə qarşı olacaq.

***- Bu televiziyanın hazırkı sahibi olan "Sipark"dan da danışaq.***

- Burda layihələrə başladıq. İndi çox adam qorxusundan layihələrə yaxın gəlmir. Cənab prezident deyir ki, iş yerləri açılsın. Ona görə də bu gün sərəncamları Bakı şəhər İcra Hakimiyyətləri yox, rayon icra hakimiyyətləri verir. Bu gün Fövqəladə Hallar Nazirliyində qeydiyyatdan keçmək xeyli asanlaşdırılıb.

***- Yəni prezidentin bir il öncə iş mühitinin yaxşılaşdırılması ilə bağlı verdiyi fərmanların effektini iş adamı olaraq görürsünüz?***

- Bəli, çox görürük. Əvvəllər Bakı şəhər İcra Hakimiyyətindən bir sərəncamı almaq üçün aylarla gözləyərdik. İndi isə müvafiq sərəncamları rayon icra hakimiyyətləri 3 günə verir. Bizim hazırda hər iki layihəmiz Nərimanov rayonu ərazisindədir. Nərimanov Rayon İcra Hakimiyyəti sərəncamların verilməsini, layihələrin təsdiq olunmasını operativ şəkildə həyata keçirir. Beləliklə, həm layihələşmədə, həm də tikinti prosesində yaranan problemlərin həllində çox yaxından kömək etmiş olur. Fürsətdən istifadə edib onlara öz təşəkkürümü bildirirəm. Yalnız dövlət rüsumu ödəyirik. Əvvəllər aylarla çəkən yoxlamalar indi operativ qaydada həll olunur. Müsbətə doğru çox ciddi dəyişikliklər var. Çünki prezident Asan Xidmətdəki kimi bu layihələrə birbaşa nəzarət edir. Sahibkarların fəaliyyəti üçün münbit şərait yaradır.

❑ **A.ABBASOV**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

# "Təklif edirəm, bütün icra başçıları Cocuq Mərcanlıya getsinlər"

## Əhəd Abıyev: "Cənab prezident bir yandan işğaldakı torpaqların azad edilməsi istiqamətində gərgin iş aparır, digər tərəfdən isə əsgər və şəhid ailələrini diqqətdən kənarda saxlamır"

**Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Əhəd Abıyevin "Yeni Müsavat" qəzetinə müsahibəsini təqdim edirik.**

***- Əhəd müəllim, son günlər Azərbaycanla bağlı olduqca maraqlı proseslər gedir. Onlardan biri də blogger Aleksandr Lapşinin ölkəmizə ekstradisiya edilməsidir.***

- Müsahibənin lap əvvəlində sizdən bir xahiş edəcəm.

***- Buyurun. Nə xahişdi?***

- Mənim sözlərimi olduğu kimi verin. Çünki bəzi qəzetlər, saytlar, fikrimizi qərəzli şəkildə və bilərəkdən təhrif edirlər.

***- Narahat olmayın. Nə danışsanız, hamısını verəcəyik.***

- Aleksandr Lapşinin Bakıya gətirilməsi Azərbaycanın bir dövlət olaraq nüfuzunu və gücünü göstərən hadisədir. Həmçinin ölkəmizin başçısı cənab İlham Əliyevin ölkəsi və xalqı üçün necə bir fədakarlıq etməsinin, prinsipial mövqe tutmasının sübutudur. Lapşin Azərbaycanın qanunlarını pozaraq, işğal altında olan ərazilərə səfər edib, Azərbaycan dövləti və azərbaycanlılar barədə qərəzli, təhqiramiz məqalələr yazmışdı. Budur, artıq o, Azərbaycan Respublikasının qanunları qarşısında cavab verir. Bu, bizimlə bağlı yanlış mövqe tutan hər bir kəsə dərs olmalıdır. Bu şərəfsizlər anlasınlar ki, Azərbaycanın qanunlarını pozub sonra rahat gəzib-dolaşmaq mümkün olmayacaq.

***- Bəziləri Lapşinin Bakıya əl-qolu bağlı gətirilməsinə irad bildirirlər.***

- Bəli, yaramazlar həmişə olub, var və olacaq. İndi neynəyək, ölkəmizin və xalqımızın ünvanına təhqiramiz ifadələr işlətmiş, işğal altındakı torpaqlarımıza qanunsuz səfərlər etmiş birini Azərbaycan dövləti cəzalandırırsa, özü də yerli və beynəlxalq qanunlara əsasən, bundan bəziləri niyə narahat olur?! İnanın, Lapşin gətirilməsəydi, onlar yazacaqdılar ki, hakimiyyətin bir siyasi oyunbaza gücü çatmadı. Bu, diplomatik bir qələbədi. Lapşinin həbsi və ölkəmizə verilməsi Azərbaycan-Belarus dostluğu və dövlətimizin beynəlxalq aləmdəki gücünü göstərdi. Bir daha da bütün dünyaya bəyan edilmiş oldu ki, möhtərəm cənab Ali Baş Komandanın apardığı xarici siyasət yüksək nəticələr verməkdədir. Qarabağa, böyük qələbələrə gedən yol bu cür başlayır. Azərbaycan prezidenti hörmətli İlham Əliyevin apardığı bu işlər həm daxili, həm xarici düşmənlərimizin yuxusunu qaçırıb. Onlar Azərbaycanın qüdrətli dövlət, güclü ordusunun olmasını həzm edə bilmədikləri üçün özlərinin çirkin fəaliyyətdən əl çəkmirlər. Onlar da xaricdə fəaliyyət göstərir.

***- Bəzən daxildə düşmən axtarmaq, sizcə, yanlış deyilmi?***

- Düzdür, bəziləri dövlətə, iqtidara qarşı düşmənçilik edirlər. Bilirsiniz ki, Azərbaycan prezidenti olduqca humanist insandır. İqtidara qarşı qərəzli münasibət bəsləyən, xarici dairələrin sifarişi ilə ölkəmiz haqda olmazın böhtanlar danışan, qərəzli məqalələr yazan adamları cənab prezident zaman-zaman əfv edib, onlara yeni bir şans verib ki, səhvlərini düzəltsinlər, bir daha çaşmasınlar. Amma onların içində səhvini anlayıb haqq yola qayıdanlar da olub. Lakin təəssüf ki, dövlətə və xalqımıza qarşı düşmənçilik apararaq bu yanlış yoldan dönməyənlər də var. Bələlərinin pulu xarici erməni dəyirmanına su tökən xarici fondlardan gəlir.

***- Əhəd müəllim, yeri gəlmişkən, Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndi ilə bağlı aparılan işlərlə maraqlanırsınızmı?***

- Əlbəttə. Hər gün, hər saat o mövzu diqqətimizdədi. Möhtərəm prezidentin Qarabağın işğaldan azad edilməsi ilə bağlı gördüyü işlər göz qabağındadır. İstər diplomatik müstəvidə olsun, istər siyasi, istərsə də hərbi, Ali Baş komandanımız gecə-gündüz dayanmadan çalışır. Müharibə təkcə cəbhə xəttində, səngərlərdə aparılmır. Bu gerçəyi hər kəs bilməlidir. Cənab İlham Əliyevin siyasi-diplomatik səngərdə, cəbhədə gördüyü işlərin bəhrəsini xalqımız yaxın zamanlarda görəcək. Cocuq Mərcanlı böyük qələbənin başlanğıc mərhələsidir. Möhtərəm prezidentimiz bizi böyük qələbəyə, doğma yurda qayıdışa - Qarabağın işğaldan azad edilməsinə doğru aparır.

***- Son vaxtlar ayrı-ayrı təşkilatlar, Cocuq Mərcanlıya gedirlər. Bu günlərdə ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələri də ora gedəcəklər. Bu səfərlərin təşkilini necə qiymətləndirirsiz?***

- Açığı, bu mövzuya toxunacaqdım, məni qabaqladınız. Azərbaycan üçün hazırda ən həssas və vacib mövzulardan biri də Cocuq Mərcanlıya dönüşlə bağlıdı. Bu kənd bizim üçün Qarabağa, işğal altındakı torpaqlarımıza açılan qayıdış qapısıdı. Ona görə də hər bizimiz Cocuq Mərcanlının bərpası istiqamətində təşəbbüskar olmalıyıq. Şəxsən mən təklif edirəm ki, bütün rayon icra hakimiyyəti başçıları Prezident Administrasiyasının razılığı əsasında qruplar halında Cocuq Mərcanlıya səfər etsinlər. Xalqın, yerli əhalinin içinə getmək, onlarla çiyin-çiyinə dayanmaq, probleminə yaxından bələd olmaq lazımdı. Bu, Ulu Öndərimiz Heydər Əliyevin yoludur. Bu, bizim əziz prezidentimiz İlham Əliyevin siyasətidir. Ölkəmizdə prezidentin rəhbərliyi ilə islahatların yeni mərhələsi başlayıb, görüləcək işlərlə bağlı tapşırıqlar verib.

Həmçinin cənab prezident bu günlərdə nəşi düşməndən alınaraq böyük təmtəraqla dəfn edilən şəhid Çingiz Qurbanovun ailəsini qəbul etdi. Çingizin valideynləri ilə xeyli söhbət etdi, ona ölümündən sonra milli qəhrəman adı verdi. Cənab prezident "Qızıl ulduz"u şəhidin atası Salman Qurbanova təqdim etdi. Bu mükafat təkcə Çingiz Qurbanova deyil, Azərbaycan torpaqları uğrunda canından keçən bütün şəhidlərə verilən qiymətdir. Bunları xalq görür, ki, cənab prezident əsgər və şəhid ailələrinə sahib çıxır, onlara diqqət və qayğı göstərir. Biz məmurlar da Ali Baş Komandanın bu davranışından nümunə götürərək yerlərdə onun bu uğurlu siyasətini davam etdiririk.

## "Lapşinin Bakıya gətirilməsi dövlətimizin və Azərbaycan prezidentinin qüdrətinin göstəricisidir"



## "Kim çaşırsa, aşır, yolundan çıxırsa, layiqli cəzasını alır"

***- Əhəd müəllim, son vaxtlar sizinlə bağlı bəzi saytlarda yazılar gedir. Gah yazırlar, müşavirədən sonra əhvalınız pisləşib, gah da reket mətbuatla adınızı hallandırırlar.***

- Bunlar hamısı cəfəngiyatdır. Sağlam jurnalistika heç vaxt belə yazmaz. Mənim mətbuata münasibətim həmişə normal olub. Jurnalistlərlə arama heç vaxt sədd çəkməmişəm. Nə zaman müraciət ediblər, onlara müsahibə vermişəm. Baxın, indi siz zəng etmisiniz, verdiyiniz sualların hamısına cavab verirəm. Amma bəzi saytlar var ki, barəmdə ağızlarına gələn mənim demədiyim cəfəngiyat şeylər yazırlar. Mən cənab prezidentin rəhbərliyi ilə keçirilən müşavirədən çıxarkən mobil telefonumu açdım, qardaşımın rəhmətə getməsi xəbərini aldım. Qardaşının ölüm xəbərini alan insanın əhvalı təbii ki, pisləşər. Bu xəbər yayılandan sonra bəzi qəzetlər mənə zəng vurdular, vəziyyəti izah etdim. Çox sağ olsunlar ki, doğru-düzgün xəbər hazırlayıb sayta və qəzetə verdilər, hər kəs də həqiqəti bildi.

Qaldı ki, barəmdə yazılan digər iftiralara. Bilirsiniz, istər deputat kimi fəaliyyət göstərdiyim vaxtlarda, istərsə də icra başçısı vəzifəsini icra etdiyim bu 6 illik müddətdə ən çox reket mətbuatdan əziyyət çəkən məmur olmuşam. Belə olduqda hansı məntiqlə mən reketlərə himayədarlıq edə bilərəm?! Mən normal, əxlaqlı, düzü düz, əyrini əyri yazan jurnalistlərə böyük hörmət bəsləyirəm. Amma reket mətbuat... Bu, mənlik iş deyil. Həmişə də onlara iradımı bildirmişəm.

***- Bu yazılardan sonra müəyyən qeyri-ciddi şayiələr yayırlar. Və Prezident Administrasiyası adından danışırlar.***

- Bilirsiniz, Prezident Administrasiyası rəhbərliyi və orada işləyənlər təcrübəli insanlardan ibarətdir. Onlar hansı saytın hansı məqsədlə yazdığını gözəl bilirlər. Həmçinin təyin etdikləri kadrları da çox yaxşı tanıyırlar. İstər cənab prezident, istərsə də onun komandası yerlərdəki kadrlarına hansısa reket saytın, qəzetin şantajçı, böhtançı, qərəzli yazısı ilə deyil, sırf o kadrların fəaliyyəti ilə qiymət verirlər. Biz bu iqtidara, dövlətə, xalqa boş-boş sözlə yox, fəaliyyətimizlə, həmçinin sədaqətimizlə xidmət göstəririk. Kim çaşırsa, aşır, yolundan çıxırsa, layiqli cəzasını alır.

***- Əhəd müəllim, bu gün ölkədə nümunəvi rayonlar, şəhərlər, bölgələr varmı və ilk sırada hansıların adlarını çəkərdiniz?***

- Mən müstəqil Azərbaycanda 15 il deputat, 6 ildir də icra başçısı olmuş şəxs kimi deyə bilərəm ki, Azərbaycan özü dünya üçün bir nümunəvi hüquqi-demokratik dövlətdir. Ölkəmizdə sabitlik, əmin-amanlıq, terrorsuz bir mühit var. Bunlara görə ölkə başçısı, cənab İlham Əliyevə minnətdar olmalıyıq. Həmçinin hüquq-mühafizə orqanları etibarlı əllərdədi. Vahid rəhbərlik var.

Qaldı ki sizin sualınıza... Birmənalı olaraq bildirirəm ki, bu gün Naxçıvan Muxtar Respublikası hazırda nəinki Azərbaycan üçün, region ölkələri üçün bir nümunəvi modeldi. Cənab prezidentin rəhbərliyi ilə hörmətli Vasif Talıbov hazırda Naxçıvanda böyük quruculuq-abadlıq işləri aparır. Bütün sahələr üzrə gözəl işlər görülüb və görülməkdədir. Ora gələn turistlər, diplomatik qonaqlar, həmçinin qonşu dövlətlər olan İran və Türkiyə vətəndaşları bu inkişafı, yeniliyi görüb Azərbaycanla bağlı təsəvvürləri daha da müsbətə doğru dəyişir. Xatırladım ki, Naxçıvan yarımblokada şəraitindədir. Lakin buna baxmayaraq Muxtar Respublika hazırda özünün inkişafının zirvəsini yaşayır. Bütün dünya dövlətləri ilə siyasi və iqtisadi əlaqələr qurulub. Məncə, bütün bunlar sizin sualınıza ən yaxşı cavabdır.

## "Bu gün Naxçıvan özünün inkişaf dövrünün zirvəsini yaşayır"

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

**Deputat, YAP icra katibinin müavini Siyavuş Novruzov "Yeni Müsavat"a açıqlamasında hökuməti tənqid edən bəzi həmkarlarını ad çəkmədən tənqid edib. Onun sözlərinə görə, bəzi adamların yeni taktika seçiblər "prezidenti tərifləyək və bundan özümüzə qalxan yaradaq, yerdə qalanları tənqid edək" yanaşması sərgiləyirlər. A.Musayev S.Novruzovu bu komandanın ən səmimi və sadiq üzvlərindən biri kimi tanıdığını söylədi: "Ola bilər ki, onun üslubu, seçdiyi hədəflərə yanaşma tərzi bir qədər fərqlidir. Və müxtəlif təbəqələrin zövqünə uyğun olmaya bilər. Amma mən hesab edirəm ki, onun açıqlamaları ümumi maraqların müdafiəsi üçün lazımlı və məqbuldur".**

# Alqış Musayevdən Siyavuş Novruzovun dediklərinə reaksiya

## "Xalqın narazı təbəqələrini qıcıqlandıran daha çox..."

**Sabiq deputat Alqış Musayev** S.Novruzovun dediklərinə münasibət bildirib. A.Musayev partiyadaşının tənqidi fikrə qarşı kəskin mövqe sərgiləməsinə fərqli yanaşdı: "Təbii ki, tənqid olunmaq heç də həmişə müsbət qəbul olunmur. Ancaq reallıq belədir ki, tənqidsiz də keçinmək mümkün deyil. Nəzərə almaq lazımdır ki, indi ictimai şüur çox həssasdır. Ən adi və xırda çatışmazlıq gözdən yayınmır. Bu cür çatışmazlıqlar müzakirə edilməyəndə qarşı tərəf bundan dərhal və məharətlə istifadə edir. Bu gün tənqidçi mövqeyə çox böyük, mən deyərdim ki, heç bir dövrdə olmadığı qədər ehtiyac var. Susmaq səhvləri ört basdır etməyə çalışmaq belə demək mümkünsə maraqlı qüvvələrə hazır tezislər bağışlamaq deməkdir. Şübhəsiz ki, tənqid obyektiv olmalıdır. Kimsə iqtidar komandasını tənqid edirsə ciddi əsaslar gətirməlidir. Təəssüf ki, çox zaman bu prinsipə riayət olunmur. Məsələn, kimsə iddia edir ki, o daha peşəkar və güclü komanda yaradıb ölkənin qarşısında dayanan problemləri qısa bir müddət ərzində həll etməyə qadirdir. Halbuki, həmin adam indiyə kimi heç bir uğurlu iqtisadi siyasi layihə təqdim edə bilməyib. Tənqidlər arasında müxtəlif və subyektiv motivlər kifayət qədərdir. Kimsə prezidentin ətrafında yalnız özünü görür, kimsə ümumiyyətlə, hər yerdə özünü və yalnız özünü görür. Kimsə ucuz reytinqlərə hesablanmış çıxışlar edir. Kimsə ucuz və cari maraqlara xidmət edən canfəşanlıq nümunəsi göstərir və s". **A.Musayev bildirdi ki, bütün bunlara rəğmən bir həqiqət mövcuddur:** "Hazırkı iqtisadi və siyasi komandaya tən gələ biləcək, onu üstələyə biləcək alternativ potensial yoxdur. İlham Əliyev ölkəni yönləndirə bilən və yönləndirən yeganə güc və nüfuz sahibidir. Mən sizə bir məqamı xatırladım: məndən soruşsalar ki, Azərbaycan prezidentinin öz siyasi ustadı - Heydər Əliyevdən əxz etdiyi ən mühüm keyfiyyət hansıdır?




Mən birmənalı olaraq belə cavab verərdim: təmkin! Təmkin siyasi liderin mükəmməllik nişanıdır... Baxın, opponentlərinin onu polemikaya cəlb edib ictimai düşüncədə tərəf-müqabil statusu qazanmağa hesablanmış bütün cəhdləri, cabaları nəticəsiz qalır. O, təmkini ilə danışdırır və təmkini ilə susdurur. Prezident 13 ildən artıq müddətdir ki, siyasi stajlarını zənginləşdirmək üçün dərindən-qabıqdan çıxan rəqiblərinə şans vermir. Prezidentin təmkini, istənilən müxalifyönlü siyasi pafos və bəlağətdən gur, ahəngdar səslənir. Bu baxımdan tənqidə dözümsüzlükdən söhbət gedə bilməz. Mən populist qərarlar qəbul etməyin, radikal dəyişikliklərin tərəfdarlı deyiləm. Bir dəfə də fikrimi bildirmişəm, yenə təkrarlamaq istərdim. Emosional addımlar atıb sonra həyəcandan qalstukunu çeynəyən dövlət adamı ölkəsinə rifah və sabitlik gətirə bilməz. O da etiraf olunmalıdır ki, hazırkı sosial-iqtisadi vəziyyətdən, özlərinin ictimai statuslarından, hətta birbaşa iqtidardan narazı olanlar da var. Amma bu narazılıq mövcud siyasi kursdan imtina etmək məzmununa malik deyil. Xalqın narazı təbəqələrini qıcıqlandıran daha çox başqa şeylərdir. Həmin başqa şeylər, məsələn, məmur özbaşınalığı, qeyri-təvazökarlıq və s. isə ciddi nəzarət altındadır və bu barədə zaman-zaman ölçü götürülür".

❑ **Cavid TURAN**

# Yeni dəyişikliklər Azərbaycan üzərindən narkotrafikin qarşısını ala biləcəkmi?

## Arzu Nağıyev: "Tranzitlə daşınan yüklə bağlı şübhə varsa, DSX əməkdaşları bu yükə baxa biləcəklər"

**2014-cü il iyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi (DİN) keçirdiyi antiheroin əməliyyatı zamanı Əfqanıstanda hazırlanan 2 ton 790 kiloqram yüksək keyfiyyətli maye heroin partiyası ələ keçirdi. Məlum oldu ki, yük Gürcüstan ərazisinə Azərbaycandan daxil olub, ölkəmizə isə tranzit yük kimi İrandan daxil olub.**



Həmin vaxt məsələ araşdırılarkən üzə çıxan nüanslardan biri də bu oldu ki, Azərbaycan sərhədçilərinin ölkəmizin üzərindən tranzitlə keçən yüklərə baxış keçirmək səlahiyyətləri yoxdur. Artıq Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclasında "Azərbaycan Respublikasının dövlət sərhədi haqda" və "Sərhəd qoşunları haqda" qanunlara dəyişiklik müzakirə edilib "Dövlət sərhədi haqda" qanunun 12-ci maddəsinin 2-ci və 3-cü hissələri yeni redaksiyada verilir.

Dəyişikliklərə görə, nəqliyyat vasitəsi və ya mal sahibləri, yaxud nəqliyyat vasitələri barəsində səlahiyyətli olan digər şəxslər və ya onların nümayəndələri Gömrük Məcəlləsində nəzərdə tutulmuş hallarda gömrük orqanlarının və ya əməliyyat-axtarış, kəşfiyyat, əks-kəşfiyyat fəaliyyətinin iştirakı ilə nəqliyyat vasitələrini və yüklərini açmağa borcludurlar. Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində milli maraqlara təhdidlər haqda əməliyyat məlumatları olduqda, gömrük orqanlarının iştirakını təmin etmək mümkün olmadığı hallarda milli təhlükəsizliyi və ya dövlət sərhədinin toxunulmazlığını təmin etmək məqsədi ilə onlar sərhəd qoşunlarının tələbi ilə nəqliyyat vasitələrini və yüklərini açmağa borcludurlar.

Şəxslərin Azərbaycanın dövlət sərhədindən qanunsuz keçməsinin, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, mülki dövriyyəsi qadağan olmuş və ya məhdudlaşdırılmış digər əşyaların dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə sərhəd qoşunları ölkəmizin dövlət sərhədinin buraxılış məntəqələrində ölkəyə gələn və ölkədən gedən nəqliyyat vasitələrinə, yüklərə və başqa əşyalara müəyyən edilmiş qaydada baxış keçirirlər.

Təklif olunan dəyişikliklərlə bağlı **təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlama verib. Ekspert deyib ki, Dövlət Sərhəd Xidmətinin səlahiyyətlərinin artırılması təqdirəlayiqdir və Azərbaycan dövlətinin maraqlarına xidmət edir: "Ölkə ərazisindən tranzitlə keçən yüklər sərhədçilərdə şübhə yaradırsa, bu halda gömrük işçiləri dəvət edilir, onların iştirakı ilə plomb açılır, yükə baxış keçirilir, şübhəli tərkibli mal-material aşkar olunurdusa, bu halda məsələ ilə bağlı müvafiq araşdırmalar başlanırdı. Təklif olunan dəyişiklik qəbul olunarsa, DSX əməkdaşları da ölkəmiz ərazisindən tranzitlə keçən şübhəli yüklərə baxış keçirmək səlahiyyətləri qazanacaqlar. Bu da öz növbəsində ölkəmiz üzərindən qanunsuz mal-materialların tranzitlə daşınmasının qarşısının alınmasında müsbət hal kimi qiymətləndirilməlidir".

**A.Nağıyevə görə, ölkəmiz tranzit yük daşımaları üzrə mərkəzi zonalardan birinə çevrilməkdədir:** "Belə bir halda ərazimiz üzərində qanunsuz, dövriyyəsi qadağan yüklərin daşınmasının sayı da müvafiq olaraq arta bilər. Bu baxımdan DSX-nın səlahiyyətlərinin artırılması da məqsədəmüvafiqdir. Tranzit zonadan narkotrafik üçün istifadə oluna bilər. DSX-nın Gömrük Komitəsi ilə bərabər tranzitlə daşınan yüklərə nəzarət etməsi bu sahədə təhlükəsizliyin təmini üçün də əlverişlidir. Əgər gömrük bəyannamə təqdim etmirsə, tranzitlə daşınan yüklə bağlı şübhə varsa, DSX xidməti əməkdaşları bu yükə baxa biləcəklər. Əsas məsələ bundan ibarətdir".

**A.Nağıyev bildirir ki, Avropa ilə Asiya arasında tranzit yüklərin Azərbaycan üzərində daşınması digər yollardan istifadəni aradan qaldıracaq. Müvafiq olaraq ölkəmizin üzərindən tranzitlə daşınan yüklərin həcmi də artacaq:** "Əsas tranzit yük axını yaxın gələcəkdə Azərbaycan üzərindən olacaq. Bu halda ölkəmiz üzərindən daşınması qadağan olunmuş yüklərin də tranzitlə keçirilməsinə cəhd ehtimalı da artır. Məsələn nüvə başlıqları, nüvə tullantılarının, narkotiklərin də tranzitlə daşınması üçün addımlar atılacaq. İranda AES tikilməsi planlaşdırılır. Stansiyada istifadə edilmək üçün lazım olan radioaktiv maddələri quru yolla daşımalıdırlar. Rusiya və İran ərazisində də həmin stansiyanın tikintisi ilə əlaqədar razılaşmalar var. Bu halda həmin yükləri haradan aparacaqlar. Belə yüklər ancaq quru yolla daşınır".

Qeyd edək ki, **Milli Məclis sədrinin 1-ci müavini, komitənin sədri Ziyafət Əsgərov** bildirib ki, "Sərhəd qoşunları haqda" Qanunda düzəlişlərə əsasən, sərhəd qoşunlarının vəzifə və hüquqları daha da genişləndirilib. Onlar dövlət sərhədinin buraxılış məntəqələrindən kənarda qeyri-qanuni hərəkətlərin qarşısının alınmasını təmin etməli və bunun üçün müvafiq tədbirlər görməlidirlər. Hər iki qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❑ **E.HÜSEYNOV**

# Jirinovski Türkiyədə nə üçün həbs edilib - şok səbəb

## Azərbaycanı quberniyalara bölməyi təklif edən cığal və çılğın rus siyasətçi haqda

**“Yeni Rusiyanın siması kimdi” sualı havada səslənincə bəziləri mütləq gözləri qarşısına Vladimir Volfoviç Jirinovskinin tərs sifətini gətirirlər. Yeni məhsulunu bazara çıxarmaq istəyirsən? Rusiya ilə məxfi əlaqələrə girmək fikrindəsən? Reklama ehtiyacın var? Hə... işin qəlizdi. Gərək mütləq Jirinovskinin bığı, yaxud qılıncı altından keçəsən.**



**Misal üçün, tanınmış rus oliqarxı, nikel maqnatı Mixail Proxorov bir gün, tam yeni elektrik avtomobili istehsal etmək xəyalına düşür.** Reklama ehtiyac yarandığını görüb, əvvəlcə Putini qatır bu işə. Ümumdünya zarafat günündə - 1 aprel 2011-ci il tarixində Vladimir Putin həmin elektromobili sürüb gətirir növbəti hökumət iclasına. Ancaq nooolsun? Avtomobilin bu reklam çarxı, ümidləri doğrultmur. Avtomobil yatıb qalır Kremlin it-bat bir küncündə. Proxorov axır, ən sınanılmış son variantını işə salır bu zaman. Telekameraların gözü qarşısında Vladimir Jirinovskiyə həmin elektromobilin birini hədiyyə verdiyi vaxt, həəəə, qaval çönür necə deyərlər. Avtomobilin qara bəxti açılır. Banklar, çar-naçar qalıb, layihəni maliyyələşdirməyə razılıq verirlər.

Ancaq sonra Jirinovski dinc dayanmır. Anadan əmdiyi südü Proxorovun burnundan gətirir. Jurnalistləri yığır başına. Elektromobilin nasaz akusunu telekameralara göstərib dişinin dibindən gələni deyir Rusiya avtomobil sənayesi ünvanında. Həmin andaca Jirinovskinin əl telefonu başlayır durmadan zəng çalıb titrəməyə. Proxorovun zənginə cavab olaraq Jirinovski deyir ki, 2004-cü ildən veqeterian mətbəxini seçib. Ət, kabab-filan yemir. Ancaq, zərf içində ünvanına göndərilən bank kartlarının dəlicəsinə vurğunudur...

Qısası, Jirinovskiylə iş görənlər, əlbir olanlar həmişə... bəli, həmişə peşmançılıq, təəssüf hissləri keçirirlər lap axırda.

Azərbaycan nümunəsində bu, son zamanlar özünü bir daha isbatladı. Darıxmayın buna görə. Azərbaycan mətbəxinin əvəzsiz dadı, Jirinovskinin hələ də damağındadır. Azərbaycana gəldiyi vaxtlar o, adətən həmişə öz veqeterianlığını unudur. Gözlərini yumub başlayır xeyrimizə danışmağa.

***

**25 aprel 1946-cı ildə, uzaq Alma-Atada dünyaya göz açan Vladimir Volfoviç öz bioloji atasını - təmiz yəhudi əsilli Volf Eydelşteyni heç vaxt görməyib.**

Bu Volf Eydelşteynin atası İshaq, mənşəcə Polşanın Rovno şəhərindəndi. Fabrikantdı. Mebel istehsal edib məhsulunu yaxşı qiymətə müştərilərinə satırmış. 1939-cu ildə Qızıl Ordu hissələri Rovnanı işğal edib qatırlar Ukraynanın tərkibinə. İstismarçı burjuyları, o cümlədən Jirinovskinin atası Volf Eydelşteyni, yığıb basırlar qatarlara. Sürüyüb gətirirlər uzaq Alma-Ataya.

Vallah, elə bax, bu da Volf Eydelşteyni onu irəlidə gözləyən labüd ölümdən qurtarır. Digər qohumlarının sonrakı acı taleyindən xilas edir bəlkə də. Belə ki, Jirinovskinin Rovnadakı digər qohumlarını - babası İshaqı, nənəsi Rivkanı, habelə digərlərini 1941-ci ildə şəhəri işğal etmiş faşistlər divar önünə düzüb ucdantutma güllələyirlər. Əməliyyat, şəhərdəki yəhudi evlərinin sayına görə “Aksiya 470" adlanırmış.

Hə... talenin tərs sifətini, paradokslarını Jirinovski öz həyatı boyu ilk dəfə məncə bax bu nümunədə hiss edib. Həyata, siyasətə fərqli baxışlarını məhz bu çox acı, faciəli şəxsi təcrübəsi üzərində qurub məncə.

**Stalini, NKVD-ni indi bildiz niyə o həmişə xilaskar adlandırır?**

Jirinovski nümunəsinə bu “xilaskar” təyini, özünü tam doğruldur axı. Stalin, əslinə qalsa, Volf Eydeynşteyni uzaq Alma-Ataya sürgün etməyib. Əksinə, onu Əzrayılın iti caynaqlarından xilas edib. İndi, bildiz niyə Jirinovski paradoksal düşüncə tərzinə malikdi?

***

Həmin Volf Eydelşteyn Alma-Atada ikən “Turksib” dəmiryolunda işləyən Andrey Vasilyeviç Jirinovskiylə yaxınlaşır. Sonuncu vaxtilə NKVD işçisi olsa da, sonradan işdəki səhlənkarlığına görə, (o, məxfi sənədləri hardasa itiribmiş) orqanlardan kənarlaşdırılmışdı. Taleyin hökmü ilə hər iki bədbəxt arasında dostluq günləri başlayır. 1944-cü ilin 1 avqust tarixində Andrey Jirinovski rəhmətə gedir qəfil. Arvadı Aleksandra Pavlovnanı beş uşaqla taleyin ixtiyarına buraxır.

Nə isə... bir il sonra 32 yaşlı Aleksandra Pavlovna artıq altıncı uşağa - Vladimirə boylu idi. Uşağın doğulmasına beş-on gün qala-qalmaya, bəlli olur ki, Volf Eydelşteyn artıq vağzaldadır. Dövlətlərarası sazişə əsasən, vətəni Polşaya qaytarılır. Qatarın gethaget vaxtı, kimsə özünü qan-tər içində Volf Eydelşteynə çatdırıb deyir ki, bəs muştuluğumu ver, oğlun doğulub. Oğlun...

**Volf Eydelşteyn, eşidirmi bu xəbəri, yoxsa eşitməzliyə vurur özünü? Bunu indi kimsə söyləyə bilməz. Qatar gedir.**

Əvəzinə, “Jirik” ayamalı bir dəcəl oğlan peyda olur az sonra soyuq Alma-Ata həyətlərinin birində. Uşaqların acı atmacaları, söyüşləri bir vaxt heç əskik olmur bu yazıq, ancaq çox inadkar uşağın başından.

Elə indiyədək də davam edir.

***

Qatarla demək olar bütün SSRİ ərazisini keçib arxada buraxan Volf İshakoviç, daşıdığı Polşa pasportunu sonra İsrail sənədləri ilə əvəzləyir. Eşidəndə, qohumlarının hamısı qonşu həyətdə güllələnib, Volf İshakoviçin əli gedir ürəyi üzərinə... Doğma Rovnaya qayıtmağa o, cürət etmir bir daha.

İsraildə çox adi, sadə həyat sürən Volf, 1983-cü ildə avtomobil təkərləri altında həlak olur. Lolo adlı bir qadınla ailə qursa da, övladı yoxmuş.

Oğlu Vladimir Jirinovskini görmək isə bu ataya nəsib olmur.

**İndi bildiniz, hansı qara qanlar axır Jirinovskinin daxilində? Hansı əzablar, dözülməz ağrılar onu bütün həyatı boyu müşayiət edir?**

***

Aleksandra Pavlovna beləliklə əvvəlcə ərini itirir. Sonra sevgilisini. Sonra bu itkilərin siyahısı lap böyüyür. Altı başlı ailə son ümidini - həyətdəki sağmal inəyi itirib südsüz qaldığı vaxt, Anna Pavlovnanın əsəbləri tarıma çəkilir lap. Döşündə də süd olmur ki, onu balaca Vladimirə əmizdirsin. Qərara gəlirlər bələkdəki südəmər bəbəni əvvəl körpələr evinə versinlər, sonra gecə-gündüz yetimlər evinə.

11 illik orta təhsilin əla qiymətlərlə başa vuran gənc Vladimiri, sən demə, ən çox cavan coğrafiya müəlliməsi sevirmiş. Dünya siyasi xəritəsi önündə əli xətkeşli dayanmaq, görünür, Jirinovskidə hələ o uzaq vaxtlardan qalmış köhnə adətdi. Sonralar o, bu adətinə dəfələrlə qayıdacaq - xəritədə gah İraqı, gah Liviyanı aşkarlayacaq özü üçün. Qəddafidən, Səddamdan yaxşı pul qoparacaq sonra.

Bir gün o, bu xəritədə Azərbaycanı da kəşf edəcək özü üçün. Deyəcək ki, dünyada ən dadlı mətbəx, ən dadlı pomidorlar məhz bizim günəşli məmləkətimizdədi.

***

Alma-Atada türk dillərinə bələd olmaq, Jirinovskinin Moskvada bəxtini açır. Yazığı, cəld hərəkət edib, Şərq Dilləri İnstitutuna imtahansız qəbul edirlər. Axır kursda “komsorq” seçilməyi, karyera pilləkanında irəliləmək baxımından Vladimirə bəri başdan çox şanslar vəd edir o vaxt. Valdimiri, bir türkoloq kimi, 1969-cu ilin aprelində səkkiz aylığa Türkiyəyə ezam edirlər!

Ancaq atası Volf İshakoviçin şansız taleyi bu vaxt elə bil Vladimirin həyatında bir daha canlanıb təkrarlanır. Alır yazıq Vladimiri öz iti caynaqlarına. İskəndərun alüminim fabrikində sovet mütəxəssislərinə tərcüməçilik edən Valadimir Volfoviç tezliklə türk Milli İstihbarat Təşkilatının diqqətini özünə cəlb edir. Türk fəhlələrinə sovet döş nişanları payladığına görəmi, yaxud bir başqa qələtinə görə, Jirinovskini tutub 17 günlüyünə qazamata atırlar.

Bu 17 gün məşhur kəşfiyyatçı İsayevin (Ştirlisin) taleyini təkrarlamaq şansı idi bəlkə də Jirinovski üçün.

Lakin o, Ştirlis ola bilmədi. Həbsxanada yaşadığı 17 an onu, kəşfiyyatçı deyil, olsa olsa deşifrə edilmiş, vurulmuş bir oyun kartına çevirdi. Onun Türkiyəyə olan nifrəti də elə burdan qaynaqlanır.

Həbsə düşmək isə yanmaq, de-şifrə olmaq deməkdi o vaxtkı sovet təcrübəsində. Jirinovskinin dosyesinə yağlı “Daxili istifadə üçün!” möhürü, məncə, məhz o zaman vurulur. Nəticədə, o, xarici ezamiyyətlərdən mərhum edilir. Atılır “daxili cəbhə”yə. Əvvəlcə göndərilir Zaqavqazya Hərbi Dairəsinin ixtiyarına. Orduda qazandığı “siyasi təşviqatçı” qrafası, şəxsi dosyesini bəzəyib abıra salır bir az.

Qafqaz günləri həm də ilk dəfə pul qazandırır Vladimir Volfoviçə. “Qafqaz” deyincə, ağzının sulanmağı, yadda saxlayın, həyatının məhz həmin günlərindən bir yadigardı. Bu pula o, Moskva ucqarlarında kooperativ üçotaqlı mənzil alıb ora sevimli anası Aleksandra Pavlovnanı köçürdür. Qərara gəlir hüquq sahəsində ikinci ali savada yiyələnsin.

Sonra...

Sonra ölkədə yenidənqurma kabusu başlayır. 1989-cu ildən üzü bəri özünü yenidənqurma tufanına atan Jirinovski, tezliklə Rusiya Federasiyasında ilk uzunömürlü siyasi partiyalardan birini, Liberal-Demokrat Partiyasını təsis edərək indiyədək onun əvəzsiz sədri kimi tanınmaqdadır.

***

**Bayaq yazdım - Jirinovski hələ məktəbdə ikən həm coğrafiya dərsini çox sevib, həm də öz coğrafiya müəlliməsini. Bu, ilk məhəbbətlə ilk istedadın bir nöqtəyə vurduğu nadir həyat epizodudur. Əli xətkeşli, dünya xəritəsi önündə dayanaraq hamıya yeni coğrafiya dərsi keçmək azarı, Jirinovskidə məhz o vaxtlardan qalmadı. Bu vaxt, bir başqa gözəl xanımı görməsə o, qətiyyən düzəlib sakitləşən deyil. Saçlarını zərif qadın əlləri tumarlamasa, o, ağzına gələni elə hey danışacaq bu zaman. Yəni, Jirinovskinin psixoloji portretini çəkərkən biz bunu qətiyyən unutmamalıyıq.**

O ki qaldı Jirinovskinin bütün köhnə sovet ucqarlarını, o cümlədən Azərbaycanı ləğv edib, əvəzində general-qubernatorluqlar yaratmağına, inanın, bu, onun təzə deyil, əksinə, köhnə, həm də çox uğursuz mövzusudur. Belə ki, vaxtilə hələ öz partiyasının nizamnaməsində o, Rusiyanı yeddi quberniyaya bölməyi təklif edibmiş. Ancaq təklif, elə ilk günündən Rusiya siyasi elitasını, ilk növbədə Vladimir Putini əsəbləşdirib. “Bu, Rusiyanı parçalamağa yönəli layihədir” ifadəsi, məncə o zaman boşuna səslənməyib.

Bizdə də, Azərbaycanın mövcud ərazi-inzibati bölgüsünü ləğv edib onu yeddi “xanlıqla”, yeddi oliqarxla əvəz etmək istəyənlər var. Vaxtaşırı bəziləri bu təklifi mətbuatda səsləndirib xalqın dözümünü imtahana çəkmək istəyir. Jirinovskinin məlum təklifi, Moskvadan deyil, məncə o tərəfdən əsən yeldi.

Jirinovskilər, Eydelşteynlər öz fikirləri ilə vaxtilə həm kommunistləri əsəbiləşdirib cin atına mindiriblər həm də faşistləri. Qırmızı komissarlar Andrey Vasilyeviç Jirinovskini NKVD-dən qovub sürgünə göndəriblər. Faşistlər, Eydelşteynlərin bütün nəslini divar önünə düzüb ucdantutma güllələyiblər.

Biz nə faşistik, nə də kommunist. Yəni biz nə kommunist olub onu sürgünə göndərənik, nə də faşist olub onu güllələmişik. Bizə Jirinovskini bir başqa cür cəzalandırmaq lazımdı. Jirinovskiyə qarşı “Qovmaq, güllələmək!” cəzalarının növbəti təkrarı məncə müsbət nəticə verməyəcək.

Bakıya gələndə o, veqeterian mətbəxini unudaraq cumur milli süfrəmizə. Onu bir-iki ay süfrəmizdən məhrum edin.

**Müsbət nəticələr özünü çox gözlətməyəcək. Vladimir Volfoviç mərkəzi rus kanallarında bülbül kimi ötüb yenə xeyrimizə danışacaq.**

❑ **Həmid HERİSÇİ**



# Sarı maşın

Zamin HACI
zaminhaci@gmail.com

"Nə tökərsən aşına,
O çıxar qaşığına"
**(Azərbaycan ata sözü)**

**ABŞ prezidenti Trampın qızının dükanla problemləri haqda yazmışdım. Yəqin xəbəriniz var, İvanka adlı bu qızın mallarını dükanlar satmırlar. Hətta prezident özü də bundan şikayətləndi. Trampın miqrantlar haqda qərarını məhkəmə ləğv eləmişdi, ümid edirdi bəlkə apellyasiyada qərar təzədən qüvvəyə minər. Ancaq Tramp saydığını saysın, ABŞ məhkəməsi isə müstəqildir. Orda Ali Məhkəmə sədrinin düyməsini basıb istədiyin nömrəni keçirdə bilməzsən. Budur, Apellyasiya Məhkəməsi də prezidentin əleyhinə qərar çıxartdı.**

Dövləti dövlət edən, gücə çevirən belə şeylərdir. Qanuna hörmət qoyulan ərazidə insanlar yaxşı yaşayırlar. Yoxsa "masonlar belə elədi", "yəhudilər filan işi gördü", "imperializm çürüyən kapitalizmdir" kimi çeynənmiş, düşük söhbətlər lazım deyil. Hətta idiotun da rəhbər seçilmək imkanlarını tanıyacaq qədər demokratik olacaqsan. Eyni zamanda, qanunlar və dəyişilməz qaydalarla istənilən idiotu cilovlamaq imkanların olacaq. İcra hakimiyyətinin, qanunverici və tənzimləyici orqanların funksiyalarını ayıracaqsan, bir-birinin işinə kobud müdaxiləsinə yol verməyəcəksən. Söz azadlığını heç bir halda pozmayacaqsan. Karbürator akkumulyator ola bilməz. Motor ayrıdır, əyləc ayrı. Təkərə "qabaq şüşəni sil, yolu görmürəm" deyə bilməzsən. Nəticədə bunlar hamısı ayrı-ayrılıqda öz işini görüb maşını hərəkətə gətirib səni istədiyin yerə aparacaq. Dövlət mexanizmləri də eynilə bu cürdür.

London yaxınlığında bir qədim kənd var. Orda evlər faktiki orta əsrlərdəki görkəmində qalıb, bu səbəbdən turistlərin sevimli məkanlarından biridir. İngiltərəyə gedib o küçədə şəkil çəkdirən yüz minlərlə adam varmış. Ancaq bütün bu turistlərin başının bəlasına çevrilən bir ekzotik problem də var. Təqaüdə çıxmış bir diş həkimi orda ev alıb, bunun da maşını sarı rəngdədir. İş-güc yox, adam pensiyada, təbii ki, maşın sutka boyu evin qabağında durur, turistlərin şəklini korlayır. Hamı o maşından şikayətlənirmiş, deyirlər qədim küçədə şəkil çəkdiririk, içinə bu əcaib sarı maşın girir. Həqiqətən, sarı da var sarı da var - bu maşının sarısı yalan olmasın, kənd yumurtasının sarısı kimi bir sarıdır. Az qalırsan o qədim binaların fonunda bunu görəndə "Sarı gəlin" mahnısı oxuyub ağlayasan.

Uzun sözün qısası, nəhayət, keçən həftə kimlərsə bezib, kişinin maşınına əl bulayıblar: üstünü cızıq-cızıq ediblər. Məsələn, arxa tərəfinə "Məni yu" yazıblar. Zarafat edirəm, yazıblar ki, nəhayət, bu maşını burdan rədd elə. Yazıq kişi BBC-yə açıqlama vermişdi, deyir dəyən ziyanın məbləği 8 min funt sterlinqə bərabərdir, düzəltdirməkdənsə təzəsini alsam ucuz olar. Ancaq tərs adamdır, deyir təzəsini daha sarı rəngdə alacağam, geri çəkilmək yoxdur.

**Bu əhvalat mənim yadıma Bakının qədim məhəllələrinin başına gələnləri xatırlatdı. Yapistlər hər biri tarixin yadigarı olan binaları manıs turnirləri, maşın yarışları, "müasir daş parkları" üçün sökdülər, dağıtdılar. Londonda bir maşını tarixin qabağından götürməyin davası gedir, bizdə isə tarixi maşının altına salıb çığnadılar. Fərq budur. Buna görə biz ingilis kimi yaşamırıq - rahatlığımız, həyatımız, təhsilimiz, səhiyyəmiz və sairəmiz ordan geri qalır. Buna görə Britaniya parlamentində həmişə maraqlı diskussiyalar gedir, bizim deputatxanada isə "Həccə 28 dəfə getməklə Ginnesin rekordlar kitabına düşmüşəm" deyən karikaturalar oturur.**

# Avropadakı baş simsarından "kiçik bacı"ya reverans

**Fransa prezidenti Fransua Olland martın 8-də Parisdə erməni həmkarı Serj Sərkisyanla görüşəcək. Musavat. com Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, bu barədə Olland Fransadakı erməni təşkilatlarının koordinasiyası üzrə Şuranın toplantısında çıxışı zamanı bildirib. Fransa lideri qeyd edib ki, bu il Fransa-Ermənistan əlaqələrinin qurulmasının 25-ci il dönümüdür və o, bu münasibətlə erməni həmkarını Fransaya səfərə dəvət edib.**



## Parisdən Bakıya qarşı erməni gedişi - Olland Sərkisyanı yanına çağırdı və...

"Dağlıq Qarabağ xalqı öz taleyini özü həll etməlidir" deyən Fransa liderindən Azərbaycana qarşı növbəti qərəz; prezidentlərin fiasko olan Paris görüşündən sonra Olland indi də ermənilərin könlünü almaq istəyir...

Səfər çərçivəsində tərəflərin ikitərəfli əlaqələri müzakirə edəcəyi bildirilir. Fransa prezidentinin sözlərinə görə, görüş zamanı Qarabağ məsələsinə də toxunulacaq. Bu xüsusda o deyib: "Fransa bu məsələdə ABŞ və Rusiya kimi Minsk Qrupunun həmsədrlərindən biri olaraq, xüsusi məsuliyyət daşıyır. Biz tələsirik. Bu problemin həlli üçün tələsmək həqiqətən də var. Çünki ötən ilin dəhşətli aprel insidenti bizə xatırlatdı ki, Qarabağda hər gün və ya demək olar, hər gün insanlar ölür. Biz qarşıdurmanı önləmək üçün hərəkətə keçməliyik. Bu münaqişənin sülh yolu ilə həlli üçün yolların tapılması önəmlidir".

**Fransa lideri daha sonra sülh danışıqlarının perspektivinə toxunaraq deyib:** "Döyüşlər bitdi, dialoq başlandı, atəşkəs haqda anlaşma əldə olundu. Ancaq biz atəşkəsin əldə edilməsi ilə qane ola bilmərik. Ona görə ki, bu, problemin həlli deyil. Biz konfliktin nizamlanmasına yönəlik real danışıqlara başlamalıyıq. Böyük bir səhv olardı düşünmək ki, situasiya sabitləşib. Biz münaqişənin "Madrid prinsipləri"də əksini tapmış nizamlama elementlərinə müraciət etməliyik. Biz həmçinin bilirik ki, həmin prinsiplər tətbiq olunarkən "Dağlıq Qarabağ xalqı"nın *(dırnaqlar bizimdir - red.)* öz müqəddəratını təyinetmə hüququna əsaslanmalıdır. Bu istiqamətdə addımlar atılması üçün də Fransa Azərbaycan və Ermənistan prezidentlərinin yeni görüşünü təşkil edəcək".

***

Fransa Ollandın yuxarıdakı fikirləri, xüsusən də onun "Dağlıq Qarabağ xalqı", "öz müqəddəratını təyin etmə hüququ" ifadələrini işlətməsi, üstəlik, bunu Parisdə, ermənilərin tədbirində səsləndirməsi diqqət çəkməyə bilməz. Belə təxribatçı fikirlər eyni zamanda Azərbaycan prezidenti İlham Əliyevin ötən ay söylədiyi "Azərbaycan torpaqlarında heç vaxt ikinci uydurma erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik, bunu gözləyənlər boşuna gözləyir" bəyanatından az sonraya təsadüf eləməsi ilə ikiqat diqqət kəsb edir.

Yəni Ollandın yanaşması faktiki surətdə Azərbaycanın dövlət başçısının, Azərbaycanın özünün prinsipial mövqeyi ilə ziddiyyətdədir. Odur ki, bunu ilk növbədə Fransa prezidentinin gethagetdə "kiçik bacı" Ermənistana reveransı, ermənilərin könlünü almaq cəhdi, Bakıya münasibətdə isə neytral vasitəçilik missiyası ilə bir araya sığmayan provokasiya kimi qiymətləndirmək lazım gəlir.

Əvvəla, ona görə ki, "Madrid prinsipləri" deyilən sənəd Azərbaycan və Ermənistan parlamentlərində təsdiq edilməyib ki, onun hüquqi qüvvəsi olsun. Azərbaycan tərəfi ona 10-a yaxın əlavə edib, çünki ilkin variantda o, ölkənin Konstitusiyası ilə ziddiyyət təşkil edir.

İkincisi, "Madrid prinsipləri"ndə ərazi bütövlüyü məsələsi də var - hansını ki, cənab Olland nədənsə görməzlikdən gələrək, "öz müqəddəratını təyinetmə hüququ"nu qabardır. Bununla da bir daha rəsmi Parisin Dağlıq Qarabağ məsələsində qərəzsiz vasitəçi olmadığını nümayiş etdirmiş olur.

Üçüncü yandan, erməni xalqı öz müqəddəratını artıq "Ermənistan" şəklində müəyyən edibsə, Olland hansı haqla Azərbaycandakı bir ovuc erməniyə öz müqəddəratını təyin etmə hüququ istəyir?

***

Zatən, saxta erməni soyqırımını ilk tanıyan və onun inkarına görə cəza tətbiq etməyə çalışan *(təşəbbüs müəllifi Fransua Oland idi!)* Fransadan ədalətli mövqe gözləməyə də dəymir. Əfsus ki, vaxtilə bu dövləti Minsk Qrupu həmsədrliyinə gətirilməklə, onun problemin həllinə töhfə verəcəyi barədə ümidlər doğrulmadı. Keşkə, rəsmi Bakı üçüncü həmsədr dövlət kimi Türkiyə və ya Almaniyada təkid edərdi.

Yada salaq ki, Ollandın prezidentlik dönəmində artıq bir dəfə (2014, 27 oktyabr) Parisdə prezidentlərin görüşü keçirilib. Ancaq həmin görüşdən cəmi bir həftə sonra erməni silahlı qüvvələri Azərbaycanın işğal altındakı ərazilərində genişmiqyaslı hərbi təlimlərə başlamaqla sülh anlaşmasına olan kövrək ümidləri də basdırdılar (Erməni hərbi vertolyotu məhz həmin təlimlər zamanı Ağdam üzərində Azərbaycan qüvvələri tərəfindən vurulmuşdu).

**Bundan aylar sonra cənab Olland təzədən prezidentlərin görüşünü təşkil etməyə cəhd göstərdi. Ancaq təşəbbüs boşa çıxdı. Əslində elə yaxşı ki, boşa çıxdı. Saxta soyqırımın iddiasının 100-cü ildönümündə Ermənistana getmiş cəmi üç prezidentdən biri olan Fransua Olland münaqişənin ədalətli həllinə hansı töhfəni verə bilər(di) ki - üstəlik, onun prezidentlik müddətinin bitməsinə sayılı aylar qalıbsa...**

**❑ Analitik xidmət**



## "Türkiyə heç bir halda Krımın qanunsuz ilhaqını tanımayacaq"

**"Türkiyə heç bir halda Krımın qanunsuz ilhaqını tanımayacaq". APA-nın "112.ua" saytına istinadən verdiyi məlumata görə, bu sözləri Ukraynada səfərdə olan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu həmkarı Pavel Klimkinlə keçirdiyi birgə mətbuat konfransında deyib. O bildirib ki, Türkiyə tam olaraq Ukraynanın ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini və siyasi vahidliyini tanıyır: "Son 25 ildə olduğu kimi, bizim məqsədimiz birgə layihələr və strateji tərəfdaşlıq yolu ilə ölkələrimizi bir-birinə yaxınlaşdırmaqdır. Bu baxımdan hər iki ölkənin stabilliyi və təhlükəsizliyi son dərəcə önəmlidir".**

Türkiyəli nazir bildirib ki, 2016-cı ildə Türkiyəyə gedən ukraynalı turistlərin sayında 50 faiz artım qeydə alınıb və Türkiyə 1 milyon 50 min ukraynalı turist qəbul edib.

P.Klimkin isə iki ölkə vətəndaşlarının daxili sənədlərlə qarşılıqlı səfərlərinə dair razılıq əldə olunduğunu açıqlayıb: "Bizdə vizasız rejim var. Lakin gələcəkdə Ukrayna və Türkiyə vətəndaşları bizim ölkələrimizi daxili pasportlarla ziyarət edə biləcək".

**Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da şəhid Çingiz Qurbanovun ailəsi ilə görüşündə düşmən Ermənistana, eləcə də, ermənipərəst siyasət yürüdən ölkələrə növbəti sərt mesajlarını verdi. Ç.Qurbanovun şəhid olmasına səbəb olan dekabrın 29-dakı hadisənin ermənilərin təxribatı olduğunu deyən dövlət başçısı Rusiyanın xarici işlər naziri Sergey Lavrovun ötən ay Dağlıq Qarabağ probleminin Azərbaycanın daxili işi olmaması ilə bağlı dediklərinə toxunub.**

# "Putin ötən 17 ildə verdiyi vədi yerinə yetirmədi"

## Elxan Şahinoğlu: "Kremlin yürütdüyü siyasət rəsmi Bakıya Rusiya siyasətini korrektə etməkdən başqa alternativ qoymayıb"



Belə ki, aprel savaşlarından danışan ölkə başçısı bu 4 günlük müharibənin və təmas xəttindəki gərginliyin Azərbaycanın daxili işi olduğunu deyib və əslinə qalsa, Dağlıq Qarabağın ölkəmizin daxili işi olduğuna işarə vurub. Ekspertlər İ.Əliyevin bununla ciddi mesajlar verdiyini qeyd edirlər.

**Politoloq Elxan Şahinoğlu** Azərbaycanın artıq Rusiya ilə bağlı siyasətində dəyişikliklər etdiyini söylədi: "Son aylara qədər Azərbaycan rəsmiləri rusiyalı tərəfdarlarının ünvanına heç bir tənqidi fikir səsləndirmirdilər. İndi isə elə bir mərhələyə gəlib çıxmışıq ki, Rusiya rəsmilərinin açıqlamalarına sussaq, açıq-aşkar Moskva qarşısında çəkindiyimiz ortaya çıxacaq. Mənə elə gəlir ki, Azərbaycan hakimiyyəti Rusiya ilə münasibətlərdə mərhum dövlət başçısı Heydər Əliyevin siyasi xəttinə qayıdır. Heydər Əliyev heç zaman Rusiyanın Ermənistana dəstəyi ilə barışmadı, rusiyalı rəsmilərlə müxtəlif görüşlərdə sərt şəkildə Moskvanın Ermənistanı silahlandırmasından narazılığını "bu silahlar kimə qarşıdır", "niyə Ermənistana bu qədər silah verirsiniz" sualları şəklində ünvanlayırdı. Heydər Əliyev hakimiyyətinin son illərində Rusiyanın yeni seçilən prezidenti Vladimir Putinlə ona görə yaxınlığa qərar verdi ki, Kreml sahibi Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışacağını vəd etmişdi. Ancaq bu 17 ildə Moskva verdiyi vədi yerinə yetirmədi. Heydər Əliyevdən sonra Bakının Moskva ilə əlaqələri daha da intensivləşdi, qarşılıqlı səfərlərin sayı artdı, Rusiya hakimiyyətinin ünvanına müxtəlif reveranslar edildi. Ancaq bunların heç birinin nəticəsi olmadı. 2016-cı ildə apreldəki 4 günlük döyüşlər də Rusiyanı Ermənistan hakimiyyətinə təsir edib Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaltmasına həvəsləndirmədi. Tam əksinə, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun son mətbuat konfransında söylədiyi iki fikir Azərbaycanın son gözləntilərinin üstündən xətt çəkdi. Nə dedisə, Ermənistanın maraqlarına uyğun idi. Birincisi, Lavrov dedi ki, Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaldılması bölgənin statusunu müəyyənləşdirəcək mexanizmlə paralel aparılmalıdır. Başqa sözlə Lavrov münaqişənin həllinin "mərhələli həllindən" "paket həllinə" keçid etdi. İkincisi, Lavrov bildirdi ki, "Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil". Lavrova sualıyla bu cavabı söyləməyə məcbur edən azərbaycanlı jurnalist bir gün sonra işdən çıxarıldı. Jurnalistin işdən çıxarılmasına Bakıda Rusiyadan çəkinən, ehtiyatlanan qrup qərar verdi. Ancaq hadisələrin inkişafı göstərdi ki, Lavrov son mətbuat konfransında məlum açıqlamaları söyləməsə də, onun mövqeyi Ermənistana dəstək üzərində qurulub. Digər tərəfdən Rusiyada xarici siyasət konsepsiyasını prezident müəyyənləşdirir. Ona görə də Lavrov həmin konsepsiyanın icraçısıdır. Moskva Aleksandr Lapşinin Belarusdan Azərbaycana ekstradisiya məsələsində həm Minskə, həm də Bakıya təzyiq etdi. Bununla Rusiya hakimiyyətinin siyasətində ikili standartlar üzə çıxdı".

**Politoloq Lapşinin qeyri-qanuni hərəktələrinə Kremlin haqq qazandırdığına da işarə vurdu:** "Dağlıq Qarabağ separatçılarının uzun müddətdir girov saxladığı iki azərbaycanlıdan biri Rusiya vətəndaşıdır. Rusiya həmin vətəndaşının azad olunması üçün heç bir fəaliyyət göstərməyib. Ancaq Azərbaycan qanunlarını kobud surətdə pozan digər vətəndaşı Lapşinin qeyri-qanuni hərəkətlərinə haqq qazandırır. Rusiya hakimiyyətinin Azərbaycan əleyhinə yönələn bu siyasətinə susmaq artıq mümkün deyildi. Ona görə də, Azərbaycan rəsmiləri artıq rusiyalı rəsmilərin açıqlamalarına cavab verməyə başlayıblar. Həm prezident İlham Əliyev, həm də xarici işlər naziri Elmar Məmmədyarov Rusiya hakimiyyətinə sərt mesajlar göndərdilər. Birincisi, Azərbaycan prezidenti dedi ki, "aprel döyüşləri və təmas xəttində yaşanan gərginlik, toqquşma bizim daxili işimizdir". Bu İlham Əliyevin Sergey Lavrovun "Dağlıq Qarabağ Azərbaycanın daxili məsələsi deyil" açıqlamasına cavab idi. Digər tərəfdən əgər indiyə qədər rəsmi Bakı apreldəki döyüşlərin Ermənistanın təxribatına cavab olduğunu deyirdisə, indi isə prezidentin sözlərindən anlaşılır ki, cəbhə xəttində işğalçıya daima zərbə endirmək Azərbaycanın müstəsna hüququdur".

**E.Şahinoğlu ölkə başçısının verdiyi mesajları bu cür sadaladı:** "Azərbaycan işğalın davamına yol açan atəşkəsə riayət etmək fikrində deyil. Prezidentin sözlərindən anlaşılır ki, Azərbaycan torpaqlarını azad etmək məqsədilə müharibəni öz torpaqlarında edir; Ermənistana hücum etmir ki, Rusiya bu prosesə qarışsın. İkincisi, Azərbaycan xarici işlər naziri dedi ki, Sergey Lavrovun təklifi və onun iştirakı ilə erməni həmkarıyla üçtərəli görüşdə iştirak edə bilər, ancaq bu görüş üçün iş qrafikini razılaşdırmalıdır. Bu o deməkdir ki, Lavrov istəyir deyə azərbaycanlı nazir erməni həmkarı ilə görüşməyə məcbur deyil. Üçüncüsü, Elmar Məmmədyarov ilk dəfə rəsmi Bakının Rusiyanın Ermənistanda hərbi baza saxlamasından narahat olduğunu bildirdi. İndiyə qədər rəsmi Bakı bu məsələyə toxunmazdı. Ancaq Elmar Məmmədyarovun "biz Rusiyanın Ermənistanda hərbi bazasını nəzərə alırıq, ona görə də təhdid və çağırışlara gözüaçıq olmalıyıq" fikrini dilə gətirməsi rəsmi Bakının Rusiyanın Ermənistanda hərbi bazasının varlığından narahatlığını ortaya qoydu. Rusiyada olduğu kimi Azərbaycanda da xarici siyasət prioritetlərini prezident müəyyənləşdirir. Ona görə də Elmar Məmmədyarovun Rusiyanın regional siyasəti ilə bağlı son açıqlamalarını prezidentin müəyyənləşdirdiyi xarici siyasət konsepsiyasının tərkib hissəsi kimi qiymətləndirmək lazımdır. Kremlin yürütdüyü siyasət rəsmi Bakıya Rusiya siyasətini korrektə etməkdən başqa alternativ qoymayıb. Rusiya tərəfdaş, hətta müttəfiq dövlətlərə vassal kimi yanaşır. Kreml 2008-ci ildə Gürcüstanı parçaladı, Abxaziya və Cənubi Osetiyanın "müstəqilliklərini" tanıdı, 8 il sonra Ukraynanı parçaladı, Krımı işğal etdi, Donbasda separatizmin dayağına çevrildi, üstəgəl zaman-zaman sözdə müttəfiq adlandırdığı Belarus və Qazaxıstana hədələyici mesajlar göndərir. Belə vəziyyətdə rəsmi Bakı da seçimini etməli idi. Bu arada, İlham Əliyevin Brüsselə səfəri daha böyük əhəmiyyət kəsb edir. Azərbaycan Avropa ilə inteqrasiyanı gücləndirməli, il ərzində Avropa İttifaqı ilə strateji sazişin imzalanmasına nail olmalı, üstəgəl ordunun NATO standartlarına keçidi sürətləndirilməlidir. Türkiyə ilə hərbi əməkdaşlığı genişləndirməyə çalışmalıyıq. Doğrudur, Ankara Moskva ilə tərəfdaşlıq edir və Suriyada hərbi əməkdaşlıqları da mövcuddur. Ancaq Ankara nə qədər Moskvaya yaxın olmağa çalışsa da, Rusiya-Ermənistan cütlüyünün Azərbaycana təzyiqlərinə seyrçi qalmayacaq. Ermənistanda içi Levon Ter-Petrosyan qarışıq bir siyasətçinin və ya ekspertin (Sülh Platformasına qoşulan ermənilər istisnadır) cəsarəti çatıb demir ki, Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayana qədər oradakı postlarımız da vurulacaq və hərbçilərimiz öləcək. İşğalçıların addım-addım zərərsizləşdirilməsi prezident İlham Əliyevin "erməni silahlılarının Ağdamda, Füzulidə nə işi var" açıqlamasına uyğun həyata keçirilir".

❑ **Cavanşir ABBASLI**



# Əli silahlı İŞİD-çinin hədələri müxalifəti qorxudub

## Partiya sədrləri hakimiyyətə çağırış etdi

**Sosial şəbəkədə İŞİD sıralarına qoşulduğu güman edilən bir azərbaycanlı gəncin videoları yayılır. Silahlı olan həmin gənc Azərbaycanı qan gölünə çevirməklə hədələyir. Azərbaycanın müxalifət düşərgəsi silahlanmış radikalların artıq bu şəkildə açıq hədələrə keçməsindən narahat olublar.**

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, əgər bu gün İŞİD və ona bənzər terror təşkilatları bütün dünya dövlətlərini təhdid altında saxlayırsa, əlbəttə ki, biz də sivil dünyanın bir hissəsi olaraq baş verənlərdən narahat olmalıyıq: "Biz dəfələrlə məlum bir həqiqəti hakimiyyət nümayəndələrinin diqqətinə çatdırırıq ki, ölkə qanunvericiliyinə müvafiq fəaliyyət göstərən siyasi təşkilatların sıxışdırılaraq sıradan çıxarılması və ölkənin siyasi mühitinə təsir etmək imkanlarının məhdudlaşdırılması qarşılığında radikal cərəyanların, xüsusilə də radikallığa meylli dini qruplaşmaların önə çıxması və mövcud boşluğu doldurmaq cəhdləri qaçılmaz olur. Əgər bu gün İŞİD və ona bənzər terror təşkilatları bütün dünya dövlətlərini təhdid altında saxlayırsa, əlbəttə ki, biz də sivil dünyanın bir hissəsi olaraq baş verənlərdən narahat olmalıyıq. Onu da nəzərə almaq lazımdır ki, nə qədər acınacaqlı olsa da həmin təşkilatlara Azərbaycandan da gedib qoşulan bəlli təriqət üzvləri var və onlar da öz sıralarını genişləndirmək üçün mütəmadi olaraq fəaliyyət göstərirlər. Azərbaycanı da göründüyü kimi, məhz onlar hədələyirlər. Obyektivlik naminə deməliyəm ki, Azərbaycanın hüquq-mühafizə orqanlarının bu cür radikallara qarşı fəaliyyətini qənaətbəxş hesab etmək olar, lakin təhlükə mövcud olduğu sürəcdə arzu etmədiyimiz hadisələrin qarşısının alınması üçün ciddi qabaqlayıcı tədbirlər də görülməlidir. Eyni zamanda iqtidar mənsubları demokratik siyasi təşkilatların sıradan çıxarılması siyasətindən də əl çəkməlidirlər. Çünki ölkədə demokratik mühitin mövcudluğu bu cür təhdidlərin qarşısının alınmasında ən effektli silahdır".

**VİP sədri Əli Əliyev** bildirdi ki, belə təhdidlər təhlükədən xəbər verir və narahatlıq yaradır: "Dünyada transmilli terror təşkilatlarının mövcudluğu bir faktdır. Nəhəng dövlətlərə belə onların meydan oxuması da son 20 ildə gözümüzün qarşısında baş verir. Dünyada müsəlman dövlətlərinin resurslarına sahiblənmək üçün belə layihələr bir sıra qeyri-müsəlman mərkəzlərdən idarə olunur, ideoloji, hərbi, maliyyə dəstəyi verilir. İŞİD, "Əl Şabab", PKK, FETÖ və s. təşkilatlar bu qəbildəndir. Azərbaycan vətəndaşlarından da həmin qrupların bəzilərinə qoşulanlar və artıq ölkəmizi hədələməkdən çəkinməyənlər var. Azərbaycanın dini poliqona çevrilməsinin qarşısını almaq bütün rəsmi və qeyri-rəsmi təşkilatların ümdə vəzifəsidir. Belə təşəbbüslər amansızlıqla yatırılmalıdır".

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, radikal qrupların nümayəndələri Azərbaycanı qan gölünə çevirməklə hədələməkdə qədər irəliləyiblərsə, bundan narahat olmamaq mümkün deyil: "Biz neçə illərdən bəri hər dəfə görüşlərimizdə həm beynəlxalq təşkilatların nümayəndələrinə, açıqlamalarımızda, müraciətlərimizdə hakimiyyətə, xalqa deyirdik ki, demokratik sivil müxalifətin sıxışdırılıb siyasi müstəvidən çıxarılması cəmiyyətdə yeni, radikal və dövlət üçün təhlükəli radikal müxalif qüvvələrin meydana çıxmasına səbəb olacaq. Dinc demokratik mübarizə aparan müxalifət demək olar ki, bir küncə sıxışdırılıb. Amma hakimiyyətin dini pərdə altında ortaya çıxan radikal qrupları sivil müxalifəti sıxışdırdığı kimi imkanı yoxdur. Çünki radikallar gizli fəaliyyət göstərirlər, ölkə xaricinə gedib hazırlıq görürlər, silah əldə edirlər və mübarizələrini terrorla, qan tökməklə aparırlar. Bu şəkildə fəaliyyət göstərən qüvvələrlə mübarizə aparmaq, onları da demokratik müxalifət kimi asanlıqla sıxışdırıb sıradan çıxarmaq çətin məsələdir. Narahatlığımız da bundandır. Radikal müxalifət təhlükəsi çox realdır. Bu saat dünyanın çox yerində radikal dini müxalifət inkişaf edir. Özü də o ölkələrdə inkişaf edir ki, orada demokratik sivil müxalifətin meydanı əlindən alınır və meydan boş qalır. Təhlükədən xilas olmağın yeganə yolu ölkəmizdə demokratik müxalifətin inkişafına zəmin yaratmaqdır. Demokratik müxalifət inkişaf edib xalqın önünə çıxa bilərsə, belə vəziyyətdə heç kəs radikal dini qruplara üz tutmaz, insanlar radikal qrupların yeminə çevrilməz. Azərbaycan hökuməti onun fəaliyyətindən narazı qalanları məhz radikal qapıdan keçmək məcburiyyətində qoyduqca radikal qrupların sıraları böyüyəcək. Sıraları böyüdükcə də təhlükə də artacaq. Biz müxalifət olaraq yaranmış vəziyyətdən, o cür hədələrdən narahatıq".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

**Fevralın 10-da Milli Məclisdə “Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması” haqqında qanun layihəsinin təqdimatı oldu.**



# Serj Sərkisyanın qandallanması üçün hüquqi prosedurlara start verildi

## Milli Məclisdə “Soyqırım və etnik təmizləmə cinayətlərinin dünya səviyyəsində tanınmasının hüquqi aspektlərinin öyrənilməsi” layihəsinin geniş müzakirəsi keçirildi

Parlamentin İnsan hüquqları komitəsinin təşkilatçılığı ilə keçirilən təqdimat mərasimində çıxış edən komitə sədri, Milli Məclisin sədr müavini Bahar Muradova giriş nitqi ilə çıxış etdi. O bildirdi ki, qanun layihəsi Milli Məclisin, “Qüdrətli Azərbaycan Naminə” İctimai Birliyinin və Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə təşkilatçılığı ilə hazırlanıb. Vitse-spiker layihənin Xocalı soyqırımının ildönümü ərəfəsində ərsəyə gəlməsinə də diqqət çəkdi: “Bir neçə gündən sonra Xocalı soyqırımının 25-ci ildönümü tamam olacaq. Ancaq çox təəssüf ki, bu illər ərzində aparılan işlər bizim istədiyimiz nəticəni verməyib. Ermənistan ordusu Azərbaycan ərazilərini işğal altında saxlayır və insanlar öz yurdlarında yaşamaq imkanından məhrum edilib”. **B.Muradova xatırlatdı ki, artıq 10 ölkə Xocalı hadisələrini soyqırım kimi tanıyıb, ABŞ-ın ştatları müvafiq qərarlar qəbul edib, həmçinin bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımına qiymət verib:** “Ancaq bu qərarlar nə Ermənistanı işğala son qoymağa, nə də onun havadarlarını bundan nəticə çıxartmağa vadar etməyib. Biz beynəlxalq aləmi məsələ ilə bağlı düzgün bilgiləndirmək, Azərbaycana qarşı törədilən cinayətlərin hüquqi qiymət alması və cinayətkarların cəzalandırılması barədə məlumatlandırmaq yönündə müəyyən işlər görmüşük. Ancaq bu gün ərazilərimiz işğal altındadır, insanlar öz evlərində, yurdlarında yaşamaq kimi fundamental hüquqlarından məhrum olublar. Dünya vaxtilə bu cinayətlərin mahiyyətindən xəbərsiz olub. Bu hadisələrə ilkin münasibət ümummilli lider hakimiyyətə qayıdandan sonra verilib, BMT-yə müraciət edilib, çoxsaylı cinayət işləri qaldırılıb. Cinayətkarlar bəlli olsa da, qonşu ölkələrin rəhbərliyində təmsil olunaraq cəzadan yayınırlar”. Vitse-spiker ölkə prezidenti İlham Əliyevin Xocalı soyqırımının 25 illiyi ilə bağlı sərəncam verdiyini xatırladaraq əlavə edib ki, sərəncamdan irəli gələn məsələlərlə bağlı parlamentin də görməli olduğu işlər var. “Milli Məclisdə də ümumi fikir bundan ibarət oldu ki, beynəlxalq cinayətlərin qarşısının alınması və onun cəzalandılması ilə bağlı qanunun qəbuluna ehtiyac var. Ona görə də "Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması" haqqında qanun layihəsinin hazırlanması ideyası yarandı. Bu, Qüdrətli Azərbaycan Təşkilatının təşəbbüsü, QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və Milli Məclisin dəstəyi ilə başlanan layihənin son tədbiridir". B.Muradova deyib ki, Milli Məclis QHT-lərə Dövlət Dəstəyi Şurası və Mətbuat Şurası ilə Xocalı soyqırımı tədbirlərini keçirməklə bağlı memorandum imzalayıb.

Bundan sonra sədr müavini bu təşəbbüsə verdiyi dəstəyə görə, Prezident Administrasiyasının (PA) ictimai-siyasi şöbəsinin müdiri, prezidentin köməkçisi Əli Həsənova təşəkkür etdi. Eyni zamanda sədr müavini tədbirdə iştirak edən PA ictimai-siyasi şöbənin müdir müavini Ərəstun Mehdiyevə, Azərbaycanın hərbi prokuroru Xanlar Vəliyevə, Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri Çingiz Əsgərova, QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevə, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə, həmçinin qanun layihəsinin müəllifi “Qüdrətli Azərbaycan Naminə” İctimai Birliyinin icraçı direktoru Elman Aslanova təşəkkürünü bildirib. Bundan əlavə tədbirə qatılan aidiyyəti komitələrin nümayəndələrini, Milli Məclisin ekspertlərini, insan hüquqları ilə məşğul olan QHT-lərin rəhbərlərini də salamladı, onlara minnətdarlıq etdi.

**Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri, Azərbaycanın Avropa İnsan Haqları Məhkəməsindəki daimi nümayəndəsi Çingiz Əsgərov bildirdi ki, ermənilərin Dağlıq Qarabağda və ətraf ərazilərdə törətdiyi cinayətlər hələ də davam edir:** “Orada Ermənistan tərəfindən dəvət edilən şirkətlər iş aparırlar. Azərbaycana məxsus tarixi abidələrdə dəyişiklik edilir”. O bildirdi ki, ermənilər Dağlıq Qarabağdan iqtisadi sahədə də istifadə edirlər, orada istehsal olunan malları öz malları kimi təqdim edirlər: “Bu, cinayətdir. Ona görə də bu cinayətlərin qarşısı alınmalıdır”. Ç.Əsgərov Azərbaycanın işğal olunmuş ərazilərinə qeyri-qanuni səfər etmiş Rusiya və İsrail vətəndaşı, blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiyasına da münasibət bildirdi: “Bəzən deyirlər ki, onun Azərbaycana gətirilməsi o qədər də əhəmiyyətli deyil. Bu, yanlış yanaşmadır. Bizim həyata keçirdiyimiz iş qanun çərçivəsindədir. Bundan sonra Azərbaycan torpaqlarına qanunsuz səfər edənlər məsuliyyəti dərk edəcəklər. Bu istiqamətdə tədbirlərimiz davam edəcək”. PA rəsmisi vurğuladı ki, 2016-cı ilin aprel döyüşləri ilə bağlı Azərbaycandan Avropa İnsan Haqları Məhkəməsinə 700 ərizə göndərilib: “Artın həmin işlər icraata götürülüb”.

“Ermənistanın təcavüzünün aradan qaldırılması uğrunda gedən mübarizə illərində baş verən ən dəhşətli hadisə Xocalı soyqırımıdır. Bu hadisə Ermənistanın siyasi rejiminin törətdiyi ən ağır cinayətlərdən biridir”. Bunu isə Prezident Administrasiyasının (PA) İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev söylədi. Ə.Mehdiyev xatırlatdı ki, hələ 1994-cü ilin fevralında Milli Məclisdə Xocalı soyqırımı mərhum prezident Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müzakirəyə çıxarılıb və ona hüquqi qiymət verilib. Administrasiya rəsmisi prezident İlham Əliyevin cari ildə imzaladığı sərəncama istinad edərək bildirib ki, hələ də Xocalı soyqırımına beynəlxalq səviyyədə qiymət verilməyib. Ə.Mehdiyev dedi ki, Xocalı soyqırımı erməni canilərinin 100 ildən artıq müddətdə Azərbaycana qarşı həyata keçirdiyi ən qanlı hadisələrdən biridir: “Azərbaycanda bu soyqırım aktı ilə bağlı istintaq aparılıb, 2005-ci ildən sonra bu iş Hərbi Prokurorluğa həvalə olunub və cinayət işi bu gün də davam edir. Araşdırmaların gedişində cinayətkarlar müəyyən olunub və İnterpol vasitəsilə axtarışa verilib. Bu cinayəti törədənlər Ermənistan rəhbərliyində təmsil olunmuş şəxslər, o cümlədən, keçmiş prezident R.Köçəryan, bugünkü prezident S.Sarksiyan və onların ətrafı, o cümlədən, separatçı rejimin rəhbərliyi, həmçinin hərbi canilər iştirak edib. Serj Sarkisyan özü də bu cinayətin törədilməsində yaxından iştirak etdiyini etiraf edib, bunu stereotipin qırılması kimi qiymətləndirərək özünə bəraət qazandırmağa çalışıb”. **Ə.Mehdiyev xatırlatdı ki, bir sıra dövlətlər Xocalı soyqırımını tanıyıb:** “Bu informasiya mübarizəsi sahəsində aparılan işin nəticəsidir. Xeyli uğurlar qazanmışıq, amma təcrübə göstərir ki, bu, mübarizədə qalib çıxmaq üçün, torpaqların işğaldan azad edilməsi üçün kifayət etmir”.

**Milli Məclis Aparatının İnzibatı və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov** “Soyqırım və etnik təmizləmə cinayətlərinin dünya səviyyəsində tanınmasının hüquqi aspektlərinin öyrənilməsi” layihəsini təqdim etdi.

**Azərbaycan hərbi prokuroru Xanlar Vəliyev** bildirdi ki, 1988-ci ildən bəri Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz davam edir: “Təkcə Xocalıda deyil, Azərbaycanın digər ərazilərində də qırğınlar törədilib. Yeni hazırlanan "Beynəlxalq cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında" qanun layihəsi Hərbi Prokurorluqda öyrənilib. Layihəyə təkliflimiz var. Bunlar həm redaktə xarakterli, həm də digər məsələlərlə bağlıdır". Hərbi prokuror qanun layihəsindəki bəzi detallarla bağlı konkret fikirlərini bölüşdü, redaktə tipli dəyişikliklərin olmasının vacibliyini qeyd etdi. X.Vəliyev qeyd etdi ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərlə bağlı aparılan işlərdən də bəhs etdi: “Azərbaycanlılara qarşı törədilmiş hərbi cinayətlərə dair 297 nəfər haqqında axtarış elan edib, İnterpola göndərmişik. Amma indiyədək 297 nəfərdən heç kim saxlanılaraq, Azərbaycana təhvil verilməyib, onlardan birini də əldə etməmişik”. **Hərbi prokuror Xocalı qatillərinin cəzalandırılmasının mümkün olmamasının səbəbləri haqda danışarkən dünyadakı ikili standartların mövcudluğunu xatırlatdı:** “Bunu hamınız bilirsiniz, dünyada ikili standartlar var. Müsəlmana bir münasibət var, xristiana başqa... Beynəlxalq İnterpol Təşkilatı da eyni mövqedə durub, başqaları da”. **X.Vəliyev “Beynəlxalq cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında” qanun layihəsinin hazırlanmasına təqdirlə yanaşmaqla yanaşı, layihəyə əlavə və dəyişikliklərini təklif edib:** “Bu qanun layihəsi qəbul olunsa, əlavə bir rıçaq əldə etmiş olacağıq. Nəticədə Azərbaycan vətəndaşlarına qarşı soyqırım törədən və insanlıq əleyhinə cinayət törətmiş şəxslərin mühakiməsi mümkün olacaq”.

“Qüdrətli ölkə, məsələn, ABŞ, yaxud Rusiya bəlkə qanunsuz yollardan da istifadə edib, xaricdəki şəxsləri həbs edib gətirə bilər. Amma Azərbaycan kimi ölkələr üçün bu, çox çətin məsələdir”. **Bu fikirlər isə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə məxsusdur.** “Beynəlxalq cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında” qanun layihəsi barədə mövqeyini bölüşən Aparat rəhbəri bildirdi ki, bu qanunun çox böyük siyasi və mənəvi əhəmiyyəti var: “Amma unutmayaq ki, bu cür qanunvericilik cəmi 7 ölkədə rəsmiləşdirilib. Ona görə də çox çətin prosesdir, çünki ölkənin qanunvericiliyi yalnız ölkə daxilinə aiddir. Əgər biz bu qanunun dünya tərəfindən qəbul olunmasını istəyiriksə, onda gərək onun hamı üçün anlaqlı olmasına çalışaq. Yəni nümayiş etdirək ki, biz təkcə özümüz üçün qəbul etməmişik. Eyni zamanda cəmiyyətə izah etməliyik ki, bu qanunun qəbul olunması ilə bütün işlər həll olunmayacaq”.

Daha sonra **QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, digər deputatlar Vüsal Hüseynov, Tahir Kərimli, Rövşən Rzayev, “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev** çıxış etdilər. Əksər natiqlər layihənin plenar iclasda müzakirəsini istədilər.

**BAMF sədri Umud Mirzəyev** layihəni fövqəladə əhəmiyyətə malik sənəd adlandırdı və müəlliflərə təşəkkür etdi.

Təşkilat sədri etnik təmizləməni təbliğ edən şəxslərin də cəzalandırılması barədə müddəanın layihəyə əlavə edilməsini istədi. Bundan əlavə, işğal altındakı ərazilərdə həyata keçirilən cinayətlərdən, həmçinin narkotik istehsalından bəhs edərək bu barədə də qanuna əlavələri zəruri saydı.

**Vətəndaşların Əmək Hüquqları Liqasının sədri Sahib Məmmədov** isə dedi ki, bu layihədə Azərbaycan ərazisində törədilə biləcək növbəti cinayətlərlə bağlı xəbərdarlıqlar da əksini tapmalıdır.

**Deputat, Mətbuat Şurasının sədri Əflatun Amaşov** bildirdi ki, bu tədbir vətəndaş cəmiyyətindən gələn təkliflərə Milli Məclisin saygı ilə yanaşmasının nəticəsidir. Ə.Amaşov Yaxın Şərqdə baş verənlərə diqqət çəkərək əlavə etdi ki, əgər biz bu sənədi qəbul etsək, digər ölkələr də öz hüquqlarını müdafiə etmək üçün bu sənədə də istinad edəcəklər. “Xocalı soyqırımını törədənlər bu gün vəzifədədirlər, amma bir müddət sonra vəzifədə olmayacaqlar. Vaxt gələcək Xocalı soyqırımını törədənlər Lapşin kimi qoluqandallı Azərbaycana gətirilib mühakimə olunacaqlar” - Ə.Amaşov bildirdi.

**Deputat Zahid Oruc** dedi ki, bütün bu proseslər Azərbaycan ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılan prosesdir: “Bütün bu aktlar bizim siyasi və hərbi mövqeyimizi möhkəmləndirir”. Z.Oruc Gürcüstanın işğal altındakı əraziləri ilə bağlı qanunu qəbul etdiyini xatırladıb dedi ki, biz də illər öncə çox asanlıqla analoji qanunu qəbul edə bilərdik.

Deputat bir sadə yunanın “mən öz evimə dönmək istəyirəm” məzmunlu müraciətini Avropa Məhkəməsinə göndərdiyini və 1998-ci ildə müraciətinin təmin olunduğunu misal çəkdi. Ardınca yüz minlərlə köçkünlərin də eyni məzmunlu müraciət etmələri ilə bağlı proses başlatmağı təklif etdi.

**Deputat Asim Mollazadə** dedi ki, hərbi cinayətkarların siyahısı hərtərəfli araşdırılmalıdır: “Ermənilər bu cinayətləri tək törətməyiblər, onların sahibləri də iştirak ediblər. 366-cı alayın heyətini də unutmamalıyıq. Bəli, Lapşinin məsələsi ürəyimizdən tikan çıxartdı. Amma o zaman ürəyimizdən tikan o zaman tam çıxar ki, Xocalıdakı uşaqları gətlə yetirən qatillər Bakıya əlibağlı gətiriləcək”.

**Deputat Cavanşir Feyziyev** qanun layihəsinin mükəmməl hazırlandığını bildirdi. Qeyd etdi ki, Xocalı qatillərinin cəzalandırılması üçün hüquqi imkan yaradacaq.

Milli QHT Forumunun prezidenti Rauf Zeyni isə qanunun müzakirəsini rəhbərlik etdiyi təşkilatda keçirməyi təklif etdi.

**Sonda B.Muradova iştirakçılara təşəkkür etdi və müxtəlif səviyyələrdə qanun layihəsinin müzakirəsinin davamının faydalı olacağını bildirdi.**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağ danışıqlarında Azərbaycan üçün uğurlu gəlişmə

## Nazirlərin üçtərəfli görüşünə Bakı psixoloji üstünlük və daha əlverişli mövqe ilə gedir; yəhudi bloggerlə bağlı presedent düşməni niyə təşvişə salıb? **Erməni ekspert:** "Bundan sonra Dağlıq Qarabağa səfər edənlər azalacaq, "DQR"-in və Ermənistanın izolyasiyası güclənəcək..."

**Qalmaqallı yəhudi blogger Aleksandr Lapşinin Bakıya ekstradisiyası göylə gedən erməni rəsmilərinin "qazı"nı xeyli alıb. Artıq qonşu ölkədə Ermənistanın Belarusdakı səfiri Armen Xaçatryanla yanaşı, xarici işlər naziri Edvard Nalbəndyanın da istefası tələbləri səslənir, diplomatik uğursuzluğa görə bütövlükdə Sərkisyan rejimi ittiham edilir.**

**Bu xüsusda Belarusdakı erməni səfirinin bir cümləsi diqqət çəkir.** Səfir özünə bəraət kimi deyib ki, "mən özümü Lapşin məsələsini qaldıran Rusiyanın xarici işlər nazirindın və İsrail baş nazirindın güclü hesab eləmirəm". Gerçəkdən də bu işdə Rusiya XİN başçısı Sergey Lavrovun sözü yerə düşübsə, Ermənistanın hansısa səfiri və ya xarici işlər naziri Nalbəndyan kimdir ki? Məntiqlə Ermənistanın ağası məsələdə gücsüzdürsə, vassal Ermənistanın əlindən boş hay-küy qaldırmaqdan savayı heç nə gəlməz.

**Erməni hüquq müdafiəçisi Artur Sakunts isə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Tiqran Balayanın guya Lapşinin Bakıya verilməsinin işğal altındakı Dağlıq Qarabağa qanunsuz ziyarətlərə təsir etməyəcəyi, əksinə, bu səfərlərin sayını artıracağı barədə iddiaları ilə razılaşmır.** Musavat.com-un məlumatına görə, aravot saytına açıqlamasında o deyib: "Biz məhz o vəziyyətdəyik ki, yaxşı olardı belələri susaydılar, səs çıxarmayaydılar. Çünki belə vəziyyətlərə adekvat şeylər deməyənlər gülməli duruma düşürlər. Dağlıq Qarabağa ziyarətlər daha betər azalacaq, çünki ortada fakt var ki, ora səfər edənlərə qarşı Azərbaycan hakimiyyəti cinayət işi qaldırır və onlar Azərbaycana təhvil verilə bilər. Yəni, mövcud vəziyyətdə Lapşina qarşı cinayət işinin qaldırılması və onun Bakıya ekstradisiyası Ermənistanın və "DQR"in izolyasiyasına hesablanıb. Bu elementar həqiqəti anlamamaq ya qeyri-anlaqlığın, ya da cahilliyin nəticəsidir".

***

**Beləcə, Azərbaycanın diplomatik gücünün nümayiş etdirən Lapşin presedenti erməni siyasi isteblişmentində və ekspert dairələrində əməlli-başlı didişmə, çəkişmə və qarşılıqlı ittihamlar yaradıb.** Belə vəziyyətdə sülh danışıqlarının başlanması istər-istəməz Azərbaycana psixoloji üstünlük yaradırdı. Söz düşmüşkən, az öncə Moskva Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin "üçlü" görüşünü təklif edib. Rəsmi Bakı bu təşəbbüsə müsbət baxır.




"**Biz Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin görüşündə iştirak etməyə hazırıq".** Bu sözləri "RİA Novosti"yə müsahibəsində Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov deyib. Lakin Azərbaycanın baş diplomatı görüşün konkret vaxtı ilə bağlı hələ ki təklif olmadığını söyləyib.

**"Bu barədə ideya mən Moskvada olarkən səsləndi. Sergey Lavov belə bir təklif irəli sürdü və mən hazır olduğumu bildirdim. Lakin bu görüş iş qrafikinin razılaşdırılmasını tələb edir".** Nazir qeyd edib ki, mövcud status-kvo ola bilsin ki, Ermənistandan başqa heç kəsi qane etmir: "Biz neçə dəfə mənim iştirakımla nazirlərin görüşündə məsələnin yerindən tərpədilməsinə yaxın olmuşuq. Danışıqlar masasını tədricən problemlərdən təmizləmək lazımdır. Ən əsas problem isə Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan ərazisində mövcudluğudur. Hərbçilər kazarmalara qayıtmalıdır. Bu isə özlüyündə böyük imkanlar açacaq. Bu, planın bir hissəsidir".

***

**Lakin aydındır ki, rəsmi İrəvan indi də ölkədə parlament seçkilərinin keçirilməsini bəhanə edib danışıqlar prosesini ən azından, aprelədək uzatmağa çalışacaq.** Bəhanə də bu olacaq ki, seçkilər, siyasi rəqabət Qarabağ məsələsində hakim qüvvəyə daha ehtiyatlı davranmağı diktə edir. Lakin o da faktdır ki, işğalçı ölkədə dəfələrlə parlament və prezident seçkilərinin keçirilsə də, nə ondan əvvəl, nə də ondan sonra İrəvan ona heç bir təzyiqin olmamasından istifadə edərək, konstruktiv mövqedən yayınıb. Status-kvonu, işğal rejimini uzatmağa çalışıb. Bunun da nəticəsi ötən ilin aprelindəki 4 günlük müharibə oldu.

**Belə görünür, Ermənistan rəhbərliyi aprel döyüşlərində aldığı zərbədən dərs götürməyib.** Deməli, işğalçı tərəfin indiki yanaşması davam edərsə, sülh danışıqlarında real dönüş olmazsa, gələn dəfə daha sarsıdıcı zərbə almağa hazır olmalıdır. Çünki Azərbaycan heç nəyə baxmadan öz ərazilərinin işğalı ilə barışmaq niyyətində deyil.

**Proses artıq başlayıb və onun gedişində Ermənistanın həmişəki kimi, Rusiyaya güvənməsi etibarlı olmaya bilər.** Lapşin məsələsi buna sübutdur. Siyasi təhlilçilər də bu yöndə Azərbaycanın potensialının artdığını düşünürlər.

"**Azərbaycan öz maraqları çərçivəsində addımlar atır və bu, heç kəsi narahat etməməlidir".** Bu sözləri politoloq, keçmiş diplomat Fikrət Sadıqov deyib (Axar.az). Ekspert Lapşin məsələsinin Azərbaycan-Rusiya münasibətlərinə təsirindən danışıb: "Lapşin faktiki olaraq Azərbaycanın və beynəlxalq hüququn normalarını pozub. Azərbaycana yaxın və tərəfdaş bir dövlət kimi Belarusun Lapşini təhvil verməsi tamamilə hüquq normaları çərçivəsindədir. Düşünmürəm ki, bir bloggerə görə Rusiya-Azərbaycan münasibətləri pozulsun. Azərbaycan öz maraqları çərçivəsində addımlar atır və bu, heç kəsi narahat etməməlidir. Əksinə, Lapşin kimilərinin bu cür cinayətkar əməlləri və dövlətlər arası münasibətlərə xələl gətirən hərəkətləri daha çox narahatlıq doğurmalıdır. Aydındır ki, Moskvadan Jirinovski sayağı bəyanatlar səslənəcək. Ancaq bu məsələnin Bakı-Moskva münasibətlərinə ciddi təsiri olmayacaq. Açıq danışaq, onsuz da 20 ildən artıqdır ki, Dağlıq Qarabağ məsələsində heç bir irəliləyiş yoxdur. Azərbaycan artıq özü hərəkətə keçib və torpaqlarını azad etməyə başlayıb. İstər Rusiya, istərsə də Ermənistanda bunu necə qəbul edirlər, bu, artıq onların öz işidir".

***

**Bakı təbii ki, Qarabağ məsələsində ən sərt üsula əl atarkən regional və beynəlxalq şərtləri nəzərə alacaq. Ancaq aprel döyüşləri göstərdi ki, bu amili həddən-ziyadə şişirdib, illərlə gözləmə mövqeyi tutmaq da effektli yol deyil.**




# Ermənilərin şəxsi heyətlə dolu hərbi nəqliyyat vasitəsi məhv edilib

**Fevralın 9-da axşam saatlarında cəbhənin Ağdərə-Tərtər istiqamətində düşmənə məxsus və içərisində şəxsi heyət olan hərbi nəqliyyat vasitəsi Azərbaycan ordusunun bölmələrinin sərrast atəşi ilə məhv edilib. Bu barədə musavat.com-a Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Qarşı tərəf itkilər barədə məlumatı yenə də gizlədir.

YENİ MÜSAVAT
www.musavat.com
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11-12 fevral 2017-ci il Şənbə № 31 (6645) Qiymәti 60 qəpik

## Xəbər

**Test imtahanlarında iştirak ödənişli olacaq**

yazısı səh.2-də

## Gündəm

### Serj Sərkisyanın qandallanması üçün hüquqi prosedurlara start verildi



Milli Məclisdə "Soyqırım və etnik təmizləmə cinayətlərinin dünya səviyyəsində tanınmasının hüquqi aspektlərinin öyrənilməsi" layihəsinin geniş müzakirəsi keçirildi

yazısı səh.10-da

### Qarabağ danışıqlarında Azərbaycan üçün uğurlu gəlişmə

yazısı səh.11-də

### Azərbaycandakı Rusiya banklarının sirli fəaliyyəti...

yazısı səh.12-də

*Qabil Hüseynli:*

### "Lapşini idarə edənlər Moskva və İrəvandadır"

yazısı səh.3-də

### Hökumət tikinti şərtlərini xeyli sadələşdirdi

yazısı səh.12-də

### Yeni dəyişikliklər Azərbaycan üzərindən narkotrafikin qarşısını ala biləcəkmi...

yazısı səh.6-da

*Mövlud Çavuşoğlu:*

### "Türkiyə heç bir halda Krımın qanunsuz ilhaqını tanımayacaq"

yazısı səh.8-də

### Prezident Cocuq Mərcanlıya gedən avtomobil yolunun tikintisinə 4,3 milyon manat ayırdı

yazısı səh.2-də

### Leyla Şıxlinskaya dələduzluq ittihamına cavab verdi - "Yalandır, qəsdən edirlər"

yazısı səh.13-də

### Ermənilərin içi əsgərlərlə dolu hərbi nəqliyyat vasitəsi məhv edildi

yazısı səh.13-də

## Avropadakı baş simsarından "kiçik bacı"ya reverans

# PARİSDƏN BAKIYA QARŞI ERMƏNİ GEDİŞİ - OLLAND SƏRKİSYANI YANINA ÇAĞIRDI VƏ...

"Dağlıq Qarabağ xalqı öz taleyini özü həll etməlidir", deyən Fransa liderindən Azərbaycana qarşı növbəti qərəz; prezidentlərin fiasko olan Paris görüşündən sonra Olland indi də ermənilərin könlünü almaq istəyir...




yazısı səh.8-də

## Jirinovski Türkiyədə nə üçün həbs edilib - şok səbəb

Azərbaycanı quberniyalara bölməyi təklif edən cığal və çılğın rus siyasətçi haqda ilginc faktlar...

yazısı səh.7-də



*Alqış Musayev:*

**"Xalqın narazı təbəqələrini qıcıqlandıran başqa şeylərdir"**

yazısı səh.6-da



*Elxan Şahinoğlu:*

**"Putin verdiyi vədi ötən 17 ildə yerinə yetirmədi"**

yazısı səh.9-da



*Əhəd Abıyev:*

**"Təklif edirəm, bütün icra başçıları Cocuq Mərcanlıya getsinlər"**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017



## Prezident Cocuq Mərcanlıya gedən avtomobil yolunun tikintisinə 4,3 milyon manat ayırdı

**Prezident İlham Əliyev Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın xəbərinə görə, sərəncama əsasən işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə gedən, ümumi uzunluğu 9 km olan avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə "Respublikanın kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması" üçün nəzərdə tutulmuş vəsaitin 4,3 milyon *(dörd milyon üç yüz min)* manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

## Azərbaycanda Qida Təhlükəsizliyi Agentliyi yaradılacaq

**Prezidenti İlham Əliyev ölkədə qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.**

APA-nın məlumatına görə, Azərbaycanda qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni (sanitariya normaları və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanmasını və təsdiqini), risklərin təhlilini, qanunla müəyyən edilmiş qaydada gigiyenik sertifikatlaşdırma işinin aparılmasını, o cümlədən xarici ölkələrə ixrac edilən qida məhsullarına keyfiyyət sertifikatının verilməsini, habelə qida məhsullarının istehlakçılarının hüquqlarının müdafiəsi sahəsində və "tarladan süfrəyədək" prinsipi əsasında məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi yaradılacaq.

Komissiyanın sədri

Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini

Komissiyanın üzvləri:

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

AR maliyyə naziri

AR səhiyyə naziri

AR kənd təsərrüfatı naziri

AR Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri

AR Əmlak Məsələləri Dövlət Komitəsinin sədri

AR Qida Təhlükəsizliyi Agentliyinin sədri.

## Test imtahanlarında iştirak ödənişli olacaq

**Azərbaycan prezidenti İlham Əliyev Dövlət İmtahan Mərkəzinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında sərəncam imzalayıb.**

APA-nın xəbərinə görə, sərəncamda qeyd edilib ki, Tarif (qiymət) Şurası orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahanlarda, dövlət qulluğu (dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi) üzrə test imtahanlarında iştirak etmək üçün ödənişin məbləğini 15 gün müddətində müəyyən edib Azərbaycan prezidentinə məlumat versin.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Rumıniya üzərində "Çauşevski lənəti"

## 28 il əvvəl qanlı diktatorla qanlı hesablaşan rumın xalqı hələ də sabitliyə nail ola bilmir

**Rumıniya yenidən qarışıb. Hökumətin korrupsiya cinayətlərində ittiham olunanların əfvini nəzərdə tutan qanun layihəsi hazırlaması xalq etirazlarına səbəb olub. Etirazlar davamlı şəkildədir və artıq bir sıra məmurlar istefaya getdiklərini açıqlayıblar. Son olaraq ədliyyə naziri Florin Yordake istefa verdiyi elan edib.**



Etirazların davam etdiyi günlərdə ölkə prezidenti etirazçılar qarşısına çıxsa da, mitinqçilər onunla dialoqdan imtina ediblər.

Qeyd edək ki, Rumıniyada vaxtaşırı olaraq kütləvi etirazlar baş verir. 2015-ci ildə Rumıniyada korrupsiya əleyhinə çoxminli etiraz aksiyaları baş verib. Buna səbəb ölkədə gecə klublarından birində baş verən yanğın nəticəsində 30 nəfərin həlak olması olub. Yanğın hadisəsinə etirazla başlayan nümayişlər tezliklə siyasi islahat tələblərinə çevrilib. Nümayişçilər erkən seçkilər və siyasi islahatların keçirilməsini tələb ediblər. Kütləvi etirazlar başlayandan sonra baş nazir Victor Ponta istefa verdiyini bəyan edib.

Ümumiyyətlə, Rumıniya kütləvi etirazlar nəticəsində hakimiyyət və hökumət dəyişikliklərinin ən çox rast gəlindiyi ölkələrdən biridir. Rumıniya Avropa Birliyinin üzvüdür, ancaq ölkədə ciddi siyasi və iqtisadi problemlər mövcuddur. Eyni zamanda silahlı münaqişəsi olmasa da, Rumıniya kütləvi etirazlar səbəbi ilə qeyri-sabit ölkələrdən birinə çevrilib.

Nikolay Çauşevskinin 24 illik diktaturasından sonra Rumıniyada davamlı sabitlik əldə etmək mümkün olmayıb. Xatırladaq ki, 1965-89-cu illərdə Rumıniyanı qorxu və zor maşını vasitəsilə idarə etmiş Çauşevski sonda öz qəddarlığının qurbanı oldu. Ağır iqtisadi böhran yaşayan Rumıniyada dəbdəbəli həyat sürən diktatorun israfçılığın, əhalinin kasıblığı son nəticədə etirazlara səbəb oldu. Bir zamanlar "Varşava Müqaviləsi" təşkilatından çıxması ilə Avropada rəğbət qazanmış Çauşevski sonradan amansız diktatora çevrildi və Buxarestdə başlayan kütləvi etirazlar sonda ordunun etirazçıları dəstəkləməsi ilə nəticələndi. Çauşevski və həyat yoldaşının canlı yayında davam edən 1 saatlıq məhkəmə prosesində mühakimə edərək barəsində edam qərarı verirlər. 1990cı il yanvarın 7-də hökm icra olunur. Çauşevski və həyat yoldaşı güllələnir.

Bu hadisə Rumıniyanın diktatura mirasından imtina etsə də, "Çauşevski lənəti" hələ də davam edir. Ölkədə kiçik narazılıqlar qeyri-sabitliyə və xaosa çevrilir. 1989-cu ildə macar əsilli Rumıniya vətəndaşı bir keşişin həbsinə etirazla başlayan aksiyalar Çauşevskinin devrilməsi ilə güllələnməsi ilə başa çatdı. Maraqlıdır ki, diktatorların edamı praktikası çox geniş yayılmasa da, bu hadisələrin baş verdiyi ölkələrdə uzun müddətli xaos davam edir. 2011-ci ildə etirazçılar tərəfindən öldürülən Müəmmar Qəzzafidən sonra Liviyada hələ də sabitlik yaratmaq mümkün olmur. Halbuki qonşu Tunisdə vəziyyət xeyli fərqli oldu, diktator Bin Əli qaçdıqdan sonra xalq hakimiyyətə sahibləndi.

**KƏNAN**

## Abdulla Gül: "Ölkədə vicdan və ədalətə uyğun olmayan durumlar görürəm"

**Türkiyənin 11-ci prezidenti Abdulla Gül fövqəladə vəziyyət rejiminin verdiyi səlahiyyət çərçivəsində imzalanan qanun hökmündə qərarnamələr vasitəsilə universitetlərdən kütləvi xaricedilmələrə münasibət bildirib.**

APA-nın "Hürriyet"ə istinadən verdiyi xəbərə görə, A.Gül bu qərarlardan narahat olduğunu deyib: "Xüsusən elm dünyasında, universitetlərdə bu işin sıxlaşması çox narahatlıq doğuran, vicdanı yaralayan durumdur. Ümid edirəm ki, bunlar sürətlə düzəldiləcək".

A.Gül yaranmış vəziyyəti üzüntü ilə izlədiyini söyləyib: "Həm vicdan, həm də ədalətə uyğun olmayan bir çox durumlar görürəm".

Qeyd edək ki, son qanun hökmündə qərarnamə ilə Türkiyə universitetlərindən 330 professor və müəllim qovulub.

## FTX Avropada gizli Qafqaz agent şəbəkəsi qurur

**Almaniyanın ZDF televiziyası "Putinin soyuq müharibəsi" sənədli filmini yayımlayıb. Axar.az xəbər verir ki, filmdə Rusiyanın uzun illər ərzində Almaniyaya Federal Təhlükəsizlik Xidmətinin agentlərini qaçqın formasında göndərdiyi bildirilib. Filmin müəllifləri Kremlin bu addımı ölkədə destabilizasiya yaratmaq üçün atdığını vurğulayıb.**




Filmdə əsas qəhrəman kimi Rusiyadan qaçmış FTX-nın keçmiş polkovniki göstərilir. Televiziya filminin müəllifləri bu şəxsin Putinin hakimiyyəti dövründə Avropaya qaça bilmiş ən yüksək rütbəli rus zabiti olduğunu iddia edirlər. Məhz bu şəxs 20 il ərzində Rusiya xüsusi xidmət orqanlarında xidmət edib və özü şəxsən çeçen casuslarının Almaniyadakı müsəlman icmalarına qaçqın adıyla salınması üçün təşkil edilən xüsusi əməliyyatlarda iştirak edib. Polkovnik bu agentlərin hələlik "yatdığını" (yatmış hücrələr) və zamanı gələndə "oyadılacağını" söyləyib.

Filmin müəllifi olan Eqmont Kox ZDF televiziyasına müsahibəsində FTX-nin eks-əməkdaşı ilə 5 dəfə görüşdüyünü və onunla 15 saat söhbət apardığını bildirib. Kox keçmiş polkovnikin ona bu əməliyyatı həyata keçirən generalları tanıdığını və Kremlin Qərbdə qaçqın formasında gizlənən agentlərindən hansı məqsədlə istifadə edəcəyini bildiyini söyləyib.



## "Araz Əlizadənin mandatı ləğv olunmalıdır" - YAP Siyasi Şurasının üzvü

**Deputat Araz Əlizadənin Bakının xilaskarı Nuru Paşa haqqında dedikdlərinə reaksiyalar gəlməkdə davam edir.**

Sabiq millət vəkili, YAP Siyasi Şurasının üzvü Musa Musayev "Azpolitika"ya açıqlamasında bildirib ki, belə məsələlərdə heç kimə güzəşt ola bilməz.

O, qeyd edib ki, hər kəs öz məsuliyyətini dərk etməlidir, kimsə dərk etmirsə müvafiq qurumlar onu başa salmalıdır: "Mən Araz Əlizadənin belə münasibətini təsadüfi hesab etmirəm. Cənab Prezident bir neçə gün əvvəl Cocuq Mərcanlı kəndinin bərpası haqqında sərəncam imzaladı. Bu tarixi bir hadisədir.

Bu qərarın əhəmiyyəti bir kəndin bərpası ilə məhdudlaşmır. Mən deyərdim ki, bu sərəncam böyük qayıdışın başlanğıcına bir işarədir. Bu təkcə uçub dağılmış evlərin deyil, həm də milli yaddaşın bərpası deməkdir. Cocuq Mərcanlı kəndinə qayıdış eyni zamanda tarixə, ilkə, mənbəyə qayıdış deməkdir".

**M.Musayev hesab edir ki, belə bir məqamda Araz Əlizadə kimilərin xalqın əsəblərinə toxunan hücumları məqsədlidir:** "Görünən budur ki, Cənab Prezidentin bu addımı anti-dövlətçi, Azərbaycanı sevməyən mərkəzlərin əsəblərinə toxunub. Jirinovski dərhal Azərbaycan dövlətçiliyini aşağılayan bəyanatla çıxış edir. Millət vəkili dediyimiz Araz Əlizadə də Azərbaycan dövlətçiliyini və tarixinin şanlı səhifələrinə dil uzadır, ləkələməyə çalışır.

Mən bunu bir Nuru Paşaya olan yanlış kimi dəyərləndirməzdim. Çünki Araz Əlizadə Azərbaycan dövlətçiliyi üçün müqəddəs sayılan bütün dəyərlərə həqarətlə yanaşır. Yəqin ki, xatırlayırsınız, o bizim himnimiz haqqında da yersiz və əsassız açıqlamalar vermişdi. Guya ki, himnimizin mətni yaxşı deyil və onu dinləyən də "elektrik almır" və s..

İndi hamı hamını yaxşı tanıyır. Biz Araz Əlizadənin hansı ideologiyadan "elektik aldığını" yaxşı bilirik. Ona görə də, mən, Azərbaycan dövlətçiliyini düşünən hər kəsdən xahiş edirəm ki, tarixmizə, milli heysiyyətimizə uzanan çirkli əllər kəsilib atılmalıdır. Və əminəm ki belə də olcaq. Milli Məclis Araz Əlizadının mandatı ilə bağlı məsələni müzakirə edəcək".





# "Azərbaycan Dəmir Yolları" inzibati binasının açılışı oldu

## Müasir standartlara cavab verən binada sərnişinlər üçün pulsuz Wi-Fi sistemi də nəzərdə tutulub





**Fevralın 10-da "Azərbaycan Dəmir Yolları" inzibati binasının açılışı olub. Açılışda prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva da iştirak edib. Onlar inzibati binada yaradılan şəraitlə və Dəmir Yolu Vağzalında aparılan quruculuq işləri ilə tanış olublar. Dəmir Yolu Vağzalına baş çəkərək oradakı yeni şərait və hazırda vağzal ərazisində aparılan abadlıq işləri ilə maraqlandıq.**



Nizaməddin Eminov

Paytaxt Bakının giriş qapısı sayılan bu vağzalda yüksək standartlara cavab verən quruculuq işləri aparılıb. 2015-ci ildən başlanan abadlıq işləri demək olar ki, yekunlaşıb. Vağzalın ətrafındakı köhnə obyektlər sökülüb, hazırda onların yerində müasir standartlara cavab verən mağazalar tikilir. Dəmiryol İdarəsinin yenicə təmirdən çıxan inzibati binası isə özünəməxsus dizaynı ilə seçilir. Vağzalın əsas binasının üzlüyü memarlıq üslubu saxlanılmaq şərti ilə yenidən qurulub, binanın əsaslı təmir işləri aparılıb.

Binanın birinci mərtəbəsində 2 saylı "ASAN kommunal" fəaliyyət göstərir. Həmçinin bilet satışı kassaları, sərnişin platformaları müasir üslubda əsaslı təmir olunub, eskalatorlar yenisi ilə əvəzlənib. Yük, sərnişin və əlillər üçün liftlər quraşdırılıb. Əsaslı təmir zamanı burada inzibati otaqlar, müasir standartlara cavab verən ticarət və iaşə obyektləri yaradılıb, ana-uşaq otaqları, gözləmə zalı, saxlama kameraları sərnişinlərin istifadəsinə verilib. Binada sərnişinlər pulsuz Wi-Fi sistemindən də istifadə edəcəklər.

**Bakı Dəmir Yol Vağzalının stansiya rəisi Nizaməddin Eminov** bizimlə söhbətdə aparılan abadlıq və yenidənqurma işlərindən danışdı: "Biz həmişə demişik ki, Bakı Vağzalı şəhərin əsas giriş qapısıdır. Gördüyünüz kimi, köhnə vağzal əsər-əlamət qalmayıb. Etiraf gedək ki, əvvəl burada yaxşı istər işçilər üçün, istərsə də sərnişinlər üçün normal şərait yox idi. Bütün bunlar Cavid Qurbanovun apardığı işlərdən qaynaqlanır. Bu gün həm də Cavid Qurbanovun Azərbaycan Dəmir Yollar İdarəsinə sədr təyin olunmasının iki ili tamam olur. Bu da bir təsadüfdür. Bakı Avtovağzalı yüksək standartlara cavab verir. Təbii ki, bütün bunlar cənab prezident İlham Əliyevin diqqəti və qayğısı nəticəsində baş verdi".

AZƏRTAC-ın məlumatına görə, burada yaradılan "ASAN kommunal" mərkəzi qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara, o cümlədən vağzaldan istifadə edən bütün sərnişinlərə xidmət göstərəcək. Burada həmçinin "Azərişıq" və "Azərsu" ASC-lər, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 45 növ xidmətin göstərilməsi nəzərdə tutulur. Bank və notariat xidmətlərinin də təşkil edildiyi mərkəzdə 51 əməkdaş, 20 könüllü, ümumilikdə, 71 nəfər işlə təmin olunub. Bu il yanvarın 15-dən fəaliyyətə başlayan 1 saylı "ASAN kommunal" mərkəzində bu günədək 3200-dən artıq müraciət qeydə alınıb.

Qeyd edək ki, binada işçilərin yüksək səviyyədə çalışmaları üçün hərtərəfli şərait var. Server otağında qatarların hərəkətinin onlayn və GPS izlənmə sistemləri tətbiq edilib. Binanın 280 nəfərlik müasir akt zalında bütün imkanlar yaradılıb. İnzibati otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Binada, həmçinin şəhid dəmiryolçuların fotolarından ibarət guşələr yaradılıb. Müasir yeməkxana işçilərin ixtiyarına verilib.

Xatırladaq ki, Bakı Dəmir Yolu Vağzalının binası 1884-cü ildə Mavritaniya üslubunda inşa olunub, 1926-cı ildə isə rekonstruksiya edilib. Elə həmin ilin iyununda keçmiş SSRİ məkanında ilk dəfə Azərbaycanda Bakı-Sabunçu dəmir yolu sahəsində elektrik qatarı hərəkətə buraxılıb. 1977-ci ildə dəmir yolunun Bakı sərnişin stansiyasında yeni vağzal binası tikilib.

❑ **Məğrur MƏRD**

❑ **Fotolar müəllifindir**

**Blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiyası son günlər ölkə və dünya gündəminin əsas müzakirə mövzusudur.**

# "Lapşini idarə edənlər Moskva və İrəvandadır"

## Qabil Hüseynli: "O, beynəlxalq imperializmin agenti kimi, bacarıqlı və böyük bir çətirin altında gizlədilən şəxs olub"; Rusiya və İsrail səfirliyi bloggerlə görüşüb




Artıq Lapşin istintaqa ifadə verib və ittiham üzrə özünü qismən təqsirli bilib. Bu barədə Lapşinin hüquqlarını qoruyan və fevralın 9-da Bakı İstintaq Təcridxanasında onunla görüşən vəkil Səfər Hüseynov məlumat verib: "Öz yazdığı məqalələri təsdiqləyib, ora getdiyini, Qarabağa keçdiyini etiraf edib. Özünü qismən təqsirli bilir. Ona dəstə tərəfindən törədilən cinayət ittihamı verilib. Onlar bir qrup adam olublar. Həmin adamlar haqda da ifadə verib. Deyib ki, bu adamlar vasitəsilə getmişəm, adlarını çəkib, amma soyadlarını bilmir".

"Azərbaycan tərəfi Rusiya-Azərbaycan razılaşması üzrə öhdəliklərini yerinə yetirib".

APA-nın verdiyi məlumata görə, bunu **Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin** "İnterfaks-Azərbaycan"a müsahibəsində blogger Aleksandr Lapşinin işi ilə bağlı məsələyə münasibət bildirərkən deyib.

O qeyd edib ki, səfirlik Rusiya vətəndaşının saxlanması ilə bağlı vaxtında məlumatlandırılıb: "Fevralın 9-da, yəni bizim sorğumuzun göndərilməsindən bir gün sonra konsulluq işçisi Lapşinlə görüşüb. Gördük ki, həmin şəxsin saxlanma şəraiti normaldır, onun şikayəti yoxdur, vəkil müdafiəsi ilə təmin olunub. Səfirlik beynəlxalq hüquq normalarına və Azərbaycan-Rusiya razılaşmalarına uyğun olaraq Lapşin işinin obyektiv və ədalətli həllinə inanır".

Qeyd edək ki, fevralın 10-da Lapşin vətəndaşı olduğu İsrailin Azərbaycandakı səfirliyinin əməkdaşları ilə görüşüb. Bu barədə APA-ya Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib. O qeyd edib ki, görüş beynəlxalq hüquq normalarına uyğun olaraq, İsrailin Azərbaycandakı səfirliyinin Azərbaycan Xarici İşlər Nazirliyinə müraciəti əsasında baş tutub.

Azərbaycanlı vəkilin Lapşinin hüquqlarını qoruması sosial şəbəkələrdə müəyyən müzakirələrə səbəb olub. Vəkili qınayanlar da var, bir şəxsin hüquqlarının qorunması baxımından müdafiə edənlər də.

**Vəkil Əsabəli Mustafayev** bunları dedi: "Xarici ölkə vətəndaşı yerli dili bilmir, yerli qanunvericiliklə tanış deyil. Düşünürəm ki, xarici vəkillər də onun müdafiəsinə qoşulacaqlar. Düzdür, qanunvericiliyimiz xarici vətəndaşların ölkəmizdə vəkillik etmələrinə icazə vermir. Onlar ancaq məsləhətçi kim iştirak edə bilərlər. Amma hökumət məhkəmənin tam qanunla keçməsinə şərait yaratmalıdır ki, prosesin ədalətli keçməsində kimsənin şübhəsi olmasın. Azərbaycan beynəlxalq hüquq sistemini bilən mütəxəssislər dəvət etməlidir. Əgər xaricdən təcrübəli mütəxəssislər qoşulsa, bizim üçün çətin ola bilər. Hökumət indidən bunu düşünməlidir".

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Lapşin Azərbaycana qarşı olan təxribatın bir fiqurudur: "Onu idarə edənlərin əksəriyyəti zənnimcə, Moskva və İrəvandadır. Ola bilsin ki, onun uzantıları ölkəmizə də gəlib çıxsın. Əgər Lapşin adı "qara siyahı"da ola-ola iki dəfə Azərbaycana gəlirsə, onun Ukrayna pasportundan istifadə etdiyini söyləyirlərsə, bu kifayət qədər inandırıcı deyil. Ayıq-sayıq sərhəd işçiləri bunu dəyərləndirməli idilər. Aydındır ki, Lapşin təkbaşına o qədər yazılarını müxtəlif ölkələrdə dərc etdirə bilməzdi, təkbaşına bu şəkildə fəaliyyət göstərməsi də çətindir. Bunun üçün böyük vəsait, qəyyumluq lazım idi. Bunun bir ucu mütləq Ermənistanın siyasi rəhbərliyinə gedib çıxır. İstintaqda Ermənistan, eləcə də qondarma "Dağlıq Qarabağ Respublikası"ndan kimlərdən təlimat aldığını bülbül kimi ötəcək. Məni həyəcanlandıran odur ki, burada Azərbaycanla bağlı da müəyyən xoşagəlməz məqamlar üzə çıxa bilər. Ölkəmizdən kimlərinsə d ola bilsin ki, onu himayə etdikləri üzə çıxsın. Bunu qətiyyən arzulamıram. Belə olarsa, bu çox böyük biabırçılıq olar. Lapşin beynəlxalq imperializmin agenti kimi, bacarıqlı və böyük bir çətirin altında gizlədilən şəxs olub. Ona görə bu prosesləri həyata keçirə bilib. O etdiyi əməllərin cəzasını çəkməlidir. O, bir qrup şəxsin əli ilə ora getməsi barədə elə də önəmli məlumat vermir. Belə səfərləri Ermənistan rəhbərliyi təşkil edir. Qondarma rejimi təbliğ etmək üçün belə metodlardan istifadə edir. Həmin şəxslərin adlarının verilməsi Azərbaycan üçün də böyük əhəmiyyət kəsb etmir. Rusiya və digər ölkələrdən adlar çəkilərsə, bunun bizə bəzi müsbətləri olar. Həmin şəxslərin İnterpol xətti ilə tutulub Azərbaycana gətirilməsi müəyyən çətinliklər yarada bilər. Amma hər halda bunun da müəyyən rolu olar. Lapşin adi jurnalist, blogger deyil. O çox böyük yükün altına girmiş, böyük missiya daşıyan və böyük tapşırıqlar icra edən bir fiqurdur. Dağlıq Qarabağa gedən başqa qruplar, şəxslər olsun, onlar bunun qədər təhlükəli işlər görməyiblər. Çünki onun yazıları, televiziya verilişləri, Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyəti bir çox məqamlarda effektli olub. Bu nöqteyi-nəzərdən demək mümkündür ki, Lapşin təkbaşına fəaliyyət göstərməyib. Nə olsun ki bir qrup adamla gedib. Onlar müxtəlif qrup adamlar ola bilərlər. Lapşin xırda balıqların adını çəkməməlidir. Onu bu yola çəkən iri balıqların adını çəkməlidir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

# "Sipark Qrup"un rəhbəri televiziya açır

## Seymur İsayev: "TDT türk coğrafiyasında yaşayan türklərin ortaq televiziyası olacaq"

**"Sipark Qrup"un rəhbəri, iş adamı Seymur İsayevin Bakıda olduğunu bilib, ondan "Yeni Müsavat" qəzeti üçün müsahibə aldıq. Müsahibəni təqdim edirik.**

***- Seymur bəy, sahibi olduğunuz "Sipark Qrup" inşaat sektorunda fəaliyyət göstərən bir təsisatdır. Şirkətiniz haqda bir az məlumat versəydiniz, oxucular üçün də maraqlı olardı.***

- "Sipark Qrup" bir neçə qurumdan təşkil olunmuş böyük şirkətdir. Bu şirkətin tərkibində "Sipark İnşaat", "Sipark Turizm", "Sipark Otelçilik", "Sipark Əmlak", "Sipark Media" kimi qurumlar fəaliyyət göstərir. Bu günlərdə isə Qrupa Türk Dünyası Televiziyası(TDT) də əlavə olundu. "Sipark"ın baş ofisi İstanbuldadır. Amma bu, bir Azərbaycan şirkətidir. Türkiyəli şəriki yoxdur. Üç azərbaycanlı şərikdən ibarət bir qrupdur. Rəhbəri mənəm. "Sipark Qrup" sadaladığım təsisatların hüquqi və faktiki sahibidir. Şirkətimizin fəaliyyət növü rəngarəng olsa da, ana işi inşaatdır.

***- İnşaatın yönümü nədir? Sosial evlər tikirsiz, iş mərkəzləri, ya yaşayış binaları?***

- "Sipark"ın əsas yönümü sosial yönümlü evlərdir. Hazırda Bakıda iki layihəmiz var. Biri Həsən Əliyev küçəsindədir. Digəri Təbriz küçəsində. Cənab prezidentin haqqında danışdığı layihə - köhnə evləri yıxıb, yerində müasir binalar tikmək, bax, biz o layihələrdə iştirak edirik. Məsələn, beş girişli yaşayış massivi salırıq. Altı girişli yaşayış massivi isə Təbriz küçəsindədir. Bundan başqa, bizim Elmlər Akademiyasında olan işimiz var. Bakıda 9-a yaxın bitən layihəmiz var, İstanbulda isə bitən layihələrin sayı 4, davam edən layihənin sayı isə 2-dir. O layihənin biri də İstanbulun şah əsəri olan Bağdat Caddəsinin üzərindədir. Çünki Bağdat Caddəsi öz-özlüyündə həm qiymətli büdcədir, həm də İstanbul sosyetesinin əsas yaşadığı bölgədir.

***- Artıq ona da start verilib?***

- Bəli, qaba inşaat bitib, incə işlər gedir. 10 mərtəbəli arxadı, 4 mərtəbəli isə öndür. Bundan başqa, Ataşəhərdə, Beylikdüzündə və Floriyada bitirdiyimiz üç layihəmiz var. Bağdat Caddəsi və Ümraniyədəki layihəmiz isə davam edir. Kiprdə də yeni başladığımız layihə var.

***- "Sipark İnşaat", "Sipark Turizm", "Sipark Media" və sonuncunun nəzdində olan televiziya. Bir iş adamı üçün televiziya açmaq müəyyən risklər yarada bilər. Özü də bu biznes layihəsinə bənzəmir. Bu addımı atmağa sizi nə vadar etdi? Sadəcə, bir həvəsmi, şöhrətmi, yoxa içinizdə buna bir mənəvi ehtiyacmı hiss etdiniz?***

- Əvvəl biz Türkiyədəki Ege TV-ni almaq istədik. Hər hansı televiziya olsa da, istəyirdik ki, onun Azərbaycanla bir bağlılığı olsun. Çünki türk dünyası televiziyası olmasa, onun Azərbaycanla əlaqəsini, bağını qura bilməzdik. Türk dünyası ölkələrindən biri də Azərbaycandır. Bu gün Azərbaycandakı iki iş adamının qardaş ölkədə telekanalı var. Amma onlar həmin kanalda Azərbaycanla bağlı bir dəfə, ya iki dəfə nəsə hazırlayarlar, ondan artığını yox. Amma biz bu kanalda Azərbaycanla bağlı nəsə hazırlayanda heç kimə qəribə gəlməyəcək. Çünki Azərbaycan türk dünyasının əsas ölkələrindən biridir. Üstəgəl, türkçülük qanımızda var, ordakı dostlarımız da türkçüdülər. Ona görə də belə bir layihə edə bilərdik ki, türkçülüyü təbliğ edək və siyasətdən uzaq olaq. Bir siyasətimiz olacaq, o da türkçülük.

***- Bəs biznes marağı?***

- Elə məsələlər var ki, biznes maraqları orda arxa plana keçir. Biz başqa sahələrdən qazandığımızı türk millətinin yolunda xərcləməyi planlaşdırırıq. İnşallah gələcəkdə TDT böyüyər, o zaman həm də pul gətirəcək, biznes layihəsinə çevriləcək.

***- Türkçülüyü hansı yöndən təbliğ edəcəksiz?***

- Yayım siyasətimiz hazırlananda biz bu məsələləri müzakirə etdik. Məqsədimiz orda türkçülüyün özünü qabartmaq deyil. Biz türklərin adət-ənənələri, ortaq yarışmasını həyata keçirmək istəyirik. Məsələn, biz artıq məşhur "Surviover" yarışmasının patentini, müəlliflik hüququnu aldıq. Bu yarışmanı türk ölkələri arasında edəcəyik. Məqsəd sırf türkçülüyü qabartmaq deyil.

***- Yəni məqsəd türk coğrafiyası boyunca mədəniyyətlərin, folklorun, adət-ənənənin, idmanın təbliğatıdır?***

- Bəli, bütün bu sahələrin təbliği və təqdimidir. Əsas fikir odur. Amma bununla yanaşı, bizim siyahıda türkçülüyü yüksək səviyyədə təbliğ edən elm adamlarımız, professorlarımız da var. Yəqin ki, Azərbaycandan da çağırılacaq. Onların öz yeri var. Hansı ki, onların iştirakı ilə biz türkçülüyü də təbliğ edəcəyik. Amma kanal sırf türkçülüyün təbliği ilə məşğul olma missiyasını öz üzərinə götürsə, bu, monotonluq və müəyyən ünvanlardan qıcıq yaradar. Çünki Türkiyədə kürd də var, laz da, başqa etnik qruplar da. O cümlədən Azərbaycanda. Sadəcə məqsəd odur ki, onlar da baxsın, amma onu qabarıq xətt kimi götürməyək. Bilməyənlər türk folklorunu, mədəniyyətini, klassik idman növlərini bizim kanal vasitəsilə öyrənsinlər.

***- Telekanaldakı verilişlərin adları, süjet xətti, mövzusu, formatı nədən ibarət olacaq? Məsələn, Qazaxıstanla Azərbaycan studiyaları arasında telekörpü olacaqmı?***

- TDT-nin rəhbəri tanınmış televiziyaçı Cenk İçtendir. Bütün məsələləri o müzakirə edəcək. Telekörpülər isə olacaq. Türk coğrafiyasında olan bütün ölkələrdə öz ofisimizi qurmaq istəyirik. Sadəcə olaraq, bir operator, bir müxbir yox, hər ölkədə ayrıca bir ofis.

***- Büronuz üçün binalar almısızmı?***

- Orta Asiyadakı ofislərlə bağlı məsələni yerli hökumətlə də razılaşdırmışıq. Məsələn, Özbəkistan bizə keyfiyyətli tanıtım üçün billbordlar hədiyyə etdi.

***- Azərbaycanla bağlı təşkilati işlər necə gedir? Ofis almısızmı?***

- Azərbaycanda ümumən ofislərimiz çoxdur. Amma bizim ən birinci fikrimiz Türksat yayımı ilə bağlı təşkilati işləri bitirməkdir. Hazırda internet yayımı gedir. 24 saat yayımdayıq. Tanıtım xarakterli. Amma Türksat yayımını mart ayının 1-dən başlamaq istəyirik. Danışıqlarımız, müqavilələrimiz də bu istiqamətdə gedir. Hazırda yayımlamaq üçün məhsulumuz var. Amma bundan sonra yayım gedə-gedə ofislərimizi bir-bir açacaq və bunun xəbərini də verəcəyik.



**"Biz siyasətlə məşğul olmayacağıq, əsas məqsədimiz Qarabağ probleminin düzgün çatdırılması, Azərbaycan həqiqətlərinin yayılması, türkçülüyün təbliğidir"**

***- Türkiyə ofisiniz İstanbulda olacaq?***

- İstanbulda. Amma TDT-in ana ofisi Kiprdədir. Hazırda fəaliyyət ana ofisdən gedir. Bütün studiyalar orda, konkret olaraq Girnededir. Çünki bizim kanal orda var olan bir kanalın bazasında qurulub. Akdeniz TV adlı kanlı TDT-yə çevirdik.

***- Akdeniz TV-nin sahibi kim idi?***

- Hüseyn Macid Yusif. O, Kiprin Türkiyədəki böyük elçisidir.

***- Niyə TDT-nin rəhbərliyini Cenk İçtene verdiniz?***

- Cenk İçten Azərbaycanın televiziya sahəsində 15 ilə qədər çalışıb. Bir neçə layihəsi, verilişləri olub. Özü də türkçüdü. Türkçü alimlərdən başlamış, türkçü sənət adamlarını yaxşı tanıyır, əlaqələri gözəldir. Həm Hüseyn bəyə, həm də mənə uyğun insan idi. Ona görə də onunla çalışmağa qərar verdik.

***- Bakı ofisinizdə müxbirləriniz, operatorlarınız da seçilibmi?***

- Bəli, bildiyim qədər artıq Cenk bəy onları da seçib və təyin edib.

***- Canlı yayım verilişləriniz də olacaqmı?***

- Mütləq. Bizim artıq Türkiyədə də, Kiprdə də canlı yayım maşınlarımız var. Bunu Azərbaycanda da edəcəyik.

***- Bakı ofisinizin ştatı hazırdır... Bəs telekanalın fəaliyyət göstərəcəyi bina hazırdırmı?***

- Yox, binamız hazır deyil. Bizim binamız Türksat yayımına çıxandan sonra, yəni, gələn ayın 1-də hazır olacaq. Həm də tikinti şirkəti olduğumuz üçün yer problemimiz yoxdur. Bütün Orta Asiya, eləcə də Azərbaycan şöbəmiz üçün lazım olan texniki avadanlıqları almışıq. Harda ofis açacağıqsa, onun texniki avadanlıqları hazırdır. Bizim Türkiyə və Kipr şöbəmiz üçün avadanlıqlarımız var idi və Akdeniz TV-nin bazasında idi. Biz digər ofislərin ləvazimatlarını aldıq. Ştat da bəllidir.

***- Bakı ofisinizdə nə qədər işçi olacaq?***

- 4 nəfər.

***- Yayım 24 saat olacaq?***

- Bəli, 24 saat. Bir məqamı da deyim. Niyə baş ofisi Kirpdə etdik? Çünki Kiprin daha çox tanıtıma ehtiyacı olduğunu nəzərə alıb, baş ofisi orda seçdik. Əslində fikir ordan yarandı ki, bəzi Türkiyə kanallarında belə Azərbaycanla bağlı Türkiyə cəmiyyətinə yanlış informasiyalar verilir. Sahibi azərbaycanlı olan kanalların sayı isə cəmi iki dənədir ki, onlar da ancaq reklam kanallarıdır. Bu gün Türkiyədə sahibi azərbaycanlı olan, qeyri-reklam sahəsi üzrə fəaliyyət göstərən telekanal yoxdur. Yəni, TDT Azərbaycan həqiqətlərinin türk dünyasını çatdırılması üçün vəsilə olacaq. Mən bir azərbaycanlı olaraq hesab edirəm ki, türk ölkələri arasında ən çox problem və qayğı ilə üzləşən Türkiyə və Azərbaycandır. Biz də türkün harda düşməni varsa, onu göstərəcəyik. Təbii ki, siyasi məsələləri yox, bu, bizim sahəmiz deyil. Amma digər bütün məsələlər üzrə fəaliyyətimiz türk düşmənlərinə qarşı olacaq.

***- Bu televiziyanın hazırkı sahibi olan "Sipark"dan da danışaq.***

- Burda layihələrə başladıq. İndi çox adam qorxusundan layihələrə yaxın gəlmir. Cənab prezident deyir ki, iş yerləri açılsın. Ona görə də bu gün sərəncamları Bakı şəhər İcra Hakimiyyətləri yox, rayon icra hakimiyyətləri verir. Bu gün Fövqəladə Hallar Nazirliyində qeydiyyatdan keçmək xeyli asanlaşdırılıb.

***- Yəni prezidentin bir il öncə iş mühitinin yaxşılaşdırılması ilə bağlı verdiyi fərmanların effektini iş adamı olaraq görürsünüz?***

- Bəli, çox görürük. Əvvəllər Bakı şəhər İcra Hakimiyyətindən bir sərəncamı almaq üçün aylarla gözləyərdik. İndi isə müvafiq sərəncamları rayon icra hakimiyyətləri 3 günə verir. Bizim hazırda hər iki layihəmiz Nərimanov rayonu ərazisindədir. Nərimanov Rayon İcra Hakimiyyəti sərəncamların verilməsini, layihələrin təsdiq olunmasını operativ şəkildə həyata keçirir. Beləliklə, həm layihələşmədə, həm də tikinti prosesində yaranan problemlərin həllində çox yaxından kömək etmiş olur. Fürsətdən istifadə edib onlara öz təşəkkürümü bildirirəm. Yalnız dövlət rüsumu ödəyirik. Əvvəllər aylarla çəkən yoxlamalar indi operativ qaydada həll olunur. Müsbətə doğru çox ciddi dəyişikliklər var. Çünki prezident Asan Xidmətdəki kimi bu layihələrə birbaşa nəzarət edir. Sahibkarların fəaliyyəti üçün münbit şərait yaradır.

❑ **A.ABBASOV**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

# "Təklif edirəm, bütün icra başçıları Cocuq Mərcanlıya getsinlər"

## Əhəd Abıyev: "Cənab prezident bir yandan işğaldakı torpaqların azad edilməsi istiqamətində gərgin iş aparır, digər tərəfdən isə əsgər və şəhid ailələrini diqqətdən kənarda saxlamır"

**Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Əhəd Abıyevin "Yeni Müsavat" qəzetinə müsahibəsini təqdim edirik.**

*- Əhəd müəllim, son günlər Azərbaycanla bağlı olduqca maraqlı proseslər gedir. Onlardan biri də blogger Aleksandr Lapşinin ölkəmizə ekstradisiya edilməsidir.*

- Müsahibənin lap əvvəlində sizdən bir xahiş edəcəm.

*- Buyurun. Nə xahişdi?*

- Mənim sözlərimi olduğu kimi verin. Çünki bəzi qəzetlər, saytlar, fikrimizi qərəzli şəkildə və bilərəkdən təhrif edirlər.

*- Narahat olmayın. Nə danışsanız, hamısını verəcəyik.*

- Aleksandr Lapşinin Bakıya gətirilməsi Azərbaycanın bir dövlət olaraq nüfuzunu və gücünü göstərən hadisədir. Həmçinin ölkəmizin başçısı cənab İlham Əliyevin ölkəsi və xalqı üçün necə bir fədakarlıq etməsinin, prinsipial mövqe tutmasının sübutudur. Lapşin Azərbaycanın qanunlarını pozaraq, işğal altında olan ərazilərə səfər edib, Azərbaycan dövləti və azərbaycanlılar barədə qərəzli, təhqiramiz məqalələr yazmışdı. Budur, artıq o, Azərbaycan Respublikasının qanunları qarşısında cavab verir. Bu, bizimlə bağlı yanlış mövqe tutan hər bir kəsə dərs olmalıdır. Bu şərəfsizlər anlasınlar ki, Azərbaycanın qanunlarını pozub sonra rahat gəzib-dolaşmaq mümkün olmayacaq.

*- Bəziləri Lapşinin Bakıya əl-qolu bağlı gətirilməsinə irad bildirirlər.*

- Bəli, yaramazlar həmişə olub, var və olacaq. İndi neynəyək, ölkəmizin və xalqımızın ünvanına təhqiramiz ifadələr işlətmiş, işğal altındakı torpaqlarımıza qanunsuz səfərlər etmiş birini Azərbaycan dövləti cəzalandırırsa, özü də yerli və beynəlxalq qanunlara əsasən, bundan bəziləri niyə narahat olur?! İnanın, Lapşin gətirilməsəydi, onlar yazacaqdılar ki, hakimiyyətin bir siyasi oyunbaza gücü çatmadı. Bu, diplomatik bir qələbədi. Lapşinin həbsi və ölkəmizə verilməsi Azərbaycan-Belarus dostluğu və dövlətimizin beynəlxalq aləmdəki gücünü göstərdi. Bir daha da bütün dünyaya bəyan edilmiş oldu ki, möhtərəm cənab Ali Baş Komandanın apardığı xarici siyasət yüksək nəticələr verməkdədir. Qarabağa, böyük qələbələrə gedən yol bu cür başlayır. Azərbaycan prezidenti hörmətli İlham Əliyevin apardığı bu işlər həm daxili, həm xarici düşmənlərimizin yuxusunu qaçırıb. Onlar Azərbaycanın qüdrətli dövlət, güclü ordusunun olmasını həzm edə bilmədikləri üçün özlərinin çirkin fəaliyyətdən əl çəkmirlər. Onlar da xaricdə fəaliyyət göstərir.

*- Bəzən daxildə düşmən axtarmaq, sizcə, yanlış deyilmi?*

- Düzdür, bəziləri dövlətə, iqtidara qarşı düşmənçilik edirlər. Bilirsiniz ki, Azərbaycan prezidenti olduqca humanist insandır. İqtidara qarşı qərəzli münasibət bəsləyən, xarici dairələrin sifarişi ilə ölkəmiz haqda olmazın böhtanlar danışan, qərəzli məqalələr yazan adamları cənab prezident zaman-zaman əfv edib, onlara yeni bir şans verib ki, səhvlərini düzəltsinlər, bir daha çaşmasınlar. Amma onların içində səhvini anlayıb haqq yola qayıdanlar da olub. Lakin təəssüf ki, dövlətə və xalqımıza qarşı düşmənçilik aparaq bu yanlış yoldan dönməyənlər də var. Bələlərinin pulu xarici erməni dəyirmanına su tökən xarici fondlardan gəlir.

*- Əhəd müəllim, yeri gəlmişkən, Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndi ilə bağlı aparılan işlərlə maraqlanırsınızmı?*

- Əlbəttə. Hər gün, hər saat o mövzu diqqətimizdədi. Möhtərəm prezidentin Qarabağın işğaldan azad edilməsi ilə bağlı gördüyü işlər göz qabağındadır. İstər diplomatik müstəvidə olsun, istər siyasi, istərsə də hərbi, Ali Baş komandanımız gecə-gündüz dayanmadan çalışır. Müharibə təkcə cəbhə xəttində, səngərlərdə aparılmır. Bu gerçəyi hər kəs bilməlidir. Cənab İlham Əliyevin siyasi-diplomatik səngərdə, cəbhədə gördüyü işlərin bəhrəsini xalqımız yaxın zamanlarda görəcək. Cocuq Mərcanlı böyük qələbənin başlanğıc mərhələsidir. Möhtərəm prezidentimiz bizi böyük qələbəyə, doğma yurda qayıdışa - Qarabağın işğaldan azad edilməsinə doğru aparır.

*- Son vaxtlar ayrı-ayrı təşkilatlar, Cocuq Mərcanlıya gedirlər. Bu günlərdə ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələri də ora gedəcəklər. Bu səfərlərin təşkilini necə qiymətləndirirsiz?*

- Açığı, bu mövzuya toxunacaqdım, məni qabaqladınız. Azərbaycan üçün hazırda ən həssas və vacib mövzulardan biri də Cocuq Mərcanlıya dönüşlə bağlıdı. Bu kənd bizim üçün Qarabağa, işğal altındakı torpaqlarımıza açılan qayıdış qapısıdı. Ona görə də hər bizimiz Cocuq Mərcanlının bərpası istiqamətində təşəbbüskar olmalıyıq. Şəxsən mən təklif edirəm ki, bütün rayon icra hakimiyyəti başçıları Prezident Administrasiyasının razılığı əsasında qruplar halında Cocuq Mərcanlıya səfər etsinlər. Xalqın, yerli əhalinin içinə getmək, onlarla çiyin-çiyinə dayanmaq, probleminə yaxından bələd olmaq lazımdı. Bu, Ulu Öndərimiz Heydər Əliyevin yoludur. Bu, bizim əziz prezidentimiz İlham Əliyevin siyasətidir. Ölkəmizdə prezidentin rəhbərliyi ilə islahatların yeni mərhələsi başlayıb, görüləcək işlərlə bağlı tapşırıqlar verib.

Həmçinin cənab prezident bu günlərdə nəşi düşməndən alınaraq böyük təmtəraqla dəfn edilən şəhid Çingiz Qurbanovun ailəsini qəbul etdi. Çingizin valideynləri ilə xeyli söhbət etdi, ona ölümündən sonra milli qəhrəman adı verdi. Cənab prezident "Qızıl ulduz"u şəhidin atası Salman Qurbanova təqdim etdi. Bu mükafat təkcə Çingiz Qurbanova deyil, Azərbaycan torpaqları uğrunda canından keçən bütün şəhidlərə verilən qiymətdir. Bunları xalq görür, ki, cənab prezident əsgər və şəhid ailələrinə sahib çıxır, onlara diqqət və qayğı göstərir. Biz məmurlar da Ali Baş Komandanın bu davranışından nümunə götürərək yerlərdə onun bu uğurlu siyasətini davam etdiririk.

## "Lapşinin Bakıya gətirilməsi dövlətimizin və Azərbaycan prezidentinin qüdrətinin göstəricisidir"



## "Kim çaşırsa, aşır, yolundan çıxırsa, layiqli cəzasını alır"

*- Əhəd müəllim, son vaxtlar sizinlə bağlı bəzi saytlarda yazılar gedir. Gah yazırlar, müşavirədən sonra əhvalınız pisləşib, gah da reket mətbuatla adınızı hallandırırlar.*

- Bunlar hamısı cəfəngiyatdır. Sağlam jurnalistika heç vaxt belə yazmaz. Mənim mətbuata münasibətim həmişə normal olub. Jurnalistlərlə arama heç vaxt sədd çəkməmişəm. Nə zaman müraciət ediblər, onlara müsahibə vermişəm. Baxın, indi siz zəng etmisiniz, verdiyiniz sualların hamısına cavab verirəm. Amma bəzi saytlar var ki, barəmdə ağızlarına gələn mənim demədiyim cəfəngiyat şeylər yazırlar. Mən cənab prezidentin rəhbərliyi ilə keçirilən müşavirədən çıxarkən mobil telefonumu açdım, qardaşımın rəhmətə getməsi xəbərini aldım. Qardaşının ölüm xəbərini alan insanın əhvalı təbii ki, pisləşər. Bu xəbər yayılandan sonra bəzi qəzetlər mənə zəng vurdular, vəziyyəti izah etdim. Çox sağ olsunlar ki, doğru-düzgün xəbər hazırlayıb sayta və qəzetə verdilər, hər kəs də həqiqəti bildi.

Qaldı ki, barəmdə yazılan digər iftiralara. Bilirsiniz, istər deputat kimi fəaliyyət göstərdiyim vaxtlarda, istərsə də icra başçısı vəzifəsini icra etdiyim bu 6 illik müddətdə ən çox reket mətbuatdan əziyyət çəkən məmur olmuşam. Belə olduqda hansı məntiqlə mən reketlərə himayədarlıq edə bilərəm?! Mən normal, əxlaqlı, düzü düz, əyrini əyri yazan jurnalistlərə böyük hörmət bəsləyirəm. Amma reket mətbuat... Bu, mənlik iş deyil. Həmişə də onlara iradımı bildirmişəm.

*- Bu yazılardan sonra müəyyən qeyri-ciddi şayiələr yayırlar. Və Prezident Administrasiyası adından danışırlar.*

- Bilirsiniz, Prezident Administrasiyası rəhbərliyi və orada işləyənlər təcrübəli insanlardan ibarətdir. Onlar hansı saytın hansı məqsədlə yazdığını gözəl bilirlər. Həmçinin onun təyin etdikləri kadrları da çox yaxşı tanıyırlar. İstər cənab prezident, istərsə də onun komandası yerlərdəki kadrlarına hansısa reket saytın, qəzetin şantajçı, böhtançı, qərəzli yazısı ilə deyil, sırf o kadrların fəaliyyəti ilə qiymət verirlər. Biz bu iqtidara, dövlətə, xalqa boş-boş sözlə yox, fəaliyyətimizlə, həmçinin sədaqətimizlə xidmət göstəririk. Kim çaşırsa, aşır, yolundan çıxırsa, layiqli cəzasını alır.

*- Əhəd müəllim, bu gün ölkədə nümunəvi rayonlar, şəhərlər, bölgələr varmı və ilk sırada hansıların adlarını çəkərdiniz?*

- Mən müstəqil Azərbaycanda 15 il deputat, 6 ildir də icra başçısı olmuş şəxs kimi deyə bilərəm ki, Azərbaycan özü dünya üçün bir nümunəvi hüquqi-demokratik dövlətdir. Ölkəmizdə sabitlik, əmin-amanlıq, terrorsuz bir mühit var. Bunlara görə ölkə başçısı, cənab İlham Əliyevə minnətdar olmalıyıq. Həmçinin hüquq-mühafizə orqanları etibarlı əllərdədi. Vahid rəhbərlik var.

Qaldı ki sizin sualınıza... Birmənalı olaraq bildirirəm ki, bu gün Naxçıvan Muxtar Respublikası hazırda nəinki Azərbaycan üçün, region ölkələri üçün bir nümunəvi modeldi. Cənab prezidentin rəhbərliyi ilə hörmətli Vasif Talıbov hazırda Naxçıvanda böyük quruculuq-abadlıq işləri aparır. Bütün sahələr üzrə gözəl işlər görülüb və görülməkdədir. Ora gələn turistlər, diplomatik qonaqlar, həmçinin qonşu dövlətlər olan İran və Türkiyə vətəndaşları bu inkişafı, yeniliyi görüb Azərbaycanla bağlı təsəvvürləri daha da müsbətə doğru dəyişir. Xatırladım ki, Naxçıvan yarımblokada şəraitindədir. Lakin buna baxmayaraq Muxtar Respublika hazırda özünün inkişafının zirvəsini yaşayır. Bütün dünya dövlətləri ilə siyasi və iqtisadi əlaqələr qurulub. Məncə, bütün bunlar sizin sualınıza ən yaxşı cavabdır.

## "Bu gün Naxçıvan özünün inkişaf dövrünün zirvəsini yaşayır"

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

**Deputat, YAP icra katibinin müavini Siyavuş Novruzov "Yeni Müsavat"a açıqlamasında hökuməti tənqid edən bəzi həmkarlarını ad çəkmədən tənqid edib. Onun sözlərinə görə, bəzi adamların yeni taktika seçiblər "prezidenti tərifləyək və bundan özümüzə qalxan yaradaq, yerdə qalanları tənqid edək" yanaşması sərgiləyirlər. A.Musayev S.Novruzovu bu komandanın ən səmimi və sadiq üzvlərindən biri kimi tanıdığını söylədi: "Ola bilər ki, onun üslubu, seçdiyi hədəflərə yanaşma tərzi bir qədər fərqlidir. Və müxtəlif təbəqələrin zövqünə uyğun olmaya bilər. Amma mən hesab edirəm ki, onun açıqlamaları ümumi maraqların müdafiəsi üçün lazımlı və məqbuldur".**

# Alqış Musayevdən Siyavuş Novruzovun dediklərinə reaksiya

## "Xalqın narazı təbəqələrini qıcıqlandıran daha çox..."

**Sabiq deputat Alqış Musayev** S.Novruzovun dediklərinə münasibət bildirib. A.Musayev partiyadaşının tənqidi fikrə qarşı kəskin mövqe sərgiləməsinə fərqli yanaşdı: "Təbii ki, tənqid olunmaq heç də həmişə müsbət qəbul olunmur. Ancaq reallıq belədir ki, tənqidsiz də keçinmək mümkün deyil. Nəzərə almaq lazımdır ki, indi ictimai şüur çox həssasdır. Ən adi və xırda çatışmazlıq gözdən yayınmır. Bu cür çatışmazlıqlar müzakirə edilməyəndə qarşı tərəf bundan dərhal və məharətlə istifadə edir. Bu gün tənqidçi mövqeyə çox böyük, mən deyərdim ki, heç bir dövrdə olmadığı qədər ehtiyac var. Susmaq səhvləri ört basdır etməyə çalışmaq belə demək mümkünsə maraqlı qüvvələrə hazır tezislər bağışlamaq deməkdir. Şübhəsiz ki, tənqid obyektiv olmalıdır. Kimsə iqtidar komandasını tənqid edirsə ciddi əsaslar gətirməlidir. Təəssüf ki, çox zaman bu prinsipə riayət olunmur. Məsələn, kimsə iddia edir ki, o daha peşəkar və güclü komanda yaradıb ölkənin qarşısında dayanan problemləri qısa bir müddət ərzində həll etməyə qadirdir. Halbuki, həmin adam indiyə kimi heç bir uğurlu iqtisadi siyasi layihə təqdim edə bilməyib. Tənqidlər arasında müxtəlif və subyektiv motivlər kifayət qədərdir. Kimsə prezidentin ətrafında yalnız özünü görür, kimsə ümumiyyətlə, hər yerdə özünü və yalnız özünü görür. Kimsə ucuz reytinqlərə hesablanmış çıxışlar edir. Kimsə ucuz və cari maraqlara xidmət edən canfəşanlıq nümunəsi göstərir və s". **A.Musayev bildirdi ki, bütün bunlara rəğmən bir həqiqət mövcuddur:** "Hazırkı iqtisadi və siyasi komandaya tən gələ biləcək, onu üstələyə biləcək alternativ potensial yoxdur. İlham Əli-




yev ölkəni yönləndirə bilən və yönləndirən yeganə güc və nüfuz sahibidir. Mən sizə bir məqamı xatırladım: məndən soruşsalar ki, Azərbaycan prezidentinin öz siyasi ustadı - Heydər Əliyevdən əxz etdiyi ən mühüm keyfiyyət hansıdır? Mən birmənalı olaraq belə cavab verərdim: təmkin! Təmkin siyasi liderin mükəmməllik nişanıdır... Baxın, opponentlərinin onu polemikaya cəlb edib ictimai düşüncədə tərəf-müqabil statusu qazanmağa hesablanmış bütün cəhdləri, çabaları nəticəsiz qalır. O, təmkini ilə danışdırır və təmkini ilə susdurur. Prezident 13 ildən artıq müddətdir ki, siyasi stajlarını zənginləşdirmək üçün dəridən-qabıqdan çıxan rəqiblərinə şans vermir. Prezidentin təmkini, istənilən müxalifyönlü siyasi pafos və bələğətdən gur, ahəngdar səslənir. Bu baxımdan tənqidə dözümsüzlükdən söhbət gedə bilməz. Mən populist qərarlar qəbul etməyin, radikal dəyişikliklərin tərəfdarlı deyiləm. Bir dəfə də fikrimi bildirmişəm, yenə təkrarlamaq istərdim. Emosional addımlar atıb sonra həyəcandan qalstukunu çeynəyən dövlət adamı ölkəsinə rifah və sabitlik gətirə bilməz. O da etiraf olunmalıdır ki, hazırkı sosial-iqtisadi vəziyyətdən, özlərinin ictimai statuslarından, hətta birbaşa iqtidardan narazı olanlar da var. Amma bu narazılıq mövcud siyasi kursdan imtina etmək məzmununa malik deyil. Xalqın narazı təbəqələrini qıcıqlandıran daha çox başqa şeylərdir. Həmin başqa şeylər, məsələn, məmur özbaşınalığı, qeyri-təvazökarlıq və s. isə ciddi nəzarət altındadır və bu barədə zaman-zaman ölçü götürülür".

❑ **Cavid TURAN**

# Yeni dəyişikliklər Azərbaycan üzərindən narkotrafikin qarşısını ala biləcəkmi?

## Arzu Nağıyev: "Tranzitlə daşınan yüklə bağlı şübhə varsa, DSX əməkdaşları bu yükə baxa biləcəklər"

**2014-cü il iyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi (DİN) keçirdiyi antiheroin əməliyyatı zamanı Əfqanıstanda hazırlanan 2 ton 790 kiloqram yüksək keyfiyyətli maye heroin partiyası ələ keçirdi. Məlum oldu ki, yük Gürcüstan ərazisinə Azərbaycandan daxil olub, ölkəmizə isə tranzit yük kimi İrandan daxil olub.**

Həmin vaxt məsələ araşdırılarkən üzə çıxan nüanslardan biri də bu oldu ki, Azərbaycan sərhədçilərinin ölkəmizin üzərindən tranzitlə keçən yüklərə baxış keçirmək səlahiyyətləri yoxdur. Artıq Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclasında "Azərbaycan Respublikasının dövlət sərhədi haqda" və "Sərhəd qoşunları haqda" qanunlara dəyişiklik müzakirə edilib "Dövlət sərhədi haqda" qanunun 12-ci maddəsinin 2-ci və 3-cü hissələri



yeni redaksiyada verilir.

Dəyişikliklərə görə, nəqliyyat vasitəsi və ya mal sahibləri, yaxud nəqliyyat vasitələri barəsində səlahiyyətli olan digər şəxslər və ya onların nümayəndələri Gömrük Məcəlləsində nəzərdə tutulmuş hallarda gömrük orqanlarının və ya əməliyyat-axtarış, kəşfiyyat, əks-kəşfiyyat fəaliyyətinin iştirakı ilə nəqliyyat vasitələrini və yüklərini açmağa borcludurlar. Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində milli maraqlara təhdidlər haqda əməliyyat məlumatları olduqda, gömrük orqanlarının iştirakını təmin etmək mümkün olmadığı hallarda milli təhlükəsizliyi və ya dövlət sərhədinin toxunulmazlığını təmin etmək məqsədi ilə onlar sərhəd qoşunlarının tələbi ilə nəqliyyat vasitələrini və yüklərini açmağa borcludurlar.

Şəxslərin Azərbaycanın dövlət sərhədindən qanunsuz keçməsinin, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, mülki dövriyyəsi qadağan olmuş və ya məhdudlaşdırılmış digər əşyaların dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə sərhəd qoşunları ölkəmizin dövlət sərhədinin buraxılış məntəqələrində ölkəyə gələn və ölkədən gedən nəqliyyat vasitələrinə, yüklərə və başqa əşyalara müəyyən edilmiş qaydada baxış keçirirlər.

Təklif olunan dəyişikliklərlə bağlı **təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlama verib. Ekspert deyib ki, Dövlət Sərhəd Xidmətinin səlahiyyətlərinin artırılması təqdirəlayiqdir və Azərbaycan dövlətinin maraqlarına xidmət edir: "Ölkə ərazisindən tranzitlə keçən yüklər sərhədçilərdə şübhə yaradırsa, bu halda gömrük işçiləri dəvət edilir, onların iştirakı ilə plomb açılır, yükə baxış keçirilir, şübhəli tərkibli mal-material aşkar olunurdusa, bu halda məsələ ilə bağlı müvafiq araşdırmalar başlanırdı. Təklif olunan dəyişiklik qəbul olunarsa, DSX əməkdaşları da ölkəmiz ərazisindən tranzitlə keçən şübhəli yüklərə baxış keçirmək səlahiyyətləri qazanacaqlar. Bu da öz növbəsində ölkəmiz üzərindən qanunsuz mal-materialların tranzitlə daşınmasının qarşısının alınmasında müsbət hal kimi qiymətləndirilməlidir".

**A.Nağıyevə görə, ölkəmiz tranzit yük daşımaları üzrə mərkəzi zonalardan birinə çevrilməkdədir:** "Belə bir halda ərazimiz üzərində qanunsuz, dövriyyəsi qadağan yüklərin daşınmasının sayı da müvafiq olaraq arta bilər. Bu baxımdan DSX-nın səlahiyyətlərinin artırılması da məqsədəmüvafiqdir. Tranzit zonadan narkotrafik üçün istifadə oluna bilər. DSX-nın Gömrük Komitəsi ilə bərabər tranzitlə daşınan yüklərə nəzarət etməsi bu sahədə təhlükəsizliyin təmini üçün də əlverişlidir. Əgər gömrük bəyannamə təqdim etmirsə, tranzitlə daşınan yüklə bağlı şübhə varsa, DSX xidməti əməkdaşları bu yükə baxa biləcəklər. Əsas məsələ bundan ibarətdir".

**A.Nağıyev bildirir ki, Avropa ilə Asiya arasında tranzit yüklərin Azərbaycan üzərində daşınması digər yollardan istifadəni aradan qaldıracaq. Müvafiq olaraq ölkəmizin üzərindən tranzitlə daşınan yüklərin həcmi də artacaq:** "Əsas tranzit yük axını yaxın gələcəkdə Azərbaycan üzərindən olacaq. Bu halda ölkəmiz üzərindən daşınması qadağan olunmuş yüklərin də tranzitlə keçirilməsinə cəhd ehtimalı da artır. Məsələn nüvə başlıqları, nüvə tullantılarının, narkotiklərin də tranzitlə daşınması üçün addımlar atılacaq. İranda AES tikilməsi planlaşdırılır. Stansiyada istifadə edilmək üçün lazım olan radioaktiv maddələri quru yolla daşımalıdırlar. Rusiya və İran ərazisində də həmin stansiyanın tikintisi ilə əlaqədar razılaşmalar var. Bu halda həmin yükləri haradan aparacaqlar. Belə yüklər ancaq quru yolla daşınır".

Qeyd edək ki, **Milli Məclis sədrinin 1-ci müavini, komitənin sədri Ziyafət Əsgərov** bildirib ki, "Sərhəd qoşunları haqda" Qanunda düzəlişlərə əsasən, sərhəd qoşunlarının vəzifə və hüquqları daha da genişləndirilib. Onlar dövlət sərhədinin buraxılış məntəqələrindən kənarda qeyri-qanuni hərəkətlərin qarşısını alınmasını təmin etməli və bunun üçün müvafiq tədbirlər görməlidirlər. Hər iki qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❑ **E.HÜSEYNOV**

# Jirinovski Türkiyədə nə üçün həbs edilib - şok səbəb

## Azərbaycanı quberniyalara bölməyi təklif edən cığal və çılğın rus siyasətçi haqda



**"Yeni Rusiyanın siması kimdi" sualı havada səslənincə bəziləri mütləq gözləri qarşısına Vladimir Volfoviç Jirinovskinin tərs sifətini gətirirlər. Yeni məhsulunu bazara çıxarmaq istəyirsən? Rusiya ilə məxfi əlaqələrə girmək fikrindəsən? Reklama ehtiyacın var? Hə... işin qəlizdi. Gərək mütləq Jirinovskinin bığı, yaxud qılıncı altından keçəsən.**

**Misal üçün, tanınmış rus oliqarxı, nikel maqnatı Mixail Proxorov bir gün, tam yeni elektrik avtomobili istehsal etmək xəyalına düşür.** Reklama ehtiyac yarandığını görüb, əvvəlcə Putini qatır bu işə. Ümumdünya zarafat günündə - 1 aprel 2011-ci il tarixində Vladimir Putin həmin elektromobili sürüb gətirir növbəti hökumət iclasına. Ancaq nooolsun? Avtomobilin bu reklam çarxı, ümidləri doğrultmur. Avtomobil yatıb qalır Kremlin it-bat bir küncündə. Proxorov axır, ən sınanılmış son variantını işə salır bu zaman. Telekameraların gözü qarşısında Vladimir Jirinovskiyə həmin elektromobilin birini hədiyyə verdiyi vaxt, həəəə, qaval çönür necə deyərlər. Avtomobilin qara bəxti açılır. Banklar, çar-naçar qalıb, layihəni maliyyələşdirməyə razılıq verirlər.

Ancaq sonra Jirinovski dinc dayanmır. Anadan əmdiyi südü Proxorovun burnundan gətirir. Jurnalistləri yığır başına. Elektromobilin nasaz akusunu telekameralara göstərib dişinin dibindən gələni deyir Rusiya avtomobil sənayesi ünvanında. Həmin andaca Jirinovskinin əl telefonu başlayır durmadan zəng çalıb titrəməyə. Proxorovun zənginə cavab olaraq Jirinovski deyir ki, 2004-cü ildən veqeterian mətbəxini seçib. Ət, kabab-filan yemir. Ancaq, zərf içində ünvanına göndərilən bank kartlarının dəlicəsinə vurğunudur...

Qısası, Jirinovskiylə iş görənlər, əlbir olanlar həmişə... bəli, həmişə peşmançılıq, təəssüf hissləri keçirirlər lap axırda.

Azərbaycan nümunəsində bu, son zamanlar özünü bir daha isbatladı. Darıxmayın buna görə. Azərbaycan mətbəxinin əvəzsiz dadı, Jirinovskinin hələ də damağındadır. Azərbaycana gəldiyi vaxtlar o, adətən həmişə öz veqeterianlığını unudur. Gözlərini yumub başlayır xeyrimizə danışmağa.

***

**25 aprel 1946-cı ildə, uzaq Alma-Atada dünyaya göz açan Vladimir Volfoviç öz bioloji atasını - təmiz yəhudi əsilli Volf Eydelşteyni heç vaxt görməyib.**

Bu Volf Eydelşteynin atası İshaq, mənşəcə Polşanın Rovno şəhərindəndi. Fabrikantdı. Mebel istehsal edib məhsulunu yaxşı qiymətə müştərilərinə satırmış. 1939-cu ildə Qızıl Ordu hissələri Rovnanı işğal edib qatırlar Ukraynanın tərkibinə. İstismarçı burjuyları, o cümlədən Jirinovskinin atası Volf Eydelşteyni, yığıb basırlar qatarlara. Sürüyüb gətirirlər uzaq Alma-Ataya.

Vallah, elə bax, bu da Volf Eydelşteyni onu irəlidə gözləyən labüd ölümdən qurtarır. Digər qohumlarının sonrakı acı taleyindən xilas edir bəlkə də. Belə ki, Jirinovskinin Rovnadakı digər qohumlarını - babası İshaqı, nənəsi Rivkanı, habelə digərlərini 1941-ci ildə şəhəri işğal etmiş faşistlər divar önünə düzüb ucdantutma güllələyirlər. Əməliyyat, şəhərdəki yəhudi evlərinin sayına görə "Aksiya 470" adlanırmış.

Hə... talenin tərs sifətini, paradokslarını Jirinovski öz həyatı boyu ilk dəfə məncə bax bu nümunədə hiss edib. Həyata, siyasətə fərqli baxışlarını məhz bu çox acı, faciəli şəxsi təcrübəsi üzərində qurub məncə.

**Stalini, NKVD-ni indi bildiz niyə o həmişə xilaskar adlandırır?**

Jirinovski nümunəsinə bu "xilaskar" təyini, özünü tam doğruldur axı. Stalin, əslinə qalsa, Volf Eydeynşteyni uzaq Alma-Ataya sürgün etməyib. Əksinə, onu Əzrayılın iti caynaqlarından xilas edib. İndi, bildiz niyə Jirinovski paradoksal düşüncə tərzinə malikdi?

***

Həmin Volf Eydelşteyn Alma-Atada ikən "Turksib" dəmiryolunda işləyən Andrey Vasilyeviç Jirinovskiylə yaxınlaşır. Sonuncu vaxtilə NKVD işçisi olsa da, sonradan işdəki səhlənkarlığına görə, (o, məxfi sənədləri hardasa itiribmiş) orqanlardan kənarlaşdırılmışdı. Taleyin hökmü ilə hər iki bədbəxt arasında dostluq günləri başlayır. 1944-cü ilin 1 avqust tarixində Andrey Jirinovski rəhmətə gedir qəfil. Arvadı Aleksandra Pavlovnanı beş uşaqla taleyin ixtiyarına buraxır.

Nə isə... bir il sonra 32 yaşlı Aleksandra Pavlovna artıq altıncı uşağa - Vladimirə boylu idi. Uşağın doğulmasına beş-on gün qala-qalmaya, bəlli olur ki, Volf Eydelşteyn artıq vağzaldadır. Dövlətlərarası sazişə əsasən, vətəni Polşaya qaytarılır. Qatarın gethaget vaxtı, kimsə özünü qan-tər içində Volf Eydelşteynə çatdırıb deyir ki, bəs muştuluğumu ver, oğlun doğulub. Oğlun...

**Volf Eydelşteyn, eşidirmi bu xəbəri, yoxsa eşitməzliyə vurur özünü? Bunu indi kimsə söyləyə bilməz. Qatar gedir.**

Əvəzinə, "Jirik" ayamalı bir dəcəl oğlan peyda olur az sonra soyuq Alma-Ata həyətlərinin birində. Uşaqların acı atmacaları, söyüşləri bir vaxt heç əskik olmur bu yazıq, ancaq çox inadkar uşağın başından.

Elə indiyədək də davam edir.

***

Qatarla demək olar bütün SSRİ ərazisini keçib arxada buraxan Volf İshakoviç, daşıdığı Polşa pasportunu sonra İsrail sənədləri ilə əvəzləyir. Eşidəndə, qohumlarının hamısı qonşu həyətdə güllələnib, Volf İshakoviçin əli gedir ürəyi üzərinə... Doğma Rovnaya qayıtmağa o, cürət etmir bir daha.

İsraildə çox adi, sadə həyat sürən Volf, 1983-cü ildə avtomobil təkərləri altında həlak olur. Lolo adlı bir qadınla ailə qursa da, övladı yoxmuş.

Oğlu Vladimir Jirinovskini görmək isə bu ataya nəsib olmur.

**İndi bildiniz, hansı qara qanlar axır Jirinovskinin daxilində? Hansı əzablar, dözülməz ağrılar onu bütün həyatı boyu müşayiət edir?**

***

Aleksandra Pavlovna beləliklə əvvəlcə ərini itirir. Sonra sevgilisini. Sonra bu itkilərin siyahısı lap böyüyür. Altı başlı ailə son ümidini - həyətdəki sağmal inəyi itirib südsüz qaldığı vaxt, Anna Pavlovnanın əsəbləri tarıma çəkilir lap. Döşündə də süd olmur ki, onu balaca Vladimirə əmizdirsin. Qərara gəlirlər bələkdəki südəmər bəbəni əvvəl körpələr evinə versinlər, sonra gecə-gündüz yetimlər evinə.

11 illik orta təhsilin əla qiymətlərlə başa vuran gənc Vladimiri, sən demə, ən çox cavan coğrafiya müəllimısi sevirmiş. Dünya siyasi xəritəsi önündə əli xətkeşli dayanmaq, görünür, Jirinovskidə hələ o uzaq vaxtlardan qalmış köhnə adətdi. Sonralar o, bu adətinə dəfələrlə qayıdacaq - xəritədə gah İraqı, gah Liviyanı aşkarlayacaq özü üçün. Qəddafidən, Səddamdan yaxşı pul qoparacaq sonra.

Bir gün o, bu xəritədə Azərbaycanı da kəşf edəcək özü üçün. Deyəcək ki, dünyada ən dadlı mətbəx, ən dadlı pomidorlar məhz bizim günəşli məmləkətimizdədi.

***

Alma-Atada türk dillərinə bələd olmaq, Jirinovskinin Moskvada bəxtini açır. Yazığı, cəld hərəkət edib, Şərq Dilləri İnstitutuna imtahansız qəbul edirlər. Axır kursda "komsorq" seçilməyi, karyera pilləkanında irəliləmək baxımından Vladimirə bəri başdan çox şanslar vəd edir o vaxt. Valdimiri, bir türkoloq kimi, 1969-cu ilin aprelində səkkiz aylığa Türkiyəyə ezam edirlər!

Ancaq atası Volf İshakoviçin şansız taleyi bu vaxt elə bil Vladimirin həyatında bir daha canlanıb təkrarlanır. Alır yazıq Vladimiri öz iti caynaqlarına. İskəndərun alüminim fabrikində sovet mütəxəssislərinə tərcüməçilik edən Valadimir Volfoviç tezliklə türk Milli İstihbarat Təşkilatının diqqətini özünə cəlb edir. Türk fəhlələrinə sovet döş nişanları payladığına görəmi, yaxud bir başqa qələtinə görə, Jirinovskini tutub 17 günlüyünə qazamata atırlar.

Bu 17 gün məşhur kəşfiyyatçı İsayevin (Ştirlisin) taleyini təkrarlamaq şansı idi bəlkə də Jirinovski üçün.

Lakin o, Ştirlis ola bilmədi. Həbsxanada yaşadığı 17 an onu, kəşfiyyatçı deyil, olsa olsa deşifrə edilmiş, vurulmuş bir oyun kartına çevirdi. Onun Türkiyəyə olan nifrəti də elə burdan qaynaqlanır.

Həbsə düşmək isə yanmaq, de-şifrə olmaq deməkdi o vaxtkı sovet təcrübəsində. Jirinovskinin dosyesinə yağlı "Daxili istifadə üçün!" möhürü, məncə, məhz o zaman vurulur. Nəticədə, o, xarici ezamiyyətlərdən məhrum edilir. Atılır "daxili cəbhə"yə. Əvvəlcə göndərilir Zaqavqazya Hərbi Dairəsinin ixtiyarına. Orduda qazandığı "siyasi təşviqatçı" qrafası, şəxsi dosyesini bəzəyib abıra salır bir az.

Qafqaz günləri həm də ilk dəfə pul qazandırır Vladimir Volfoviçə. "Qafqaz" deyincə, ağzının sulanmağı, yadda saxlayın, həyatının məhz həmin günlərindən bir yadigardı. Bu pula o, Moskva ucqarlarında kooperativ üçotaqlı mənzil alıb ora sevimli anası Aleksandra Pavlovnanı köçürdür. Qərara gəlir hüquq sahəsində ikinci ali savada yiyələnsin.

Sonra...

Sonra ölkədə yenidənqurma kabusu başlayır. 1989-cu ildən üzü bəri özünü yenidənqurma tufanına atan Jirinovski, tezliklə Rusiya Federasiyasında ilk uzunömürlü siyasi partiyalardan birini, Liberal-Demokrat Partiyasını təsis edərək indiyədək onun əvəzsiz sədri kimi tanınmaqdadır.

***

**Bayaq yazdım - Jirinovski hələ məktəbdə ikən həm coğrafiya dərsini çox sevib, həm də öz coğrafiya müəllimısini. Bu, ilk məhəbbətlə ilk istedadın bir nöqtəyə vurduğu nadir həyat epizodudur. Əli xətkeşli, dünya xəritəsi önündə dayanaraq hamıya yeni coğrafiya dərsi keçmək azarı, Jirinovskidə məhz o vaxtlardan qalmadı. Bu vaxt, bir başqa gözəl xanımı görməsə o, qətiyyən düzəlib sakitləşən deyil. Saçlarını zərif qadın əlləri tumarlamasa, o, ağzına gələni elə hey danışacaq bu zaman. Yəni, Jirinovskinin psixoloji portretini çəkərkən biz bunu qətiyyən unutmamalıyıq.**

O ki qaldı Jirinovskinin bütün köhnə sovet ucqarlarını, o cümlədən Azərbaycanı ləğv edib, əvəzində general-qubernatorluqlar yaratmağına, inanın, bu, onun təzə deyil, əksinə, köhnə, həm də çox uğursuz mövzusudur. Belə ki, vaxtilə hələ öz partiyasının nizamnaməsində o, Rusiyanı yeddi quberniyaya bölməyi təklif edibmiş. Ancaq təklif, elə ilk günündən Rusiya siyasi elitasını, ilk növbədə Vladimir Putini əsəbləşdirib. "Bu, Rusiyanı parçalamağa yönəli layihədir" ifadəsi, məncə o zaman boşuna səslənməyib.

Bizdə də, Azərbaycanın mövcud ərazi-inzibati bölgüsünü ləğv edib onu yeddi "xanlıqla", yeddi xanla, yeddi oliqarxla əvəz etmək istəyənlər var. Vaxtaşırı bəziləri bu təklifi mətbuatda səsləndirib xalqın dözümünü imtahana çəkmək istəyir. Jirinovskinin məlum təklifi, Moskvadan deyil, məncə o tərəfdən əsən yeldi.

Jirinovskilər, Eydelşteynlər öz fikirləri ilə vaxtilə həm kommunistləri əsəbiləşdirib cin atına mindiriblər həm də faşistləri. Qırmızı komissarlar Andrey Vasilyeviç Jirinovskini NKVD-dən qovub sürgünə göndəriblər. Faşistlər, Eydelşteynlərin bütün nəslini divar önünə düzüb ucdantutma güllələyiblər.

Biz nə faşistik, nə də kommunist. Yəni biz nə kommunist olub onu sürgünə göndərənik, nə də faşist olub onu güllələmişik. Bizə Jirinovskini bir başqa cür cəzalandırmaq lazımdı. Jirinovskiyə qarşı "Qovmaq, güllələmək!" cəzalarının növbəti təkrarı məncə müsbət nəticə verməyəcək.

Bakıya gələndə o, veqeterian mətbəxini unudaraq cumur milli süfrəmizə. Onu bir-iki ay süfrəmizdən məhrum edin.

**Müsbət nəticələr özünü çox gözlətməyəcək. Vladimir Volfoviç mərkəzi rus kanallarında bülbül kimi ötüb yenə xeyrimizə danışacaq.**

❑ **Həmid HERİSÇİ**



# Sarı maşın

Zamin HACI
zaminhaci@gmail.com

“Nə tökərsən aşına,
O çıxar qaşığına"
**(Azərbaycan ata sözü)**

**ABŞ prezidenti Trampın qızının dükanla problemləri haqda yazmışdım. Yəqin xəbəriniz var, İvanka adlı bu qızın mallarını dükanlar satmırlar. Hətta prezident özü də bundan şikayətləndi. Trampın miqrantlar haqda qərarını məhkəmə ləğv eləmişdi, ümid edirdi bəlkə apellyasiyada qərar təzədən qüvvəyə minər. Ancaq Tramp saydığını saysın, ABŞ məhkəməsi isə müstəqildir. Orda Ali Məhkəmə sədrinin düyməsini basıb istədiyin nömrəni keçirdə bilməzsən. Budur, Apellyasiya Məhkəməsi də prezidentin əleyhinə qərar çıxartdı.**

Dövləti dövlət edən, gücə çevirən belə şeylərdir. Qanuna hörmət qoyulan ərazidə insanlar yaxşı yaşayırlar. Yoxsa “masonlar belə elədi”, “yəhudilər filan işi gördü”, “imperializm çürüyən kapitalizmdir” kimi çeynənmiş, düşük söhbətlər lazım deyil. Hətta idiotun da rəhbər seçilmək imkanlarını tanıyacaq qədər demokratik olacaqsan. Eyni zamanda, qanunlar və dəyişilməz qaydalarla istənilən idiotu cilovlamaq imkanların olacaq. İcra hakimiyyətinin, qanunverici və tənzimləyici orqanların funksiyalarını ayıracaqsan, bir-birinin işinə kobud müdaxiləsinə yol verməyəcəksən. Söz azadlığını heç bir halda pozmayacaqsan. Karbürator akkumulyator ola bilməz. Motor ayrıdır, əyləc ayrı. Təkərə “qabaq şüşəni sil, yolu görmürəm” deyə bilməzsən. Nəticədə bunlar hamısı ayrı-ayrılıqda öz işini görüb maşını hərəkətə gətirib səni istədiyin yerə aparacaq. Dövlət mexanizmləri də eynilə bu cürdür.

London yaxınlığında bir qədim kənd var. Orda evlər faktiki orta əsrlərdəki görkəmində qalıb, bu səbəbdən turistlərin sevimli məkanlarından biridir. İngiltərəyə gedib o küçədə şəkil çəkdirən yüz minlərlə adam varmış. Ancaq bütün bu turistlərin başının bəlasına çevrilən bir ekzotik problem də var. Təqaüdə çıxmış bir diş həkimi orda ev alıb, bunun da maşını sarı rəngdədir. İş-güc yox, adam pensiyada, təbii ki, maşın sutka boyu evin qabağında durur, turistlərin şəklini korlayır. Hamı o maşından şikayətlənirmiş, deyirlər qədim küçədə şəkil çəkdiririk, içinə bu əcaib sarı maşın girir. Həqiqətən, sarı da var sarı da var - bu maşının sarısı yalan olmasın, kənd yumurtasının sarısı kimi bir sarıdır. Az qalırsan o qədim binaların fonunda bunu görəndə “Sarı gəlin” mahnısı oxuyub ağlayasan.

Uzun sözün qısası, nəhayət, keçən həftə kimlərsə bezib, kişinin maşınına əl bulayıblar: üstünü cızıq-cızıq ediblər. Məsələn, arxa tərəfinə “Məni yu” yazıblar. Zarafat edirəm, yazıblar ki, nəhayət, bu maşını burdan rədd elə. Yazıq kişi BBC-yə açıqlama vermişdi, deyir dəyən ziyanın məbləği 8 min funt sterlinqə bərabərdir, düzəltdirməkdənsə təzəsini alsam ucuz olar. Ancaq tərs adamdır, deyir təzəsini daha sarı rəngdə alacağam, geri çəkilmək yoxdur.

**Bu əhvalat mənim yadıma Bakının qədim məhəllələrinin başına gələnləri xatırlatdı. Yapistlər hər biri tarixin yadigarı olan binaları manıs turnirləri, maşın yarışları, “müasir daş parkları” üçün sökdülər, dağıtdılar. Londonda bir maşını tarixin qabağından götürməyin davası gedir, bizdə isə tarixi maşının altına salıb çığnadılar. Fərq budur. Buna görə biz ingilis kimi yaşamırıq - rahatlığımız, həyatımız, təhsilimiz, səhiyyəmiz və sairəmiz ordan geri qalır. Buna görə Britaniya parlamentində həmişə maraqlı diskussiyalar gedir, bizim deputatxanada isə “Həccə 28 dəfə getməklə Ginnesin rekordlar kitabına düşmüşəm” deyən karikaturalar oturur.**

# Avropadakı baş simsarından “kiçik bacı”ya reverans

**Fransa prezidenti Fransua Olland martın 8-də Parisdə erməni həmkarı Serj Sərkisyanla görüşəcək. Musavat. com Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, bu barədə Olland Fransadakı erməni təşkilatlarının koordinasiyası üzrə Şuranın toplantısında çıxışı zamanı bildirib. Fransa lideri qeyd edib ki, bu il Fransa-Ermənistan əlaqələrinin qurulmasının 25-ci il dönümüdür və o, bu münasibətlə erməni həmkarını Fransaya səfərə dəvət edib.**



## Parisdən Bakıya qarşı erməni gedişi - Olland Sərkisyanı yanına çağırdı və...

“Dağlıq Qarabağ xalqı öz taleyini özü həll etməlidir” deyən Fransa liderindən Azərbaycana qarşı növbəti qərəz; prezidentlərin fiasko olan Paris görüşündən sonra Olland indi də ermənilərin könlünü almaq istəyir...

Səfər çərçivəsində tərəflərin ikitərəfli əlaqələri müzakirə edəcəyi bildirilir. Fransa prezidentinin sözlərinə görə, görüş zamanı Qarabağ məsələsinə də toxunulacaq. Bu xüsusda o deyib: “Fransa bu məsələdə ABŞ və Rusiya kimi Minsk Qrupunun həmsədrlərindən biri olaraq, xüsusi məsuliyyət daşıyır. Biz tələsirik. Bu problemin həlli üçün tələsmək həqiqətən də var. Çünki ötən ilin dəhşətli aprel insidenti bizə xatırlatdı ki, Qarabağda hər gün və ya demək olar, hər gün insanlar ölür. Biz qarşıdurmanı önləmək üçün hərəkətə keçməliyik. Bu münaqişənin sülh yolu ilə həlli üçün yolların tapılması önəmlidir”.

**Fransa lideri daha sonra sülh danışıqlarının perspektivinə toxunaraq deyib:** “Döyüşlər bitdi, dialoq başlandı, atəşkəs haqda anlaşma əldə olundu. Ancaq biz atəşkəsin əldə edilməsi ilə qane ola bilmərik. Ona görə ki, bu, problemin həlli deyil. Biz konfliktin nizamlanmasına yönəlik real danışıqlara başlamalıyıq. Böyük bir səhv olardı düşünmək ki, situasiya sabitləşib. Biz münaqişənin "Madrid prinsipləri"də əksini tapmış nizamlama elementlərinə müraciət etməliyik. Biz həmçinin bilirik ki, həmin prinsiplər tətbiq olunarkən “Dağlıq Qarabağ xalqı”nın *(dırnaqlar bizimdir - red.)* öz müqəddəratını təyinetmə hüququna əsaslanmalıdır. Bu istiqamətdə addımlar atılması üçün də Fransa Azərbaycan və Ermənistan prezidentlərinin yeni görüşünü təşkil edəcək".

***

Fransa Ollandın yuxarıdakı fikirləri, xüsusən də onun “Dağlıq Qarabağ xalqı”, “öz müqəddəratını təyin etmə hüququ” ifadələrini işlətməsi, üstəlik, bunu Parisdə, ermənilərin tədbirində səsləndirməsi diqqət çəkməyə bilməz. Belə təxribatçı fikirlər eyni zamanda Azərbaycan prezidenti İlham Əliyevin ötən ay söylədiyi “Azərbaycan torpaqlarında heç vaxt ikinci uydurma erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik, bunu gözləyənlər boşuna gözləyir” bəyanatından az sonraya təsadüf eləməsi ilə ikiqat diqqət kəsb edir.

Yəni Ollandın yanaşması faktiki surətdə Azərbaycanın dövlət başçısının, Azərbaycanın özünün prinsipial mövqeyi ilə ziddiyyətdədir. Odur ki, bunu ilk növbədə Fransa prezidentinin gethagetdə “kiçik bacı” Ermənistana reveransı, ermənilərin könlünü almaq cəhdi, Bakıya münasibətdə isə neytral vasitəçilik missiyası ilə bir araya sığmayan provokasiya kimi qiymətləndirmək lazım gəlir.

Əvvəla, ona görə ki, “Madrid prinsipləri” deyilən sənəd Azərbaycan və Ermənistan parlamentlərində təsdiq edilməyib ki, onun hüquqi qüvvəsi olsun. Azərbaycan tərəfi ona 10-a yaxın əlavə edib, çünki ilkin variantda o, ölkənin Konstitusiyası ilə ziddiyyət təşkil edir.

İkincisi, “Madrid prinsipləri”ndə ərazi bütövlüyü məsələsi də var - hansını ki, cənab Olland nədənsə görməzlikdən gələrək, “öz müqəddəratını təyinetmə hüququ”nu qabardır. Bununla da bir daha rəsmi Parisin Dağlıq Qarabağ məsələsində qərəzsiz vasitəçi olmadığını nümayiş etdirmiş olur.

Üçüncü yandan, erməni xalqı öz müqəddəratını artıq “Ermənistan” şəklində müəyyən edibsə, Olland hansı haqla Azərbaycandakı bir ovuc erməniyə öz müqəddəratını təyin etmə hüququ istəyir?

***

Zatən, saxta erməni soyqırımını ilk tanıyan və onun inkarına görə cəza tətbiq etməyə çalışan *(təşəbbüs müəllifi Fransua Oland idi!)* Fransadan ədalətli mövqe gözləməyə də dəymir. Əfsus ki, vaxtilə bu dövləti Minsk Qrupu həmsədrliyinə gətirilməklə, onun problemin həllinə töhfə verəcəyi barədə ümidlər doğrulmadı. Keşkə, rəsmi Bakı üçüncü həmsədr dövlət kimi Türkiyə və ya Almaniyada təkid edərdi.

Yada salaq ki, Ollandın prezidentlik dönəmində artıq bir dəfə (2014, 27 oktyabr) Parisdə prezidentlərin görüşü keçirilib. Ancaq həmin görüşdən cəmi bir həftə sonra erməni silahlı qüvvələri Azərbaycanın işğal altındakı ərazilərində genişmiqyaslı hərbi təlimlərə başlamaqla sülh anlaşmasına olan kövrək ümidləri də basdırdılar (Erməni hərbi vertolyotu məhz həmin təlimlər zamanı Ağdam üzərində Azərbaycan qüvvələri tərəfindən vurulmuşdu).

**Bundan aylar sonra cənab Olland təzədən prezidentlərin görüşünü təşkil etməyə cəhd göstərdi. Ancaq təşəbbüs boşa çıxdı. Əslində elə yaxşı ki, boşa çıxdı. Saxta soyqırımın iddiasının 100-cü ildönümündə Ermənistana getmiş cəmi üç prezidentdən biri olan Fransua Olland münaqişənin ədalətli həllinə hansı töhfəni verə bilər(di) ki - üstəlik, onun prezidentlik müddətinin bitməsinə sayılı aylar qalıbsa...**

❑ **Analitik xidmət**



## “Türkiyə heç bir halda Krımın qanunsuz ilhaqını tanımayacaq”

**“Türkiyə heç bir halda Krımın qanunsuz ilhaqını tanımayacaq”. APA-nın “112.ua” saytına istinadən verdiyi məlumata görə, bu sözləri Ukraynada səfərdə olan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu həmkarı Pavel Klimkinlə keçirdiyi birgə mətbuat konfransında deyib. O bildirib ki, Türkiyə tam olaraq Ukraynanın ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini və siyasi vahidliyini tanıyır: “Son 25 ildə olduğu kimi, bizim məqsədimiz birgə layihələr və strateji tərəfdaşlıq yolu ilə ölkələrimizi bir-birinə yaxınlaşdırmaqdır. Bu baxımdan hər iki ölkənin stabilliyi və təhlükəsizliyi son dərəcə önəmlidir”.**

Türkiyəli nazir bildirib ki, 2016-cı ildə Türkiyəyə gedən ukraynalı turistlərin sayında 50 faiz artım qeydə alınıb və Türkiyə 1 milyon 50 min ukraynalı turist qəbul edib.

P.Klimkin isə iki ölkə vətəndaşlarının daxili sənədlərlə qarşılıqlı səfərlərinə dair razılıq əldə olunduğunu açıqlayıb: “Bizdə vizasız rejim var. Lakin gələcəkdə Ukrayna və Türkiyə vətəndaşları bizim ölkələrimizi daxili pasportlarla ziyarət edə biləcək”.

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

**Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da şəhid Çingiz Qurbanovun ailəsi ilə görüşündə düşmən Ermənistana, eləcə də, ermənipərəst siyasət yürüdən ölkələrə növbəti sərt mesajlarını verdi. Ç.Qurbanovun şəhid olmasına səbəb olan dekabrın 29-dakı hadisənin ermənilərin təxribatı olduğunu deyən dövlət başçısı Rusiyanın xarici işlər naziri Sergey Lavrovun ötən ay Dağlıq Qarabağ probleminin Azərbaycanın daxili işi olmaması ilə bağlı dediklərinə toxunub.**

# "Putin ötən 17 ildə verdiyi vədi yerinə yetirmədi"

## Elxan Şahinoğlu: "Kremlin yürütdüyü siyasət rəsmi Bakıya Rusiya siyasətini korrektə etməkdən başqa alternativ qoymayıb"



Belə ki, aprel savaşlarından danışan ölkə başçısı bu 4 günlük müharibənin və təmas xəttindəki gərginliyin Azərbaycanın daxili işi olduğunu deyib və əslinə qalsa, Dağlıq Qarabağın ölkəmizin daxili işi olduğuna işarə vurub. Ekspertlər İ.Əliyevin bununla ciddi mesajlar verdiyini qeyd edirlər.

**Politoloq Elxan Şahinoğlu** Azərbaycanın artıq Rusiya ilə bağlı siyasətində dəyişikliklər etdiyini söylədi: "Son aylara qədər Azərbaycan rəsmiləri rusiyalı tərəfdarlarının ünvanına heç bir tənqidi fikir səsləndirmirdilər. İndi isə elə bir mərhələyə gəlib çıxmışıq ki, Rusiya rəsmilərinin açıqlamalarına sussaq, açıq-aşkar Moskva qarşısında çəkindiyimiz ortaya çıxacaq. Mənə elə gəlir ki, Azərbaycan hakimiyyəti Rusiya ilə münasibətlərdə mərhum dövlət başçısı Heydər Əliyevin siyasi xəttinə qayıdır. Heydər Əliyev heç zaman Rusiyanın Ermənistana dəstəyi ilə barışmadı, rusiyalı rəsmilərlə müxtəlif görüşlərdə sərt şəkildə Moskvanın Ermənistanı silahlandırmasına narazılığını "bu silahlar kimə qarşıdır", "niyə Ermənistana bu qədər silah verirsiniz" sualları şəklində ünvanlayırdı. Heydər Əliyev hakimiyyətinin son illərində Rusiyanın yeni seçilən prezidenti Vladimir Putinlə ona görə yaxınlığa qərar verdi ki, Kreml sahibi Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışacağını vəd etmişdi. Ancaq bu 17 ildə Moskva verdiyi vədi yerinə yetirmədi. Heydər Əliyevdən sonra Bakının Moskva ilə əlaqələri daha da intensivləşdi, qarşılıqlı səfərlərin sayı artdı, Rusiya hakimiyyətinin ünvanına müxtəlif reveranslar edildi. Ancaq bunların heç birinin nəticəsi olmadı. 2016-cı ildə apreldəki 4 günlük döyüşlər də Rusiyanı Ermənistan hakimiyyətinə təsir edib Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaltmasına həvəsləndirmədi. Tam əksinə, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun son mətbuat konfransında söylədiyi iki fikir Azərbaycanın son gözləntilərinin üstündən xətt çəkdi. Nə dedisə, Ermənistanın maraqlarına uyğun idi. Birincisi, Lavrov dedi ki, Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaldılması bölgənin statusunu müəyyənləşdirəcək mexanizmlə paralel aparılmalıdır. Başqa sözlə Lavrov münaqişənin həllinin "mərhələli həllindən" "paket həllinə" keçid etdi. İkincisi, Lavrov bildirdi ki, "Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil". Lavrova sualıyla bu cavabı söyləməyə məcbur edən azərbaycanlı jurnalist bir gün sonra işdən çıxarıldı. Jurnalistin işdən çıxarılmasına Bakıda Rusiyadan çəkinən, ehtiyatlanan qrup qərar verdi. Ancaq hadisələrin inkişafı göstərdi ki, Lavrov son mətbuat konfransında məlum açıqlamaları söyləməsə də, onun mövqeyi Ermənistana dəstək üzərində qurulub. Digər tərəfdən Rusiyada xarici siyasət konsepsiyasını prezident müəyyənləşdirir. Ona görə də Lavrov həmin konsepsiyanın icraçısıdır. Moskva Aleksandr Lapşinin Belarusdan Azərbaycana ekstradisiya məsələsində həm Minskə, həm də Bakıya təzyiq etdi. Bununla Rusiya hakimiyyətinin siyasətində ikili standartlar üzə çıxdı".

**Politoloq Lapşinin qeyri-qanuni hərəkətlərinə Kremlin haqq qazandırdığına da işarə vurdu:** "Dağlıq Qarabağ separatçılarının uzun müddətdir girov saxladığı iki azərbaycanlıdan biri Rusiya vətəndaşıdır. Rusiya həmin vətəndaşının azad olunması üçün heç bir fəaliyyət göstərməyib. Ancaq Azərbaycan qanunlarını kobud surətdə pozan digər vətəndaşı Lapşinin qeyri-qanuni hərəkətlərinə haqq qazandırır. Rusiya hakimiyyətinin Azərbaycan əleyhinə yönələn bu siyasətinə susmaq artıq mümkün deyildi. Ona görə də, Azərbaycan rəsmiləri artıq rusiyalı rəsmilərin açıqlamalarına cavab verməyə başlayıblar. Həm prezident İlham Əliyev, həm də xarici işlər naziri Elmar Məmmədyarov Rusiya hakimiyyətinə sərt mesajlar göndərdilər. Birincisi, Azərbaycan prezidenti dedi ki, "aprel döyüşləri və təmas xəttində yaşanan gərginlik, toqquşma bizim daxili işimizdir". Bu İlham Əliyevin Sergey Lavrovun "Dağlıq Qarabağ Azərbaycanın daxili məsələsi deyil" açıqlamasına cavab idi. Digər tərəfdən əgər indiyə qədər rəsmi Bakı apreldəki döyüşlərin Ermənistanın təxribatına cavab olduğunu deyirdisə, indi isə prezidentin sözlərindən anlaşılır ki, cəbhə xəttində işğalçıya daima zərbə endirmək Azərbaycanın müstəsna hüququdur".

**E.Şahinoğlu ölkə başçısının verdiyi mesajları bu cür sadaladı:** "Azərbaycan işğalın davamına yol açan atəşkəsə riayət etmək fikrində deyil. Prezidentin sözlərindən anlaşılır ki, Azərbaycan torpaqlarını azad etmək məqsədilə müharibəni öz torpaqlarında edir; Ermənistana hücum etmir ki, Rusiya bu prosesə qarışsın. İkincisi, Azərbaycan xarici işlər naziri dedi ki, Sergey Lavrovun təklifi və onun iştirakı ilə erməni həmkarıyla üçtərəli görüşdə iştirak edə bilər, ancaq bu görüş üçün iş qrafikini razılaşdırmalıdır. Bu o deməkdir ki, Lavrov istəyir deyə azərbaycanlı nazir erməni həmkarı ilə görüşməyə məcbur deyil. Üçüncüsü, Elmar Məmmədyarov ilk dəfə rəsmi Bakının Rusiyanın Ermənistanda hərbi baza saxlamasından narahat olduğunu bildirdi. İndiyə qədər rəsmi Bakı bu məsələyə toxunmazdı. Ancaq Elmar Məmmədyarovun "biz Rusiyanın Ermənistanda hərbi bazasını nəzərə alırıq, ona görə də təhdid və çağırışlara gözüaçıq olmalıyıq" fikrini dilə gətirməsi rəsmi Bakının Rusiyanın Ermənistanda hərbi bazasının varlığından narahatlığını ortaya qoydu. Rusiyada olduğu kimi Azərbaycanda da xarici siyasət prioritetlərini prezident müəyyənləşdirir. Ona görə də Elmar Məmmədyarovun Rusiyanın regional siyasəti ilə bağlı son açıqlamalarını prezidentin müəyyənləşdirdiyi xarici siyasət konsepsiyasının tərkib hissəsi kimi qiymətləndirmək lazımdır. Kremlin yürütdüyü siyasət rəsmi Bakıya Rusiya siyasətini korrektə etməkdən başqa alternativ qoymayıb. Rusiya tərəfdaş, hətta müttəfiq dövlətlərə vassal kimi yanaşır. Kreml 2008-ci ildə Gürcüstanı parçaladı, Abxaziya və Cənubi Osetiyanın "müstəqilliklərini" tanıdı, 8 il sonra Ukraynanı parçaladı, Krımı işğal etdi, Donbasda separatizmin dayağına çevrildi, üstəgəl zaman-zaman sözdə müttəfiq adlandırdığı Belarus və Qazaxıstana hədələyici mesajları göndərir. Belə vəziyyətdə rəsmi Bakı da seçimini etməli idi. Bu arada, İlham Əliyevin Brüsselə səfəri daha böyük əhəmiyyət kəsb edir. Azərbaycan Avropa ilə inteqrasiyanı gücləndirməli, il ərzində Avropa İttifaqı ilə strateji sazişin imzalanmasına nail olmalı, üstəgəl ordunun NATO standartlarına keçidi sürətləndirilməlidir. Türkiyə ilə hərbi əməkdaşlığı genişləndirməyə çalışmalıyıq. Doğrudur, Ankara Moskva ilə tərəfdaşlıq edir və Suriyada hərbi əməkdaşlıqları da mövcuddur. Ancaq Ankara nə qədər Moskvaya yaxın olmağa çalışsa da, Rusiya-Ermənistan cütlüyünün Azərbaycana təzyiqlərinə seyrçi qalmayacaq. Ermənistanda içi Levon Ter-Petrosyan qarışıq bir siyasətçinin və ya ekspertin (Sülh Platformasına qoşulan ermənilər istisnadır) cəsarəti çatıb demir ki, Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayana qədər oradakı postlarımız da vurulacaq və hərbçilərimiz öləcək. İşğalçıların addım-addım zərərsizləşdirilməsi prezident İlham Əliyevin "erməni silahlılarının Ağdamda, Füzulidə nə işi var" açıqlamasına uyğun həyata keçirilir".

❑ **Cavanşir ABBASLI**



# Əli silahlı İŞİD-çinin hədələri müxalifəti qorxudub

## Partiya sədrləri hakimiyyətə çağırış etdi

**Sosial şəbəkədə İŞİD sıralarına qoşulduğu güman edilən bir azərbaycanlı gəncin videoları yayılır. Silahlı olan həmin gənc Azərbaycanı qan gölünə çevirməklə hədələyir. Azərbaycanın müxalifət düşərgəsi silahlanmış radikalların artıq bu şəkildə açıq hədələrə keçməsindən narahat olublar.**

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, əgər bu gün İŞİD və ona bənzər terror təşkilatları bütün dünya dövlətlərini təhdid altında saxlayırsa, əlbəttə ki, biz də sivil dünyanın bir hissəsi olaraq baş verənlərdən narahat olmalıyıq: "Biz dəfələrlə məlum bir həqiqəti hakimiyyət nümayəndələrinin diqqətinə çatdırırıq ki, ölkə qanunvericiliyinə müvafiq fəaliyyət göstərən siyasi təşkilatların sıxışdırılaraq sıradan çıxarılması və ölkənin siyasi mühitinə təsir etmək imkanlarının məhdudlaşdırılması qarşılığında radikal cərəyanların, xüsusilə də radikallığa meylli dini qruplaşmaların önə çıxması və mövcud boşluğu doldurmaq cəhdləri qaçılmaz olur. Əgər bu gün İŞİD və ona bənzər terror təşkilatları bütün dünya dövlətlərini təhdid altında saxlayırsa, əlbəttə ki, biz də sivil dünyanın bir hissəsi olaraq baş verənlərdən narahat olmalıyıq. Onu da nəzərə almaq lazımdır ki, nə qədər acınacaqlı olsa da həmin təşkilatlara Azərbaycandan da gedib qoşulan bəlli təriqət üzvləri var və onlar da öz sıralarını genişləndirmək üçün mütəmadi olaraq fəaliyyət göstərirlər. Azərbaycanı da göründüyü kimi, məhz onlar hədələyirlər. Obyektivlik naminə deməliyəm ki, Azərbaycanın hüquq-mühafizə orqanlarının bu cür radikallara qarşı fəaliyyətini qənaətbəxş hesab etmək olar, lakin təhlükə mövcud olduğu sürəcdə arzu etmədiyimiz hadisələrin qarşısının alınması üçün ciddi qabaqlayıcı tədbirlər də görülməlidir. Eyni zamanda iqtidar mənsubları demokratik siyasi təşkilatların sıradan çıxarılması siyasətindən də əl çəkməlidirlər. Çünki ölkədə demokratik mühitin mövcudluğu bu cür təhdidlərin qarşısının alınmasında ən effektli silahdır".

**VİP sədri Əli Əliyev** bildirdi ki, belə təhdidlər təhlükədən xəbər verir və narahatlıq yaradır: "Dünyada transmilli terror təşkilatlarının mövcudluğu bir faktdır. Nəhəng dövlətlərə belə onların meydan oxuması da son 20 ildə gözümüzün qarşısında baş verir. Dünyada müsəlman dövlətlərinin resurslarına sahiblənmək üçün belə layihələr bir sıra qeyri-müsəlman mərkəzlərdən idarə olunur, ideoloji, hərbi, maliyyə dəstəyi verilir. İŞİD, "Əl Şabab", PKK, FETÖ və s. təşkilatlar bu qəbildəndir. Azərbaycan vətəndaşlarından da həmin qrupların bəzilərinə qoşulanlar və artıq ölkəmizi hədələməkdən çəkinməyənlər var. Azərbaycanın dini poliqona çevrilməsinin qarşısını almaq bütün rəsmi və qeyri-rəsmi təşkilatların ümdə vəzifəsidir. Belə təşəbbüslər amansızlıqla yatırılmalıdır".

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, radikal qrupların nümayəndələri Azərbaycanı qan gölünə çevirməklə hədələmək qədər irəliləyiblərsə, bundan narahat olmamaq mümkün deyil: "Biz neçə illərdən bəri hər dəfə görüşlərimizdə həm beynəlxalq təşkilatların nümayəndələrinə, açıqlamalarımızda, müraciətlərimizdə hakimiyyətə, xalqa deyirdik ki, demokratik sivil müxalifətin sıxışdırılıb siyasi müstəvidən çıxarılması cəmiyyətdə yeni, radikal və dövlət üçün təhlükəli radikal müxalif qüvvələrin meydana çıxmasına səbəb olacaq. Dinc demokratik mübarizə aparan müxalifət demək olar ki, bir küncə sıxışdırılıb. Amma hakimiyyətin dini pərdə altında ortaya çıxan radikal qrupları sivil müxalifəti sıxışdırdığı kimi imkanı yoxdur. Çünki radikallar gizli fəaliyyət göstərirlər, ölkə xaricinə gedib hazırlıq görürlər, silah əldə edirlər və mübarizələrini terrorla, qan tökməklə aparırlar. Bu şəkildə fəaliyyət göstərən qüvvələrlə mübarizə aparmaq, onları da demokratik müxalifət kimi asanlıqla sıxışdırıb sıradan çıxarmaq çətin məsələdir. Narahatlığımız da bundandır. Radikal müxalifət təhlükəsi çox realdır. Bu saat dünyanın çox yerində radikal dini müxalifət inkişaf edir. Özü də o ölkələrdə inkişaf edir ki, orada demokratik sivil müxalifətin meydanı əlindən alınır və meydan boş qalır. Təhlükədən xilas olmağın yeganə yolu ölkəmizdə demokratik müxalifətin inkişafına zəmin yaratmaqdır. Demokratik müxalifət inkişaf edib xalqın önünə çıxa bilərsə, belə vəziyyətdə heç kəs radikal dini qruplara üz tutmaz, insanlar radikal qruplarının yeminə çevrilməz. Azərbaycan hökuməti onun fəaliyyətindən narazı qalanları məhz radikal qapıdan keçmək məcburiyyətində qoyduqca radikal qrupların sıraları böyüyəcək. Sıraları böyüdükcə də təhlükə də artacaq. Biz müxalifət olaraq yaranmış vəziyyətdən, o cür hədələrdən narahatıq".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017



# Serj Sərkisyanın qandallanması üçün hüquqi prosedurlara start verildi

## Milli Məclisdə “Soyqırım və etnik təmizləmə cinayətlərinin dünya səviyyəsində tanınmasının hüquqi aspektlərinin öyrənilməsi” layihəsinin geniş müzakirəsi keçirildi

**Fevralın 10-da Milli Məclisdə “Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması” haqqında qanun layihəsinin təqdimatı oldu.**

Parlamentin İnsan hüquqları komitəsinin təşkilatçılığı ilə keçirilən təqdimat mərasimində çıxış edən komitə sədri, Milli Məclisin sədr müavini Bahar Muradova giriş nitqi ilə çıxış etdi. O bildirdi ki, qanun layihəsi Milli Məclisin, “Qüdrətli Azərbaycan Naminə” İctimai Birliyinin və Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə təşkilatçılığı ilə hazırlanıb. Vitse-spiker layihənin Xocalı soyqırımının ildönümü ərəfəsində ərsəyə gəlməsinə də diqqət çəkdi: “Bir neçə gündən sonra Xocalı soyqırımının 25-ci ildönümü tamam olacaq. Ancaq çox təəssüf ki, bu illər ərzində aparılan işlər bizim istədiyimiz nəticəni verməyib. Ermənistan ordusu Azərbaycan ərazilərini işğal altında saxlayır və insanlar öz yurdlarında yaşamaq imkanından məhrum edilib”. **B.Muradova xatırlatdı ki, artiq 10 ölkə Xocalı hadisələrini soyqırım kimi tanıyıb, ABŞ-ın ştatları müvafiq qərarlar qəbul edib, həmçinin bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırmına qiymət verib:** “Ancaq bu qərarlar nə Ermənistanı işğala son qoymağa, nə də onun havadarlarını bundan nəticə çıxartmağa vadar etməyib. Biz beynəlxalq aləmi məsələ ilə bağlı düzgün bilgiləndirmək, Azərbaycana qarşı törədilən cinayətlərin hüquqi qiymət alması və cinayətkarların cəzalandırılması barədə məlumatlandırmaq yönündə müəyyən işlər görmüşük. Ancaq bu gün ərazilərimiz işğal altındadır, insanlar öz evlərində, yurdlarında yaşamaq kimi fundamental hüquqlarından məhrum olublar. Dünya vaxtilə bu cinayətlərin mahiyyətindən xəbərsiz olub. Bu hadisələrə ilkin münasibət ümummilli lider hakimiyyətə qayıdandan sonra verilib, BMT-yə müraciət edilib, çoxsaylı cinayət işləri qaldırılıb. Cinayətkarlar bəlli olsa da, qonşu ölkələrin rəhbərliyində təmsil olunaraq cəzadan yayınırlar”. Vitse-spiker ölkə prezidenti İlham Əliyevin Xocalı soyqırımının 25 illiyi ilə bağlı sərəncam verdiyini xatırladaraq əlavə edib ki, sərəncamdan irəli gələn məsələlərlə bağlı parlamentin də görməli olduğu işlər var. “Milli Məclisdə də ümumi fikir bundan ibarət oldu ki, beynəlxalq cinayətlərin qarşısının alınması və onun cəzalandırılması ilə bağlı qanunun qəbuluna ehtiyac var. Ona görə də "Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması" haqqında qanun layihəsinin hazırlanması ideyası yarandı. Bu, Qüdrətli Azərbaycan Təşkilatının təşəbbüsü, QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və Milli Məclisin dəstəyi ilə başlanan layihənin son tədbiridir". B.Muradova deyib ki, Milli Məclis QHT-lərə Dövlət Dəstəyi Şurası və Mətbuat Şurası ilə Xocalı soyqırımı tədbirlərini keçirməklə bağlı memorandum imzalayıb.

Bundan sonra sədr müavini bu təşəbbüsə verdiyi dəstəyə görə, Prezident Administrasiyasının (PA) ictimai-siyasi şöbəsinin müdiri, prezidentin köməkçisi Əli Həsənova təşəkkür etdi. Eyni zamanda sədr müavini tədbirdə iştirak edən PA ictimai-siyasi şöbənin müdir müavini Ərəstun Mehdiyevə, Azərbaycanın hərbi prokuroru Xanlar Vəliyevə, Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri Çingiz Əsgərova, QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevə, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə, həmçinin qanun layihəsinin müəllifi “Qüdrətli Azərbaycan Naminə” İctimai Birliyinin icraçı direktoru Elman Aslanova təşəkkürünü bildirib. Bundan əlavə tədbirə qatılan aidiyyəti komitələrin nümayəndələrini, Milli Məclisin ekspertlərini, insan hüquqları ilə məşğul olan QHT-lərin rəhbərlərini də salamladı, onlara minnətdarlıq etdi.

**Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri, Azərbaycanın Avropa İnsan Haqları Məhkəməsindəki daimi nümayəndəsi Çingiz Əsgərov bildirdi ki, ermənilərin Dağlıq Qarabağda və ətraf ərazilərdə törətdiyi cinayətlər hələ də davam edir:** “Orada Ermənistan tərəfindən dəvət edilən şirkətlər iş aparırlar. Azərbaycana məxsus tarixi abidələrdə dəyişiklik edilir”. O bildirdi ki, ermənilər Dağlıq Qarabağdan iqtisadi sahədə də istifadə edirlər, orada istehsal olunan malları öz malları kimi təqdim edirlər: “Bu, cinayətdir. Ona görə də bu cinayətlərin qarşısı alınmalıdır”. Ç.Əsgərov Azərbaycanın işğal olunmuş ərazilərinə qeyri-qanuni səfər etmiş Rusiya və İsrail vətəndaşı, blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiyasına da münasibət bildirdi: “Bəzən deyirlər ki, onun Azərbaycana gətirilməsi o qədər də əhəmiyyətli deyil. Bu, yanlış yanaşmadır. Bizim həyata keçirdiyimiz iş qanun çərçivəsindədir. Bundan sonra Azərbaycan torpaqlarına qanunsuz səfər edənlər məsuliyyəti dərk edəcəklər. Bu istiqamətdə tədbirlərimiz davam edəcək”. PA rəsmisi vurğuladı ki, 2016-cı ilin aprel döyüşləri ilə bağlı Azərbaycandan Avropa İnsan Haqları Məhkəməsinə 700 ərizə göndərilib: “Artın həmin işlər icraata götürülüb”.

“Ermənistanın təcavüzünün aradan qaldırılması uğrunda gedən mübarizə illərində baş verən ən dəhşətli hadisə Xocalı soyqırımıdır. Bu hadisə Ermənistanın siyasi rejiminin törətdiyi ən ağır cinayətlərdən biridir”. Bunu isə Prezident Administrasiyasının (PA) İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev söylədi. Ə.Mehdiyev xatırlatdı ki, hələ 1994-cü ilin fevralında Milli Məclisdə Xocalı soyqırımı mərhum prezident Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müzakirəyə çıxarılıb və ona hüquqi qiymət verilib. Administrasiya rəsmisi prezident İlham Əliyevin cari ildə imzaladığı sərəncama istinad edərək bildirib ki, hələ də Xocalı soyqırımına beynəlxalq səviyyədə qiymət verilməyib. Ə.Mehdiyev dedi ki, Xocalı soyqırımı erməni canilərinin 100 ildən artıq müddətdə Azərbaycana qarşı həyata keçirdiyi ən qanlı hadisələrdən biridir: “Azərbaycanda bu soyqırım aktı ilə bağlı istintaq aparılıb, 2005-ci ildən sonra bu iş Hərbi Prokurorluğa həvalə olunub və cinayət işi bu gün də davam edir. Araşdırmaların gedişində cinayətkarlar müəyyən olunub və İnterpol vasitəsilə axtarışa verilib. Bu cinayəti törədənlər Ermənistan rəhbərliyində təmsil olunmuş şəxslər, o cümlədən, keçmiş prezident R.Köçəryan, bugünkü prezident S.Sarksiyan və onların ətrafı, o cümlədən, separatçı rejimin rəhbərliyi, həmçinin hərbi canilər iştirak edib. Serj Sarkisyan özü də bu cinayətin törədilməsində yaxından iştirak etdiyini etiraf edib, bunu stereotipin qırılması kimi qiymətləndirərək özünə bəraət qazandırmağa çalışıb”. **Ə.Mehdiyev xatırlatdı ki, bir sıra dövlətlər Xocalı soyqırımını tanıyıb:** “Bu informasiya mübarizəsi sahəsində aparılan işin nəticəsidir. Xeyli uğurlar qazanmışıq, amma təcrübə göstərir ki, bu, mübarizədə qalib çıxmaq üçün, torpaqların işğaldan azad edilməsi üçün kifayət etmir”.

**Milli Məclis Aparatının İnzibatı və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov** “Soyqırım və etnik təmizləmə cinayətlərinin dünya səviyyəsində tanınmasının hüquqi aspektlərinin öyrənilməsi” layihəsini təqdim etdi.

**Azərbaycan hərbi prokuroru Xanlar Vəliyev** bildirdi ki, 1988-ci ildən bəri Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz davam edir: “Təkcə Xocalıda deyil, Azərbaycanın digər ərazilərində də qırğınlar törədilib. Yeni hazırlanan "Beynəlxalq cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında" qanun layihəsi Hərbi Prokurorluqda öyrənilib. Layihəyə təkliflimiz var. Bunlar həm redaktə xarakterli, həm də digər məsələlərlə bağlıdır”. Hərbi prokuror qanun layihəsindəki bəzi detallarla bağlı konkret fikirlərini bölüşdü, redaktə tipli dəyişikliklərin olmasının vacibliyini qeyd etdi. X.Vəliyev qeyd etdi ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərlə bağlı aparılan işlərdən də bəhs etdi: “Azərbaycanlılara qarşı törədilmiş hərbi cinayətlərə dair 297 nəfər haqqında axtarış elan edib, İnterpola göndərmişik. Amma indiyədək 297 nəfərdən heç kim saxlanılaraq, Azərbaycana təhvil verilməyib, onlardan birini də əldə etməmişik”. **Hərbi prokuror Xocalı qatillərinin cəzalandırılmasının mümkün olmamasının səbəbləri haqda danışarkən dünyadakı ikili standartların mövcudluğunu xatırlatdı:** “Bunu hamınız bilirsiniz, dünyada ikili standartlar var. Müsəlmana bir münasibət var, xristiana başqa... Beynəlxalq İnterpol Təşkilatı da eyni mövqedə durub, başqaları da”. **X.Vəliyev “Beynəlxalq cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında” qanun layihəsinin hazırlanmasına təqdirlə yanaşmaqla yanaşı, layihəyə əlavə və dəyişikliklərini təklif edib:** “Bu qanun layihəsi qəbul olunsa, əlavə bir rıçaq əldə etmiş olacağıq. Nəticədə Azərbaycan vətəndaşlarına qarşı soyqırım törədən və insanlıq əleyhinə cinayət törətmiş şəxslərin mühakiməsi mümkün olacaq”.

“Qüdrətli ölkə, məsələn, ABŞ, yaxud Rusiya bəlkə qanunsuz yollardan da istifadə edib, xaricdəki şəxsləri həbs edib gətirə bilər. Amma Azərbaycan kimi ölkələr üçün bu, çox çətin məsələdir”. **Bu fikirlər isə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə məxsusdur.** “Beynəlxalq cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında” qanun layihəsi barədə mövqeyini bölüşən Aparat rəhbəri bildirdi ki, bu qanunun çox böyük siyasi və mənəvi əhəmiyyəti var: “Amma unutmayaq ki, bu cür qanunvericilik cəmi 7 ölkədə rəsmiləşdirilib. Ona görə də çox çətin prosesdir, çünki ölkənin qanunvericiliyi yalnız ölkə daxilinə aiddir. Əgər biz bu qanunun dünya tərəfindən qəbul olunmasını istəyiriksə, onda gərək onun hamı üçün anlaqlı olmasına çalışaq. Yəni nümayiş etdirək ki, biz təkcə özümüz üçün qəbul etməmişik. Eyni zamanda cəmiyyətə izah etməliyik ki, bu qanunun qəbul olunması ilə bütün işlər həll olunmayacaq”.

Daha sonra **QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, digər deputatlar Vüsal Hüseynov, Tahir Kərimli, Rövşən Rzayev, “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev** çıxış etdilər. Əksər natiqlər layihənin plenar iclasda müzakirəsini istədilər.

**BAMF sədri Umud Mirzəyev** layihəni fövqəladə əhəmiyyətə malik sənəd adlandırdı və müəlliflərə təşəkkür etdi.

Təşkilat sədri etnik təmizləməni təbliğ edən şəxslərin də cəzalandırılması barədə müddəanın layihəyə əlavə edilməsini istədi. Bundan əlavə, işğal altındakı ərazilərdə həyata keçirilən cinayətlərdən, həmçinin narkotik istehsalından bəhs edərək bu barədə də qanuna əlavələri zəruri saydı.

**Vətəndaşların Əmək Hüquqları Liqasının sədri Sahib Məmmədov** isə dedi ki, bu layihədə Azərbaycan ərazisində törədilə biləcək növbəti cinayətlərlə bağlı xəbərdarlıqlar da əksini tapmalıdır.

**Deputat, Mətbuat Şurasının sədri Əflatun Amaşov** bildirdi ki, bu tədbir vətəndaş cəmiyyətindən gələn təkliflərə Milli Məclisin saygı ilə yanaşmasının nəticəsidir. Ə.Amaşov Yaxın Şərqdə baş verənlərə diqqət çəkərək əlavə etdi ki, əgər biz bu sənədi qəbul etsək, digər ölkələr də öz hüquqlarını müdafiə etmək üçün bu sənədə də istinad edəcəklər. “Xocalı soyqırımını törədənlər bu gün vəzifədədirlər, amma bir müddət sonra vəzifədə olmayacaqlar. Vaxt gələcək Xocalı soyqırımını törədənlər Lapşin kimi qoluqandallı Azərbaycana gətirilib mühakimə olunacaqlar” - Ə.Amaşov bildirdi.

**Deputat Zahid Oruc** dedi ki, bütün bu proseslər Azərbaycan ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılan prosesdir: “Bütün bu aktlar bizim siyasi və hərbi mövqeyimizi möhkəmləndirir”. Z.Oruc Gürcüstanın işğal altındakı əraziləri ilə bağlı qanunu qəbul etdiyini xatırladıb dedi ki, biz də illər öncə çox asanlıqla analoji qanunu qəbul edə bilərdik.

Deputat bir sadə yunanın “mən öz evimə dönmək istəyirəm” məzmunlu müraciətini Avropa Məhkəməsinə göndərdiyini və 1998-ci ildə müraciətinin təmin olunduğunu misal çəkdi. Ardınca yüz minlərlə köçkünlərin də eyni məzmunlu müraciət etmələri ilə bağlı proses başlatmağı təklif etdi.

**Deputat Asim Mollazadə** dedi ki, hərbi cinayətkarların siyahısı hərtərəfli araşdırılmalıdır: “Ermənilər bu cinayətləri tək törətməyiblər, onların sahibləri də iştirak ediblər. 366-cı alayın heyətini də unutmamalıyıq. Bəli, Lapşinin məsələsi ürəyimizdən tikan çıxartdı. Amma o zaman ürəyimizdən tikan o zaman tam çıxar ki, Xocalıdakı uşaqları gətlə yetirən qatillər Bakıya əlibağlı gətiriləcək”.

**Deputat Cavanşir Feyziyev** qanun layihəsinin mükəmməl hazırlandığını bildirdi. Qeyd etdi ki, Xocalı qatillərinin cəzalandırılması üçün hüquqi imkan yaradacaq.

Milli QHT Forumunun prezidenti Rauf Zeyni isə qanunun müzakirəsini rəhbərlik etdiyi təşkilatda keçirməyi təklif etdi.

**Sonda B.Muradova iştirakçılara təşəkkür etdi və müxtəlif səviyyələrdə qanun layihəsinin müzakirəsinin davamının faydalı olacağını bildirdi.**

❑ **Elşad PAŞASOY**



# Qarabağ danışıqlarında Azərbaycan üçün uğurlu gəlişmə

## Nazirlərin üçtərəfli görüşünə Bakı psixoloji üstünlük və daha əlverişli mövqe ilə gedir; yəhudi bloggerlə bağlı presedent düşməni niyə təşvişə salıb? **Erməni ekspert:** "Bundan sonra Dağlıq Qarabağa səfər edənlər azalacaq, "DQR"-in və Ermənistanın izolyasiyası güclənəcək..."

**Qalmaqallı yəhudi blogger Aleksandr Lapşinin Bakıya ekstradisiyası göylə gedən erməni rəsmilərinin "qazı"nı xeyli alıb. Artıq qonşu ölkədə Ermənistanın Belarusdakı səfiri Armen Xaçatryanla yanaşı, xarici işlər naziri Edvard Nalbəndyanln da istefası tələbləri səslənir, diplomatik uğursuzluğa görə bütövlükdə Sərkisyan rejimi ittiham edilir.**

**Bu xüsusda Belarusdakı erməni səfirinin bir cümləsi diqqət çəkir.** Səfir özünə bəraət kimi deyib ki, "mən özümü Lapşin məsələsini qaldıran Rusiyanın xarici işlər nazirindən və İsrail baş nazirindən güclü hesab eləmirəm". Gerçəkdən də bu işdə Rusiya XİN başçısı Sergey Lavrovun sözü yerə düşübsə, Ermənistanın hansısa səfiri və ya xarici işlər naziri Nalbəndyan kimdir ki? Məntiqlə Ermənistanın ağası məsələdə gücsüzdürsə, vassal Ermənistanın əlindən boş hay-küy qaldırmaqdan savayı heç nə gəlməz.

**Erməni hüquq müdafiəçisi Artur Sakunts isə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Tiqran Balayanın guya Lapşinin Bakıya verilməsinin işğal altındakı Dağlıq Qarabağa qanunsuz ziyarətlərə təsir etməyəcəyi, əksinə, bu səfərlərin sayını artıracağı barədə iddiaları ilə razılaşmır.** Musavat.com-un məlumatına görə, aravot saytına açıqlamasında o deyib: "Biz məhz o vəziyyətdəyik ki, yaxşı olardı beləleri susaydılar, səs çıxarmayaydılar. Çünki belə vəziyyətlərə adekvat şeylər deməyənlər gülməli duruma düşürlər. Dağlıq Qarabağa ziyarətlər daha betər azalacaq, çünki ortada fakt var ki, ora səfər edənlərə qarşı Azərbaycan hakimiyyəti cinayət işi qaldırır və onlar Azərbaycana təhvil verilə bilər. Yəni, mövcud vəziyyətdə Lapşina qarşı cinayət işinin qaldırılması və onun Bakıya ekstradisiyası Ermənistanın və "DQR"in izolyasiyasına hesablanıb. Bu elementar həqiqəti anlamamaq ya qeyri-anlaqlığın, ya da cahilliyin nəticəsidir".

***

**Beləcə, Azərbaycanın diplomatik gücünün nümayiş etdirən Lapşin presedenti erməni siyasi isteblişmentində və ekspert dairələrində əməlli-başlı didişmə, çəkişmə və qarşılıqlı ittihamlar yaradıb.** Belə vəziyyətdə sülh danışıqlarının başlanması istər-istəməz Azərbaycana psixoloji üstünlük yaradırdı. Söz düşmüşkən, az öncə Moskva Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin "üçlü" görüşünü təklif edib. Rəsmi Bakı bu təşəbbüsə müsbət baxır.

"**Biz Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin görüşündə iştirak etməyə hazırıq**". Bu sözləri "RİA Novosti"yə müsahibəsində Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov deyib. Lakin Azərbaycanın baş diplomatı görüşün konkret vaxtı ilə bağlı hələ ki təklif olmadığını söyləyib.

**"Bu barədə ideya mən Moskvada olarkən səsləndi. Sergey Lavov belə bir təklif irəli sürdü və mən hazır olduğumu bildirdim. Lakin bu görüş iş qrafikinin razılaşdırmasını tələb edir"**. Nazir qeyd edib ki, mövcud status-kvo ola bilsin ki, Ermənistandan başqa heç kəsi qane etmir: "Biz neçə dəfə mənim iştirakımla nazirlərin görüşündə məsələnin yerindən tərpədilməsinə yaxın olmuşuq. Danışıqlar masasını tədricən problemlərdən təmizləmək lazımdır. Ən əsas problem isə Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan ərazisində mövcudluğudur. Hərbçilər kazarmalara qayıtmalıdır. Bu isə özlüyündə böyük imkanlar açacaq. Bu, planın bir hissəsidir".




***

**Lakin aydındır ki, rəsmi İrəvan indi də ölkədə parlament seçkilərinin keçirilməsini bəhanə edib danışıqlar prosesini ən azından, aprelədək uzatmağa çalışacaq.** Bəhanə də bu olacaq ki, seçkilər, siyasi rəqabət Qarabağ məsələsində hakim qüvvəyə daha ehtiyatlı davranmağı diktə edir. Lakin o da faktdır ki, işğalçı ölkədə dəfələrlə parlament və prezident seçkilərinin keçirilsə də, nə ondan əvvəl, nə də ondan sonra İrəvan ona heç bir təzyiqin olmamasından istifadə edərək, konstruktiv mövqedən yayınıb. Status-kvonu, işğal rejimini uzatmağa çalışıb. Bunun da nəticəsi ötən ilin aprelindəki 4 günlük müharibə oldu.

**Belə görünür, Ermənistan rəhbərliyi aprel döyüşlərində aldığı zərbədən dərs götürməyib.** Deməк, işğalçı tərəfin indiki yanaşması davam edərsə, sülh danışıqlarında real dönüş olmazsa, gələn dəfə daha sarsıdıcı zərbə almağa hazır olmalıdır. Çünki Azərbaycan heç nəyə baxmadan öz ərazilərinin işğalı ilə barışmaq niyyətində deyil.

**Proses artıq başlayıb və onun gedişində Ermənistanın həmişəki kimi, Rusiyaya güvənməsi etibarlı olmaya bilər.** Lapşin məsələsi buna sübutdur. Siyasi təhlilçilər də bu yöndə Azərbaycanın potensialının artdığını düşünürlər.

"**Azərbaycan öz maraqları çərçivəsində addımlar atır və bu, heç kəsi narahat etməməlidir**". Bu sözləri politoloq, keçmiş diplomat Fikrət Sadıqov deyib (Axar.az). Ekspert Lapşin məsələsinin Azərbaycan-Rusiya münasibətlərinə təsirindən danışıb: "Lapşin faktiki olaraq Azərbaycanın və beynəlxalq hüququn normalarını pozub. Azərbaycana yaxın və tərəfdaş bir dövlət kimi Belarusun Lapşini təhvil verməsi tamamilə hüquq normaları çərçivəsindədir. Düşünmürəm ki, bir bloggerə görə Rusiya-Azərbaycan münasibətləri pozulsun. Azərbaycan öz maraqları çərçivəsində addımlar atır və bu, heç kəsi narahat etməməlidir. Əksinə, Lapşin kimilərinin bu cür cinayətkar əməlləri və dövlətlər arası münasibətlərə xələl gətirən hərəkətləri daha çox narahatlıq doğurmalıdır. Aydındır ki, Moskvadan Jirinovski sayağı bəyanatlar səslənəcək. Ancaq bu məsələnin Bakı-Moskva münasibətlərinə ciddi təsiri olmayacaq. Açıq danışaq, onsuz da 20 ildən artıqdır ki, Dağlıq Qarabağ məsələsində heç bir irəliləyiş yoxdur. Azərbaycan artıq özü hərəkətə keçib və torpaqlarını azad etməyə başlayıb. İstər Rusiya, istərsə də Ermənistanda bunu necə qəbul edirlər, bu, artıq onların öz işidir".

***

**Bakı təbii ki, Qarabağ məsələsində ən sərt üsula əl atarkən regional və beynəlxalq şərtləri nəzərə alacaq. Ancaq aprel döyüşləri göstərdi ki, bu amili həddən-ziyadə şişirdib, illərlə gözləmə mövqeyi tutmaq da effektli yol deyil.**




# Ermənilərin şəxsi heyətlə dolu hərbi nəqliyyat vasitəsi məhv edilib

**Fevralın 9-da axşam saatlarında cəbhənin Ağdərə-Tərtər istiqamətində düşmənə məxsus və içərisində şəxsi heyət olan hərbi nəqliyyat vasitəsi Azərbaycan ordusunun bölmələrinin sərrast atəşi ilə məhv edilib. Bu barədə musavat.com-a Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Qarşı tərəf itkilər barədə məlumatı yenə də gizlədir.



# Azərbaycandakı Rusiya banklarının sirli fəaliyyəti...

## Əkrəm Həsənov: "Zərərlə işləyən bu bankların ölkədə qalması siyasi səbəblərlə bağlıdır"

**Azərbaycanda fəaliyyət göstərən Rusiya banklarının zərərlə işlədiyi barədə məlumatlar var. Bununla belə, onlar ölkədə qalmaqda israrlıdır. Ekspertlər həmçinin bu banklarda korrupsiya faktlarının həm çoxluğuna, həm də məbləğin yüksəkliyinə diqqət çəkirlər. Bildirilir ki, bankların problemli kreditləri də yüksək həddədir.**

Vaxtilə **"Bank VTB"-də işləyən, bank sahəsi üzrə ekspert Əkrəm Həsənov** musavat.com-a bildirdi ki, ümumən Azərbaycanda iki Rusiya bankı var: "Bank VTB" və "Nikoil bank": "VTB Rusiyanın dövlət bankıdır. Rusiya dövlətinin orada payı 50 faizdən çoxdur. Amma başqa səhmdarları da var. Rusiyanın VTB-sinin 3 faizi Azərbaycanın Neft Fondunundur. Biz oraya 500 milyon manat qoymuşuq və səhmləri almışıq. Amma "Nikoil bank" özəl bankdır. Bank özü adətən deyir ki, Rusiyadakı Azərbaycan oliqarxının, Vahid Ələkbərovundur. Ümumən hər iki bank Azərbaycanda çox ağır itkilərlə işləyir. Ötən ilin maliyyə hesabatlarını "Nikoil bank" açıqlayıb. Açıqlamasına görə, 148,5 milyon manat həcmində zərərlə başa vurub. Bu da maliyyə hesabatlarını açıqlamış banklar arasında ən yüksək rəqəmdir və onun gösstəricisidir ki, vəziyyət pisdir. VTB-yə gəldikdə, yerli VTB-də 51 faiz pay Rusiya VTB-sinindir, 49 faiz "AtaHolding"indir. Bu bank da ili ağır itkilərlə bitirib, amma maliyyə hesabatlarını gizlədir. Ondan əvvəlki maliyyə hesabatlarından açıq-aşkar görünür ki, bu banklarda vəziyyət çox pisdir, itkilərlə qurtarıblar. Azərbaycandakı Rusiya bankları ən zərərlə işləyən banklardandır. Əsas səbəb korrupsiyadır. Ən pis yerli bankımızı götürsək belə, o bankın sahibi buradadır, özü vəsait oğurlasa da, başqalarının oğurlamasına imkan vermir, çünki bank onundur. Amma VTB-də vəziyyət fərqlidir. Bu bankda işləmişəm, uzun müddət ikinci vəzifəni tutan adam olmuşam, İdarə heyətinin sədr müavini vəzifəsində işləmişəm. Bankın rəhbərliyi Rusiyadadır, Rusiyada da konkret şəxs deyil, o da bir bankdır. Oradan kimlərisə buraya təyin edirlər, onların öz maraqları, daha çox da korrupsiya maraqları olur. VTB bu gün problemli kreditlər içində batır. Çünki kreditləri bank üçün sərf etməyən şərtlərlə veriblər, aşağı girovla veriblər. Bunlar hamısı onun göstəricisidir ki, bank işçiləri o krediti alanlardan qeyri-rəsmi pullar alıblar ki, belə asan şərtlərlə kredit veriblər. Mən VTB-nin daxili təlimatlarının, qaydalarınının hazırlanmasında şəxsən özüm iştirak etmişəm, çox sərtdir əslində. Amma buna baxmayaraq, kreditlərdə girovları onlar formal qiymətləndiriblər, aydındır ki, burada korrupsiya var. Bank özü də korrupsiya hallarını gizlətmir. Misal üçün, ötən il bank iddia edirdi ki, onun filiallarının təmirində 600 minə yaxın yeyinti olub".

**Ə.Həsənovun sözlərinə görə, 2010-cu ildə "Bank VTB"də aktiv fəaliyyətə başlayandan kreditlərlə bağlı konfliktlər yaşayıb:** "Onların öz maraqları olur. O zaman sədr müavini təyin edilmişdim, Rusiyadan göndərilmiş idarə heyətinin sədri ilə konfliktim çıxdı. Bu, ilk iri kreditin verilməsində oldu. Bir neft şirkətinə 1 milyon yarım kredit verirdilər, guya şirkət neft işi ilə məşğuldur. Mən sənədlərə baxıb dedim ki, boş şeydir, onların pulu yoxdur. O 1 milyon yarım getdi və həmin müştəri bir qəpik də ödəmədi, indiyə kimi də VTB o kreditini qaytara bilmir. Sonra mən hər dəfə bu cür kreditlərin verilməsinin əleyhinə səs verirdim, amma əksəriyyət lehinə səs verirdi. Sonra mən başa düşdüm ki, Rusiyanın özündə bunları himayə edən adamlar var və onlar bundan pul qazanırlar. Ən sonuncu konfliktim AzMeCo-ya görə olmuşdu. "Azmetanol" zavodun rəhbəri Nizami Piriyev hətta Beynəxalq Bankdan da xeyli kredit götürmüşdü, illər sonra onu həbs etdilər. Beynəlxalq Bankdan 500 milyondan çox kredit alıb. O zaman AzMeCo VTB-dən 20 milyon dollar kredit istəmişdi. O kreditin əleyhinə idim. Dedim ki, bunlar sadəcə pulu götürüb aradan çıxacaqlar. Amma məni buna görə hətta Rusiyaya çağırdılar, oradan buraya gəldilər. Dedilər ki, sən bu banka işləməyə imkan vermirsən. Mən dedim ki, sizin pulunuzu qoruyuram, deyirəm, problemli kredit olmasın. Ədalət naminə demək lazımdır ki, Rusiya VTB-sində kifayət qədər vicdanlı adamlar da var idi və onlar məni müdafiə edirdilər. Amma sıxma-boğmadan sonra kredit verildi. Bu, elə böyük kredit idi ki, buna razılıq verməsəydim, kredit çıxmayacaqdı. Ona görə mən şərt qoydum ki, iri bir bank buna təminat dursun. O zaman onlar gedib Beynəlxalq Bankdan təminat gətirdilər, bundan sonra razılıq verdim. Kreditin şərtlərini çox ağır yazdım, bir ildən sonra qaytarmalı oldular. Bundan sonra da VTB-dən getdim. İşdən çıxandan sonra isə eşidirdim ki, vəziyyət ildən-ilə pisləşir. Bu gün VTB-yə qarşı bəzi borcalanların işlərini aparıram. Deyirəm ki, krediti verəndə kor olublar, nə olublar, belə krediti vermək olmaz".

**Ekspertin fikrincə, bu bankın Azərbaycanda qalmasında siyasi maraqlar var:** "VTB-nin dünyanın müxtəlif ölkələrində bankları var, o cümlədən keçmiş MDB-də, Gürcüstanda, Ermənistanda, Qazaxıstanda, Ukraynada, Belorusiyada bankları var. Keçmiş MDB məkanında bütün VTB bankları zərərlə işləyir. Bir müddət sonra başa düşdüm ki, zərərlə işləyən Rusiya banklarının Azərbaycanda qalması siyasi səbəblərlə bağlıdır. Amma Avropa ölkələrində zərərlə işləmir. Yəni, sadəcə, vacibdir ki, bu banklar Azərbaycanda olsun, necə işləyir, işləsin".

**Ə.Həsənov bu bankın müxtəlif qüvvələrlə bağlılığına da diqqət çəkib:** "Rusiya VTB-sinin sədrinin birinci müavini Rusiya Federal Təhlükəsizlik Bürosu - FTB-yə bağlı bir adamdır. Yəni Rusiya xüsusi təhlükəsizlik orqanının qurumlarının birinin rəhbəridir. Həmin şəxs bir müddət bizim buradakı VTB-nin Müşahidə Şurasının rəhbəri idi. Mənim belə təsbitlərim var ki, bu bankın Rusiya təhlükəsizlik kəşfiyyat orqanları ilə sıx əlaqəsi var. Ona görə bu bank çox güman ki, o məqsədlər üçün istifadə olunur. VTB-də işləyəndə ən böyük əleyhidarım Rusiya VTB-sinin Təhlükəsizlik deparmamenti idi. Hansı ki, birbaşa FTB ilə bağlı idi, hamısı "KQB" işçiləri idi. Onlar ümumiyyətlə, məni bir nömrəli düşmən elan etmişdilər. Azərbaycanda elə adam qalmamışdı ki, onunla görüşüb mənim haqqımda məlumat almasınlar. Bu bankın Rusiyanın dövlət maraqlarını, siyasi maraqları həyata keçirən bir qurum olduğu haqda məndə fikir formalaşıb. Hətta yerli VTB-nin Təhlükəsizlik Departamentinin rəisi bizim MTN-nin keçmiş polkovnikidir. Onun əməllərində o qədər qanunsuzluq tuturdum ki, əslində işləməsi mümkün deyildi, amma yenə də işləyirdi. İcazəsiz və bankın qaydalarını pozaraq kameralar alırdı, onun bu hərəkətini tuturdum, deyirdim ki, burada böyük ehtimalla, korrupsiya halı var, belə şey eləmək olmaz. Və yaxud bir nəfərə kredit vermək istəyirdi, təyinatını yazdırmışdı ki, rüşvət verilmək üçün istəyir. Bunları Moskvaya göndərirdim, deyirdim o adam bu kimi işlərlə məşğuldur. Mənə deyirdilər ki, ona toxuna bilməzsən. O adam indiyə kimi oradadır".

❑ **Röya RƏFİYEVA**

# Hökumət tikinti şərtlərini xeyli sadələşdirdi

## Ekspert: "Əgər hər hansı şəhərdə tikinti dayanıbsa, deməli, o şəhər ölüb"

**Hökumət inşaat sektorunda çalışan iş adamları üçün şərtləri yüngülləşdirib. Bunu tikinti sahəsində çalışan sahibkarlardan biri "Yeni Müsavat"ın müxbiri ilə söhbətində deyib. O qeyd edib ki, yeni qaydalara əsasən artıq tikinti üçün sərəncamı Bakı Şəhər İcra Hakimiyyəti deyil, rayon icra hakimiyyətləri verir. Daha müsbət bir məqam isə odur ki, sərəncam müraciət edildiyi gündən sonra 3 gün ərzində təqdim olunur, yəni süründürməçiliyə yol verilmir.**

Sahibkarın sözlərinə görə, əvvəlki dövrlərdən fərqli olaraq artıq Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da tikinti sektorundakı iş adamlarına problem yaratmırlar. Hətta bu duruma nəzarət üçün Prezident Administrasiyasının kuratorları Bakı şəhərini gəzərək tikinti gedən ünvanlara baş çəkir, iş adamlarının problemləri ilə maraqlanır, məmurlardan onlara qarşı təzyiq olub-olmamasını soruşurlar. Sözügedən durum son zamanlar tikinti sektorunun canlanmasına və yeni inşaat sahələrinin artmasına da səbəb olub.

"Yeni Müsavat"a açıqlamasında bu durumu dəyərləndirən **mənzil-tikinti məsələləri üzrə ekspert Nüsrət İbrahimov** da bildirdi ki, hökumət iqtisadiyyatı canlandırmaq üçün tikinti sektorundan başlamaqla doğru addım atıb: "Tikinti sektoru iqtisadiyyatın lokomotividir. Əgər hər hansı şəhərdə tikinti gedirsə, deməli, orada iqtisadiyyat var, əgər tikinti dayanıbsa, deməli, o şəhər ölüb. Ona görə də, iqtisadiyyatı qaldırmaq üçün birinci növbədə tikinti sektorunu hərəkətə gətirməlisən. O baxımdan ilk növbədə diqqət bu sahəyə



yönəlir. Əgər əvvəllər dövlət məmurları tərəfindən tikintiyə maneə törədilirdisə, bu gün həmin maneələr tədricən aradan qaldırılır. Bu da iqtisadiyyatdakı mövcud durumu tezliklə həll etməyə yönəlib. Tikinti sahəsini canlandırmaqla həm məşğulluğu artırmaq olar, həm də insanların maddi və mənzil problemlərini həll etmək olar. Əsas məqsəd budur".

**Ekspertin fikrincə, tikinti sektorunda çalışan sahibkarların üzərindəki təzyiqlərin götürülməsi bir müddət sonra mənzil bazarında qiymətlərin stabilləşməsinə, o cümlədən ilkin bazarda ucuzlaşmaya səbəb ola bilər**: "Çünki bilirsiniz ki, tikintiyə yaradılan inzibati maneələr son nəticədə satış qiymətinin artmasına gətirib çıxarırdı. O maneələrin aradan qalxması satış qiymətlərinin stabilləşməsi qaçılmaz olacaq. Satışın həcmində də artımlar olacaq. Çünki sahibkarların çoxu o maneələrdən çəkinərək tikintidə məhdudiyyətlər yaşayırdı. İndi isə tikintinin həcmində artım olacaq. Bu da son nəticədə məşğulluğun artmasına, yeni iş yerlərinin yaranmasına gətirib çıxaracaq".

**Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı** isə qeyd etdi ki, tikinti sektorunda bürokratik əngəllər aradan qalxsa da, bu, qiymət siyasətinə təsir etməyib: "Ölkədə iqtisadi vəziyyətin mürəkkəbləşməsi təbii ki, hökuməti daha çevik addımlar atmağa sövq edir. Bunlardan biri də Azərbaycanda sahibkarlıq mühitini yaxşılaşdırmaq, iş adamlarına yaradılan süni problemlərin aradan qaldırmaqdır. Hesab edirəm ki, tikinti sektorunda tətbiq edilən yeni qaydalar da bu prosesin tərkib hissəsidir. Uzun müddət idi ki, biz də hökumətə təkliflər verirdik, bildirirdik ki, Azərbaycanda tikinti sektorunda problemlər məhz inzibati müdaxilələrin çox olması nəticəsində yaranır. Hökumət, nəhayət ki, bu addımlar atmaqla o problemlərin bir hissəsini aradan qaldırdı. Ancaq tikinti sektorunda kənar ödənişlərin bürokratik əngəllərin aradan qaldırılmasına baxmayaraq, təəssüf ki, biz yeni tikililərdə qiymət ucuzlaşması müşahidə etmirik".

**İqtisadçının sözlərinə görə, Azərbaycan hökuməti islahatlara getsə də, tikinti şirkətləri hələlik qiymət siyasətində əvvəlki proqramla işləməyə meyllidirlər:** "Çox təəssüf ki, Azərbaycanda sahibkarların əksəriyyəti qiymət siyasətində tələb-təklif faktoruna əsaslanmırlar, gəlir və xərcləri arasındakı nisbətə uyğun addım atmırlar. Bu da Azərbaycanda müəyyən sahələrdə nəzəri baxımdan müəyyən vərdişlərin olmamasından, iqtisadi nəzəriyyənin işləməməsindən irəli gəlir. Bu islahatların öz məqsədinə nail olması üçün tikinti sektorunda qiymət siyasətinə nəzarət güclənməlidir. Qiymət siyasətini dəyişməyən şirkətlərin kifayət qədər kənar maliyyə resursları var və həmin resurslar hesabına fəaliyyət göstərirlər, ona görə də satmadıqları binaların boş qalması onları narahat etmir. Ancaq boş qalmış binalar hökuməti narahat etməlidir".

❑ **Nərgiz LİFTİYEVA**

# Ölkəyə qanunsuz ovçu-turist gətirən şirkətlər cəzalandırılacaq

## ETSN qərar verdi; 16 əcnəbi ölkəmizin ov qanunlarını pozduqlarına görə cərimələnib

**Bu günlərdə Azərbaycana axın edən ərəblərin növbəti ov görüntüləri yayılıb və bu, yerli əhalinin narazılığına səbəb olub. Görüntülərdə bahalı avtomobillərdə bölgələrə yollanan ərəb turistlərin yüzlərlə heyvan və quş ovladığı əks edilib. Ərəblərin sosial şəbəkələrdə paylaşdıqları görüntülərdən törətdiklərini açıq-aydın görmək olar. Bir sıra azərbaycanlılar sosial şəbəkələrdə bunu vəhşilik adlandırıb qınayıb. Bəziləri isə xarici turistlərə ov üçün icazə verilib, yerli camaata ovçuluğun qadağan edilməsindən gileylənib.**

Əslində isə turistləri ölkəmizə gətirən turist şirkətləri onları Azərbaycanın qayda qanunları, ovçuluq mədəniyyəti ilə tanış etməli idi. Onlara Azərbaycanın qayda qanunlarına uyğun hərəkət etməli olduqları anladılmalı idi. Ancaq bunu etməyiblər. Buna görə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi davranışları ilə dəyərlərimizə açıq hörmətsizlik edən ovçu-turistləri gətirən şirkətlərlə əməkdaşlığın dayandırılmasını qərara alıb. Bu barədə "Yeni Müsavat"a yazılı şəkildə bildirən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat xidməti yayılan görüntülərin bir qisminin digər ölkələrdə lentə alındığını bildirdi: "Əcnəbi ovçu turistlərin ölkə ərazisində ov edərkən Azərbaycan əhalisinin gözləntilərinə uyğun olmayan qeyri-etik davranışları ilə dəyərlərimizə hörmətsizlik nümayiş etdirmələri və qanunları pozmaları barədə KİV və sosial şəbəkələrdə yayılan məlumatlar, görüntülər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumlarında təhlil edilib. Yayılan şəkillərin və görüntülərin təhlili onu ehtimal etməyə əsas verib ki, çəkilişlərin bir qismi digər ölkələrdə lentə alınıb. Eyni zamanda, yayılan çəkilişlərdə Azərbaycan ərazilərindən də olan görüntülər əks olunub. Qeyd edək ki, payız-qış aylarında Azərbaycan ovçularına və xarici ölkələrdən gələn ovçu turistlərə xidmət göstərən Azərbaycan şirkətlərinə, müraciət əsasında qanunvericilik çərçivəsində kvota ayrılır. Yeri gəlmişkən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) isə mahiyyət etibarı ilə ovçuluq fəaliyyətinin məhdudlaşdırılmasının tərəfdarıdır, lakin Azərbaycan qanunlarından irəli gələrək istər yerli, istərsə də xarici ovçular





öz hüquqlarından istifadə etməkdə israrlıdır. Həmçinin beynəlxalq öhdəliklərdən, ölkəmizin qoşulduğu konvensiyalardan irəli gələrək, o cümlədən Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli Qərarı ilə əcnəbilərə və vətəndaşlığı olmayanlara ov icazəsi verilməsi təsbit olunub".

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən görüntülərdə əks olunan heyvan və quşların içərisində Azərbaycanın "Qırmızı Kitab"ına düşən növlərin olmadığı bildirildi. Ümumiyyətlə mövcud normativlərə əsasən yerli ovçulara 1 ov günü müddətinə 6-dək, xarici vətəndaşlara 5 ov günü müddətinə 10-dək su-bataqlıq quşunun, dovşanın isə yerli ovçulara 1 baş, xarici ovçulara 2 baş ovuna icazə verilir: "Xarici turist ovçular əksər hallarda qrup halında ov edir və yekunda ov qənimətlərinin toplum halında şəklini yayır. Yəni ilkin təhlillərə görə, inzibati ölçü götürülməsi üçün ciddi araşdırma aparılması tələb olunur. Eyni zamanda, yayılan görüntülərlə əlaqədar xaricilərin ovunu təşkil edən şirkətlərin də fəaliyyəti ETSN tərəfindən təhlil olunur. Artıq turizm şirkətlərinə xəbərdarlıq edilib ki, gələn ovçu turistləri əvvəlcədən təlimatlandırsınlar, onları ölkə ərazisində təvazökar, dürüst olmağa, özlərini Azərbaycan əhalisinin gözləntilərinə uyğun aparmağa sövq etsinlər. Ovçuluq etikasına uyğun gəlməyən, davranışları ilə mənəvi-mədəni dəyərlərimizə açıq hörmətsizlik nümayiş etdirən, ölkə qanunlarını pozan ovçu-turistlərin gətirilməsi faktları aşkar olunduğu təqdirdə həmin şirkətlərlə əməkdaşlıq dayandırılacaq".

Qeyd edək ki, təkcə bu ov mövsümündə ərəb ölkələrindən gələn 16 ovçu-turist ölkənin ov qanunlarını pozduqlarına görə cərimələnib, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında onların ölkədən xaric edilməsi təmin olunub.

**ETSN vətəndaşlardan konkret faktlarla bağlı məlumat olduqda, 168 nömrəli "Qaynar xətt"ə müraciət etmələrini xahiş edir.**

❑ **Günel MANAFLI**

# Leyla Şıxlinskayadan dələduzluq ittihamına cavab - "Yalandır, qəsdən edirlər"

**Bir neçə gündür ki, Rusiya mətbuatında Azərbaycanın xalq artisti Leyla Şıxlinskayanın adı dələduzluq ittihamında hallanır.**

Life.ru saytının yaydığı məlumata görə, Rusiya Reyestr İdarəsinin Moskva şöbəsi külli miqdarda dələduzluq faktı ilə bağlı polisə müraciət edib. Nəticədə Moskvanın ən nüfuzlu küçələrindən biri sayılan Petrovkada elit binalardan birinin sonuncu mərtəbəsində iki mənzilin mənimsənilməsi faktının üstü açılıb.

Mənzillərdən birinin sahibinin Azərbaycanın xalq artisti Leyla Şıxlinskaya olduğu bildirilir. Müəyyən edilib ki, dəyəri 500 milyon rubldan çox olan həmin iki mənzil son bir ildə saxta sənədlərlə bir neçə nəfərin adına keçirilib. 336 kv.m-lik, dəyəri 250 milyon rubl olan bir mənzilə Abdulvaris M. adlı şəxsin, onunla qonşu olan 400 kv.m-lik mənzil isə Şıxlinskaya Leyla Fərrux qızının adına sənədləşdirilib.

Mənzilin gerçək sahiblərinin isə heç bir yerdə şikayətinə rast gəlinməyib. Əgər məhkəmədə sənədlərin saxta olduğu təsdiqini tapsa, mənzillər dövlət tərəfindən müsadirə olunacaq. Məlumatda o da qeyd edilib ki, xalq artisti ilə əlaqə yaradıb, məsələyə aydınlıq gətirmək mümkün olmayıb.

Qeyd edək ki, Azərbaycanın xalq artisti hazırda Rusiyada yaşayır. Onun Bakıda adına böyük klinika fəaliyyət göstərir. Məsələyə aydınlıq gətirmək üçün əməkdaşımız Leyla Şıxlinskaya



Klinikası ilə əlaqə saxlayıb.

Azərbaycanın xalq artisti Leyla Şıxlinskaya adının dələduzluqda hallanmasına münasibət bildirib.

**Bu barədə musavat.com-a danışan xalq artisti barəsində səslənən ittihamları rədd edib**: "Bütün bu ittihamların hamısı yalandır. Bütün bunları qəsdən ediblər. Mənim özümün 18-19 ildir ki, Moskvada "Mir" prospektində böyük, gözəl evim var. O mənim birinci ailəmdən, keçmiş ərimdən qalıb. Qalmaqalda deyilən ev əslində ev deyil, çardaqdır. Əslində bu qalmaqalı xüsusi olaraq yaradıblar. Əgər mən həmin evi 4 milyona almışamsa, onda niyə adım dələduz adlandırılır? Bu hadisənin kökü təxminən 7-8 il əvvələ dayanır. Onda belə bir təklif edilmişdi ki, ora satılır. Amma mən almadım, eləcə qaldı. Mənə sənəd göstərsinlər ki, mən oranı almışam, mənim adımadır. Ümumiyyətlə, 4 milyona Moskvada ev alınmır. Mənim adım niyə bu qalmaqalda hallanır? Mən sadə adam deyiləm, axı... Bütün bunları Azərbaycanda tanınmış bir şəxsin xanımı edib. Nə vaxtsa, o xanım 3-4 il bundan əvvəl klinikada işləyib. Klinikanı tərk etdikdən sonra bu cür qalmaqallar baş verir".

❑ **Xalidə GƏRAY**

# Dərsə tələsməyənin məşqə gecikməsi



**Samir SARI**

**Neçə vaxtdır sosial şəbəkədə gözümə "məşqə gecikirəm" sözlü statuslar, şərhlər dəyirdi. Necə olubsa, başım qarışıb, bu yeni lağlağı trendinin qaynağını ötürmüşəm.**

Ancaq xalqımızın baməzə övladlarının bitməyən bu lağlağı kampaniyası vadar etdi ki, "Sabahın xeyir, kral" klipindən sonra bu qədər populyarlaşan "məşqə gecikirəm" söhbətini öyrənim, qarabağlılar demişkən, vacehinə yetim.

Gənclərdən soruşdum, video linki göstərdilər, baxdım.

Bilənlər bilir, bilməyənlər üçün aydıralım ki, kamera qarşısında 16-17 yaşlı, bığ yeri tərləmiş, amma hələ ülgüc dəyməmiş bir növcavan gənc dayanıb, reportyor ona 20 Yanvar faciəsi haqda sual verir, bu günün nəylə əlamətdar olduğunu soruşur, gənc də deyir ki, bilirəm, amma məşqə gecikirəm. Jurnalist bir az da dirəşir, gənc cavab verir ki, faciə olub, ermənilər gəlib Azərbaycanın torpağını işğal eləyiblər.

Hiss olunur ki, o gənc həqiqətən də məşqə gecikir. Uşağın fikri-zikri məşqdədir, idmançı olmaq, bayrağımızı qaldırmaq, himnimizi oxutmaq, olimpiadada qızıl medal qazanmaq, yarım milyon pul, ev, maşın əldə etmək istəyir.

Sadəcə, adam bir işə mat qalır ki, budur 27 ildir ki, hər dəfə yanvar ayında millət "şəhidlər" deyə-deyə qara bağlayır, göy örtür, yüz minlərlə insan ziyarətə gedir, orta məktəblərdə dərsini də keçirlər, tədbirlər təşkil edirlər, bu uşaq harada böyüyüb ki, bütün bunlardan xəbərsiz qalıb?

**Böyük ehtimalla məşqə gecikmək istəməyən o gənc məktəbə, dərsə həmişə gecikib, ona görə hər şeydən xəbərsizdir.**

Bu xüsusda bir az amerikalılara çəkmişik. Onların da (çoxunun) dünyadan xəbəri yoxdur. Ötəndəfəki prezident seçkilərində vitse-prezident postuna namizəd olan qubernator qadın böyük-böyük ölkələrin belə harada yerləşdiyini bilmirdi. Hətta özüm Amerikada olanda (axırıncı dəfə) bir italiyalı professorla həmsöhbət oldum, adam özü musiqiçiydi, həvəskar gitaraçı idi, amma öz soydaşı, eləcə də həmvətəni, dünya şöhrətli bəstəkar Ennio Marrikonini tanımırdı. Ondan ötrü Marrikoninin "Bir dəfə Amerikada" filminə yazdığı məşhur melodiyanı zümzümə də etdim, dedi ki, birinci dəfədir eşidirəm. O qədər yəni.

Bu baxımdan manısların yazıçı Steynbeki və Markesi tanımamalarını artıq normal qarşılamaq olar. Eləcə də Şərif Ağayar sabah müğənni Niyamla qarşılaşsa və onu tanımasa, gərək günahından keçək. O jurnalistlərdir, hamını tanıyırlar - Nadir Qafarzadədən tutmuş Cem Yılmaza, Britni Spirsə, Şakiraya, onun əri Pikeyə, Ərdoğanın müşaviri Boynukalına qədər hər kəsi. Eləcə də jurnalistlər Ekvadorun, Malinin, Laosun hansı qitələrdə yerləşdiyini, paytaxtlarının hansı şəhər olduğunu bilməyə borcludurlar. Bilməsələr, bu, minus sayılır.

Hərçənd elə elementar şeylər var ki, bunları hamı bilməlidir. Məsələn, hamı ölkəmizlə qonşu olan dövlətləri, Murovdağın harada olduğunu, Sınıq körpünün harada yerləşdiyini bilməlidir.

Axtarsaq, məlum olacaq ki, 20 Yanvarın nə günü olduğunu bilməyən o məşqə gecikən gənc 14 fevralın nə günü olduğunu bilir. Niyə? Çünki ikinci daha maraqlıdır, türkün sözü, aşk-məşq məsələsidir (düzünə qalsa, adam gərək bu məşqə də gecikməsin).

Dünyanın hər tərəfində belədir. O gün TRT-1-də bir bilik yarışması göstərirlər, ali təhsilli, mədəni görünüşlü bir gənc xanım "teatr tamaşasındakı fasiləyə nə deyirlər" sualının cavab variantları arasında "antrakt"dan başqa bütün cavabları seçdi və uduzdu. Demək ki, bu xanım o yaşa çatıb, ömründə bir dəfə teatrda olmayıb. Bu cür "zəngin intellekt"ə sahib olan şəxsin bilik yarışmasında nə işi var - bu başqa bir sualdır.

Məşqə gecikməyə qalsa, Ronaldo, Messi, üzgüçü Felps, tennisçi Rafael Nadal və yüzlərcə başqa məşhur idmançılar da məşqə gecikmirlər, amma telekamera önündə danışanda elə danşırlar, sanasan, doktorluq dissertasiya müdafiə edən alimlərdir. Çünki onlar məşqlərini vaxtlı-vaxtında edirlər, boş vaxtlarında kafelərdə laqqırtı vurmurlar, gedib qəzet-kitab oxuyur, maraqlı verilişlərə baxır, ölkələrində, dünyada baş verənlərlə maraqlanır.

**Gərək telejurnalistlər də anlayışlı olsunlar, məşqə gecikənlərdən və suala cavab verə bilməyənlərdən mini-müsahibə almasınlar. Heç manısları da Ziqmund Freyd yerinə qoymaq lazım deyil.**

# 6 mağazanı yarıb, avtomobil oğurlayan dəstəni 7 il həbs gözləyir



**Şəmkirdə maşın oğrusu tutulub. ARB Kəpəz xəbər verir ki, yanvarın 31-i saat 23:00 radələrində Şəmkir rayonunun Dəllər qəsəbəsindən avtomobil qaçırılıb. Naməlum şəxs qəsəbə sakini Mehdi Tağıyevin "VAZ 21011" markalı avtomobilini yaşadığı evin qarşısından oğurlayıb.**

Mehdi Tağıyev - zərərçəkən şəxs: "Axşam saat 23:00 radələrində evimin qarşısında maşını saxladım. Səhər 8:00-da qalxdım ki, maşınım oğurlanıb. Dərhal Daxili İşlər Nazirliyinin 102 xidmətinə zəng etdim. Şəmkir polisindən gəldilər".

Şəmkir polisi maşın oğrusunun kimliyini müəyyən etməyə o qədər də vaxt sərf etməyib. Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobilin Mehdi Tağıyevin həmkəndlisi 23 yaşlı Əli Yusifov tərəfindən oğurlandığı məlum olub. O və avtomobilin yeri müəyyən edilərək istintaqa təhvil verilib.

İstintaq Əli Yusifovun digər oğurluq cinayətini də ortaya çıxarıb. 23 yaşlı gənc mağazalara da qənim kəsilib. Ona bu işdə bir müddət əvvəl Goranboyda saxlanılan həmyerlisi Arzu Əsgərov və Bakı sakini Ağasif Baxışov kömək olub. Marketlərdən xeyli miqdarda nəğd pul, tütün məmulatları, spirtli içkilər və müxtəlif danışıq kartları oğurlayanlar Gəncədə bir müddət kirayənişin yaşamaqla əməllicə kef çəkiblər.

Əli Yusifov - saxlanılan şəxs: "Kür qəsəbəsində 1, Tovuzda 1, Goranboyda 1, Şəmkirin özündə 3-4 mağazaya girmişik. Pul, siqaret və kontur götürmüşük. Ayrı heç nə götürməmişik".

Hazırda Şəmkir Rayon Polis Şöbəsinin istintaq böləməsində Əli Yusifov və onun cinayət ortaqlarının əməlindən zərərçəkənlərin sayı müəyyənləşdirilir. Günahları tam sübuta yetirilərsə, dəstə üzvlərini ən azı 7 il dəmir barmaqlıqlar arxası gözləyir.



## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Qar yağacaq, yollar buz bağlayacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) ölkə ərazisində hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib. ETSN-in Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, ölkə ərazisində qeyri-sabit hava şəraiti fevralın 14-ü gündüzədək davam edəcək.**

Arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlama ehtimalı var.

Fevralın 11-də isə Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

ETSN Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, bəzi yerlərdə zəif duman olacaq, şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-2° şaxta, gündüz 3-5° isti, Bakıda gecə 1°-dək şaxta, gündüz 3-5° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütunu, nisbi rütubət 75-85 % təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin arabir yağıntılı olacağı, qar yağacağı, duman olacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz ayrı-ayrı rayonlarda yağıntıda fasilə yaranacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-7° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı gözlənilir.



# "Gənclik Mall"da kütləvi dava

**Bakı şəhəri, Nərimanov rayonunda yerləşən "Gənclik Mall" ticarət mərkəzinin giriş qapısının önündə kütləvi dava düşüb. Report-un xəbərinə görə, "Gənclik Mall" ticarət mərkəzindən çıxan 27 yaşlı Namiq İsmayılov bir neçə şəxsin hücumuna məruz qalıb.**

Əlbəyaxa dava zamanı N.İsmayılova 6 bıçaq zərbəsi vurulub. N.İsmayılov qanaxmadan huşunu itirib. O, taksi sürücüsünün köməkliyi ilə 1 saylı Şəhər Kliniki Tibbi Mərkəzə yerləşdirilib. Həkimlərin verdiyi məlumata görə, N.İsmayılovun vəziyyəti ağırdır.

Faktla bağlı Nərimanov Rayon Polis İdarəsində araşdırmalara başlanılıb.

# 3 uşaq atası qonşusunu öldürdü- su üstündə...



**Bakıda qonşusunu su üstündə öldürən şəxs məhkəmə qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən 1982-ci il təvəllüdlü Eminov Fərman Kazım oğlunun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Hakim Ələvsət Abbasovun sədrliyi ilə keçirilən prosesdə F.Eminovun anket məlumatları dəqiqləşdirilib.

3 azyaşlı övladı olan F.Eminov orta təhsillidir.

Məhkəmənin baxış iclası fevralın 17-nə təyin edilib.

Hadisə Sabunçu qəsəbəsi Natavan küçəsi 16 ünvanında baş verib.

Fərman Eminov 1980-ci il təvəllüdlü qonşusu Əmənov Elməddin Nəbi oğlunu bıçaqlayaraq qətlə yetirib.

Qonşular arasında qanlı olayın səbəbi sudur. Belə ki, Elməddin Əmənov qonşuluqda yaşayan Fərman Eminovun həyətinə gedən su borusunu kəsib. Suyun kəsildiyini görən Fərman qonşusu ilə dava edib və münaqişə zəminində onu öldürüb.

Bir neçə bıçaq xəsarəti almış 36 yaşlı Elməddinin həyatını xilas etmək mümkün olmayıb.

Qətlə yetirilən şəxs də 2 uşaq atası olub.

❑ **İ.MURADOV**

# Piyadanı öldürən sürücüyə 8 il həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törətməkdə təqsirləndirilən Fikrət Əliyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın xəbərinə görə, hakim Mail Bayramovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, F.Əliyev 8 il müddətinə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, hadisə ötən ilin sentyabrında Zabrat qəsəbəsində baş verib. Şəhər şosesində Əliyev Fikrət Yusif oğlu idarə etdiyi "VAZ 2107" markalı avtomobillə piyada 1964-cü il təvəllüdlü Əliyev Zahir Natiq oğlunu vuraraq öldürüb.

# Cəlilabadda saxta pul yayan şəxs həbs edildi

**Cəlilabad rayonunda saxta pul yayan şəxsin həbs edilməsi üçün əməliyyat keçirilib. Teleqraf.com xəbər verir ki, Cəlilabad rayon polis şöbəsi Orxan Cavadovu həbs edib.**

Ondan 74 ədəd 50, 25 ədəd 100 manatlıq saxta əskinas götürülüb. Faktla bağlı cinayət işi başlanıb.

## Elan

**Selim İsmail Kavadar Mehmet Fikri Kavadar oğlunun adına olan şəxsiyyət vəsiqəsi (oturum kartı) itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

# Dollar ucuzlaşdı, bəs tikinti materialı?

## Bəhanə ilə qiyməti artıranlar, indi də məzənnənin sabit olmadığını söyləyirlər; bazarda alıcılarla satıcılar arasında söz savaşı gedir

**Son günlər manatın dollara nisbətdə bahalaşması prosesi gedir. 10 gün öncə 1 manat 90 qəpiyin üzərində olan qiymətlə satılan dolların, hazırda manata qarşı rəsmi məzənnəsi 1.73 AZN-dir.**

Bəlli olduğu kimi, dollar bahalaşdıqca ölkəyə xaricdən gətirilən bütün növ məhsulların qiymətində bahalaşma müşahidə olunurdu. Bu bahalaşmadan istifadə edib yerli malların da qiymətini qaldıranlar az deyildi. Xüsusilə dolların bahalaşması daha çox tikinti materialları bazarına təsir etmişdi. Belə ki, dolların bahalaşması nəticəsində dəmirin qiymətində kəskin artım olmuş, keyfiyyəti isə işbazlar tərəfindən azaldılmışdı.

*Bəs tikinti materialları bazarında hazırkı vəziyyət necədir?*

Qiymətləri və ümumi durumu öyrənmək üçün paytaxt ərazisində tikinti materiallarının satıldığı yerlərdə olduq. Öyrəndik ki, dolların ucuzlaşmasından asılı olmayaraq, materialların qiymətində dəyişiklik yoxdur. Olduğumuz bir çox mağazada müştərilərin satıcılarla qiymət mövzusunda mübahisə etdiyinin şahidi olduq. Material almaq istəyən şəxslər bildirirlər ki, bazarda özbaşınalıq hökm sürür: “10 gün öncə qiymətləri qaldıran satıcılar az qalırdılar ki, ağlasınlar. Deyirdilər ki, biz qiymətləri qaldırmaq istəmirik. Camaatın vəziyyətini başa düşürük, ancaq dolların bahalaşması bizi buna məcbur edir. Çünki bütün məhsulları xaricdən gətiririk. İndi isə dollar ucuzlaşıb. Deyirik ki, bəs nə oldu? Cavab verirlər ki, biz malı dolların 1.93 AZN olduğu vaxt gətirmişik. Ona görə də ucuz sata bilmərik. Ölkədə dolların qiyməti cəmi bir neçə gün 1 manat 90 qəpikdən baha oldu. İndi bu satıcıların sözlərinə görə, guya onlar bütün mağazadakı malları elə həmin günlər ərzində gətiriblər. Ancaq təbii ki, realıqda bu belə deyil” deyə, alıcılar bildirdilər.









**Alıcılar kimi satıcıların da öz arqumentləri var. Belə ki, söhbət etdiyimiz taxta satıcısı Nemət Cəfərov bildirdi ki, alver etmək xeyli çətinləşib. Ona görə də çıxılmaz duruma düşüblər:** “İndi alıcılar belə danışırlar, ancaq özlərini bizim yerimizə qoyub düşünsələr, vəziyyəti başa düşərlər. Birincisi, taxtanın qiymətində nə artım var, nə də azalma. Elə dollar 1.70 AZN olanda qiymətlər necə idisə, sonrakı bahalaşmada da eyni oldu, indi də eynidir. Çünki satıcılar pis vəziyyətdə qalıblar. Dollar gah bahalaşır, gah da ucuzlaşır. Bir dəfəlik 3 manat olsa, biz də işimizi bilərik. Yaxud da bunu bir dəfəlik 1 manat 50 qəpik etsələr, yenə də ona uyğun qiymət təyin edərik. Ancaq belə deyil. Hər həftə məzənnə bir cür dəyişir. Ona görə də satıcılar risk etmirlər. Düşünürük ki, birdən yenə qalxar ucuz satdığımız malın pulu ilə gedib yenidən mal gətirə bilmərik. Bax, əsas məsələ də budur. Bir günün içində qiymətin düşməsi ilə bazarda qiymətləri tənzimləmək olmur. Çünki məzənnə sabit deyil”.

Demək olar ki, bazar boyu hər mağazada bu cür söhbətlərə qulaq müsafiri olduq. Alıcılar dolların ucuzlaşmasını əsaslandırıb malın qiymətini endirməyə çalışır, satıcılar isə məzənnənin sabit olmadığını vurğulayıb, əllərindəki malı baha satmaq istəyirlər.

Bazardakı ümumi qiymətlərlə də maraqlandıq. Öyrəndik ki, dolların manata nisbətdə ucuzlaşması dəmirin qiymətinə cüzi də olsa təsir edib. Belə ki, ötən günlər 0.5 mm-lik dəmir lövhə 12.5 AZN-ə satıldığı halda, bu gün qiymətində 1 manat ucuzlaşma var. Ancaq bir məqamı da qeyd edək ki, manatın birinci devalvasiyasından sonra bu materialın qiyməti 9 AZN olub.

Boruların qiymətində isə artımdan sonra heç bir dəyişiklik yoxdur. Belə ki, diametri 25 mm olan borunun qiyməti bir ay öncə 2.60 AZN olduğu halda, hazırda 2.90 AZN-dir. 32 mm-lik boru bir ay öncə 3.30 AZN-ə satıldığı halda, hazırda 3.80 AZN-ə satılır. 50 mm-lik borunun qiyməti isə bir ay ərzində 70 qəpik bahalaşaraq 5.70 AZN olub. Armaturun da qiyməti artımdan sonra dəyişməz qalıb. Belə ki, təxminən bir ay öncə tonu 760 AZN olan armatur hazırda 800 AZN-ə satılır.

Divar kağızlarının (oboy) qiymətində enmə yoxdur. Bazarda 10-30 manat arasında qiymətlərlə bu növ materialı almaq olar. Gipsin 40 kiloqramlığının qiyməti 5 AZN, 30 kiloqramlığı isə 4 AZN-ə satılır. Taxtanın isə kubu 270-280 AZN-ə satılır.

**Nəticə olaraq qeyd edə bilərik ki, dolların manata nisbətdə bahalaşması ilə artan qiymətlər, dolların ucuzlaşmasından asılı olmayaraq, elə baha olaraq da qalıb.**

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

# Günümüzün neçə saatı telefonla keçir?

## Elnur Rüstəmov: “Bu, informasiya əsrinin yaratmış olduğu problemlərdən biridir”

## Əhməd Qəşəmoğlu: “Bunlar milli ruha, milli hisslərə ciddi təsir edən məsələlərdir”

**Mobil telefonlar həyatımızın ayrılmaz hissəsinə çevrilib. Mobil telefonlar 10-15 il öncə olduğu kimi artıq yalnız kimisə axtarmaq, mesaj atmaq kimi istifadə edilmir. Bu gün ağıllı mobil telefonlar həm də bir növ cib kompüteri funksiyasını daşıyır. Belə ki, biz bu kiçik cihazla həm danışır, həm mesaj atır, həm film izləyir, həm də müxtəlif sosial şəbəkələrə daxil olur, istədiyimiz məlumatları əldə edə bilir, yemək, hətta təyyarə biləti belə sifariş edə bilirik.**

Bunun nəticəsidir ki, günümüzün yarıdan çoxunu telefonla “oynamağa” həsr edirik. Səhər yuxudan ayılar-ayılmaz, ilk axtardığımız əşya telefon olur və beləcə, telefon əlimizdə yeni bir gün başlanır. Bir sıra şəxslər mobil telefondan istifadənin işində, gündəlik həyatında mühüm rol oynadığını desə də, əksəriyyət bunun onda pis bir vərdişə çevrildiyini və hətta xəstə olarkən belə telefondan ayrı qala bilmədiyini deyir. Bəs belə psixoloji asılılıqdan qurtulmağın bir yolu varmı?

**Psixoloq Elnur Rüstəmov** bunun informasiya əsrinin yaratmış olduğu problemlərdən biri olduğunu dedi: “Ümumi götürəndə telefon əslində rabitə, insanlar arasında ünsiyyət vasitəsi kimi yaranmışdı. Ancaq bu gün telefon ünsiyyətdən daha çox bir əyləncə vasitəsi kimi istifadə olunur. Yəni mobil telefonu olan insan bəlkə də gün ərzində 15-20 dəqiqə əgər kiminləsə telefonla danışırsa, qalan vaxtını telefonda sosial şəbəkəyə girməklə, oyunlar oynamaqla keçirir. Əlbəttə ki, bu da insanda bir asılılıq, alışqanlıq yaradır. Bu gün elə insanlar var ki, onun çoxfunksiyalı mobil telefonu var. Az maaş alsa belə yaxşı, bahalı telefonu var. Çünki insan orada əyləncə axtarır və həyatının böyük bir qismini mobil telefon üzərinə köçürür. Bu da şübhəsiz ki, insanda narahatlıq yaradır. Elə insanlar var ki, mobil telefonu olmadığı təqdirdə o məkana getmirlər. Yaxud mobil telefonu yaddan çıxaranda, internet olmayanda narahat olurlar. Mobil telefondan daha irəli olan bir şey internet asılılığıdır. Düşünürəm ki, bu da informasiya əsrinin yaratmış olduğu problemlərdən biridir. Məsələn, əvvəllər biz deyirdik zərərli vərdişlərdən asılılıq, həmin asılılıq arasında internet və mobil telefondan asılılıqda mövcuddur”.



Qeyd edək ki, mobil telefonların psixoloji problemləri ilə yanaşı sağlamlığa da ciddi zərərləri var. Belə ki, mobil rabitədən istifadə edənlər digərlərinə nisbətən baş ağrılarından, əsəb pozğunluğundan daha çox şikayətçi olurlar. Zərərli elektromaqnit dalğaların təsiri nəticəsində orqanizmdə immun sistemin gərginliyi artır. Bu səbəbdən də orqanizmin xəstəliklərə qarşı müqaviməti azalır. Alimlər müəyyən edibl ər ki, mobil rabitədə elektromaqnit şüalanmanın mənbəyi olan başqa elektrik avadanlıqlar kimi bioloji fəal olaraq insanın səhhətinə mənfi təsir edir. Lakin televizor, kompüter və başqa elektrik avadanlıqlardan fərqli olaraq, mobil telefon istifadə edərkən onu bilavasitə beyin və gözlərimizə yaxın tuturuq. Bu zaman radiotezlik diapazonunun elektromaqnit şüalanması beynin toxumaları tərəfindən mənimsənilir. Şüalanma görmə qabiliyyətinə və eşitmə orqanlarına da mənfi təsir göstərir. Bu da sirr deyil ki, şüalanma çox hallarda onkoloji xəstəliklərin yaranmasına təkan verir. Metroda, əsasən də vaqon hərəkət edərkən mobil telefondan istifadə edən insanlar həyatlarını birbaşa riskə atmış olurlar. Belə ki, vaqon relslər üzərində hərəkət edərkən elektromaqnit şüalar çoxalır ki, bu da insan səhhəti üçün olduqca zərərlidir.

Problem yalnız mobil telefonla bağlı deyil, eyni zamanda şəhər telefonundan asılı qalan qadınlarla bağlıdır. Xüsusən də evdar xanımlar bəzən günlərinin tam yarısını telefonla danışmaqla keçirirlər. **Sosioloq Əhməd Qəşəmoğlu bunun cəmiyyətin bir bəlası olduğunu dedi:** “İnsan faydalı bir işlə məşğul olmayanda bu işlərə vaxtı daha çox olur. Yəni hər hansı bir evdar qadının ciddi bir işi olsa, hətta evdəki rahatçılığı, ahəngi yaratmaqla bağlı çox işləri ola bilər. Necə ki, kənddəki qadınların şəhərdən axşamadək işləri olur. Onların da evdə yemək hazırlamaqla, uşaqların tərbiyəsi ilə bağlı çoxlu işləri ola bilər. Bəzən uşaq ac qalır, ağlayır, ana ya telefonda, ya da sosial şəbəkələrdə saatlarla vaxt keçirir. İnsanın bu qədər boş vaxtı varsa, bu, onun normal həyat yaşamamasının əlamətidir. Bizim telefondan asılılıq məsələmiz görünür davranışlarımızdakı müəyyən çatışmazlıqla bağlıdır. Əvvəllər də demişdik ki, insanın davranışı 3 güclü faktora təsir edir. **1.** Onun yaşadığı mühit, şərait. **2.** Aldığı informasiya. **3.** Üstünlük verdiyi dəyərlər. Deməli, indiki cəmiyyətimizdə bir xəstə vəziyyət var ki, burada insanlar öz davranışını elə bir vəziyyətə gətirib çatdırıblar ki, onlar bundan daha məhsuldar, faydalı şəkildə daha az istifadə edirlər. Biz bilirik ki, vaxt ən mühüm sərvətlərdən biridir. Mühüm sərvətimizi biz uzun müddət boş-boşuna danışmağa, qeybətə sərf edirik ki, bu da insana mənfi təsir edir. Bunların hamısı o deməkdir ki, cəmiyyətimizdə, yəni əhalinin keyfiyyətində müəyyən problemlər var və bu problemlərlə də ciddi məşğul olmaq lazımdır”.

**Sosioloq mobil telefondan da iş adı ilə saatlarla danışmağın insanın psixoloji durumundakı müəyyən problemlərdən xəbər verdiyini dedi:** “İnsanların sosial şəbəkələrə bu qədər vaxt sərf etməyi lap dəhşətli məsələdir. Çünki sosial şəbəkələrdə daha çox gənclər oturur. Bəziləri yaşlarının elə vaxtında sosial şəbəkədə otururlar ki, o zaman onlar öz gələcəkləri üçün karyeralarını qurmalıdır. Yəni bu gənc əlaqı oxuya bilərdisə, yaxud bir musiqi alətində çala bilirdisə, bunun əvəzinə sosial şəbəkəyə daxil olur və öz karyerasını, səhhətini məhv edir. Həmçinin bu vəziyyət həmin gəncə əxlaqi cəhətdən də pis təsir edir. Çünki orada qeyri-ciddi söhbətlər, əxlaqca o qədər də uyğun olmayan münasibətlər, yazışmalar əxlaqi cəhətdən təsir edir. Bu da birbaşa milli ruha, milli hisslərə ciddi təsir edir”.

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 31 (6645) 11 fevral 2017




## 5 il ərzində sənədsiz və pulsuz 10 ölkə gəzib

**2012-ci ildə itkin düşən Kanadanın Toronto şəhər sakini Anton Pilipi Amazonkadakı cunqlidə tapıblar. Son 5 il ərzində o, sənədsiz və pulsuz 10 ölkə adlayıb. Lenta.ru saytı CBC-ə istinadən xəbər yazıb ki, çirkli paltarda, ayaqyalın formada yolda gedən saqqallı kişini ötən ilin noyabr ayında Braziliya polisləri aşkar etmişdi. Öncə onu kasıb kimi qəbul ediblər, ardınca isə polis onunla ingilis dilində danışaraq, Kanadadan gəldiyini üzə çıxarıb. Polis onun qardaşı ilə əlaqə yaratmağa nail olub. Məlum olub ki, kişini sonuncu dəfə 2012-ci ildə Torontoda görüblər. Ondan sonra ailəsi onun harada olduğunu tapıb üzə çıxara bilməyib. Qohumları ehtimal edir ki, kişi evdən psixoloji problemlərə görə gedib.**

Aydınlaşdırma zamanı məlum olub ki, Pilip öncə ABŞ sərhədini keçib, ordan Meksikaya keçib, ondan sonra Kosta Rika, Panama, Kolumbiya, Venesuella və Argentinada olub. Səfərinin böyük hissəsini o, piyada gerçəkləşdirib, bəzən isə yolda maşın tutub və yük maşınlarının kuzovunda gizlənib. Yolboyu kişi meyvə və giləmeyvə ilə qidalanıb. Şəhərlərdəki maşınyuma məntəqələrində isə geyimlərini təmin edib.

## İspan oğlan dünyanın ən cazibədar feldşeri seçildi

**İspaniyanın Madrid şəhərindəki xəstəxanalardan birində çalışan Fren Suarez adlı tibb qardaşı (feldşer) dünyanın ən cazibədar tibb qardaşı seçildi. Bu barədə lenta.ru saytı "Daily Mail"ə istinadən xəbər yayıb. Xəbərə görə, tibb qardaşı olmaqla yanaşı, Fren model kimi çalışır və rəqs edir. İspan gənc idman zalında müntəzəm məşğul olmaqla özünü formada saxlaya bilir. Bundan başqa, o, İnstaqram sosial şəbəkəsində də bir səhifə aparır. Suares həm xəstəxanadakı iş prosesindən, həm də idman zalındakı məşğuliyyətlərindən maraqlı fotolar paylaşır. Hazırda 54.6 min İnstaqram izləyicisi onu təqib edir.**



Yanvar ayında isə məlum olmuşdu ki, Norveçdən olan 30 yaşlı yanğınsöndürən Qunn Narteni sosial şəbəkədə 48.5 min nəfər izləyir. İzləyiciləri bu qadını təkcə cazibədar görkəminə görə yox, eyni zamanda fitneslə bağlı faydalı məsləhətlərinə görə də təqib edirlər.

## Otel açmağın ilginc səbəbi - gənclərə "məsləhət"

**Amerikanın Kolorado ştatında otel sahibi Gerald Foosun son 29 ildə ora gələn müştərilərn intim həyatını izlədiyi ortaya çıxıb. İngiltərənin "Daily Mail" qəzetinin xəbərinə görə, o, 1960-cı illərdə açdığı oteldə daha sonra həyat yoldaşının da köməyi ilə otaqlara gizli kamera yerləşdirib. Bunun ortaya çıxmasında isə özü təşəbbüskar olub. Belə ki, ölkədə insanların özəl həyatı ilə bağlı araşdırma hazırlayan jurnalist Gey Talese ilə əlaqə saxlayan otel sahibi ona "son 15 ildə cütlüklər arasında hazırlıqsız yaşanan intim münasibətə şahid oldum, müşahidə etdim və araşdırma hazırladım" deyib. Jurnalist isə iyul ayında yayımlanacaq kitabında bu detallara da yer verib. Hüquq-mühafizə orqanları isə bununla bağlı hər hansı hüquqi addım ata bilməyəcəklərini deyiblər. Belə ki, baş vermiş hadisə tarix etibarilə öz aktuallığını və cinayət dərəcəsini itirib. Otel sahibi isə etiraf edib ki, otel açmasının əsas səbəbi elə bu cür münasibətlərə kənardan, heç bir kompleks keçirmədən baxa bilməsidir.**





## Bu kafedə kirpi olduğu üçün... orda oturmaq bahadır

**Yaponiyanın paytaxtı Tokio şəhərində açılan kafe öz qəribəliyi ilə diqqət çəkir. Belə ki, bura gələn müştərilər kafedəki kirpilərlə oynaya bilirlər. Bu barədə lenta.ru saytı "The Guardian"a istinadən xəbər verib. Kafedə bir saat oturmaq üçün həftə içi 9, həftə sonları isə 12 dollar ödəmək lazımdır. İçəridə 20 növə yaxın kirpi saxlanır. Heyvanlar şüşə qutularda qorunur və onların hər birini ələ götürmək mümkündür. Kafenin əməkdaşı Mizuki Murata deyir ki, daha öncə dovşanlı kafedə çalışsa da, kirpilərlə vaxt keçirmək onun ən böyük arzusu olub. "Biz bu layihə ilə insanlara sübut etmək istədik ki, iynələrinə baxmayaraq kirpilər çox şirin heyvanlardır. Ümid edirəm ki, biz qonaqlarımızı onlara toxunmaq qorxusundan azad edə biləcəyik".**

2015-ci ilin noyabrında isə Britaniyanın Bristol şəhərində pişiklər üçün pub açılmışdı. Kafenin 44 yaşlı sakini Lyuk Deniels demişdi ki, elə 15-ə yaxın pişik bu məkanın divarları arxasında doğulub.




**QOÇ** - Böyük bir layihəni həyata keçirmək fikrindəsiniz. Amma nədən və necə başlamağı bilmirsiniz. Tərəddüd etməyin. Çünki indi hakim bürc sizsiniz və risk sizi müvəffəqiyyətə qovuşduracaq.

**BUĞA** - Planetiniz olan Veneranın aktivlik nöqtəsində dayanması ümumi ovqatınıza yaxşı təsir göstərəcək. Bu hal bir xeyli sürəcək. Odur ki, tərəddüddən qorxmayın, vacib planları həyata keçirməyə çalışın.

**ƏKİZLƏR** - Səhər saatları müəyyən qədər gərginliklə başlasa da, bu heç də qazanacağınız uğurlara sipər çəkməyəcək. Odur ki, narahat olmayın və bəxtinizə inanın. Gecəni mütləq öz evinizdə keçirin.

**XƏRÇƏNG** - Bəri başdan əmin olun ki, gün ərzində heç bir qanqaraçılığı və ya uğursuzluqla rastlaşmayacaqsınız. Əksinə, ətrafınızda olanların əksəriyyəti sizə xoş ovqat bəxş edəcək.

**ŞİR** - Mənfi enerjili Ayın bürcünüzdə qərar tutması sizin üçün süstlük yaradacaq. Bu səbəbdən də qeyri-ənənəvi addımlar atmaqdan çəkinin. Daha çox gözləmə mövqeyində durun.

**QIZ** - Ulduzlar göstərir ki, ayın uğurlu bir gününü yaşayacaqsınız. Sürprizlər də öz yerində. Göy qübbəsi saat 17-dən sonra təmiz havada gəzinməyi, qonaq getməyi məsləhət görür.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə aktivliyinizi artırmağa ehtiyac var. Sevindirici bir yeniliklə rastlaşma ehtimalınız böyükdür. Axşamsa yaxın ünvanlara qonaq getmək məsləhətdir.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvimdə səhhətinizlə bağlı problemlər, həmkarlarınızla mübahisələr, həmçinin iştahasızlıq daxili sabitliyinizi poza bilər. Buna baxmayaraq tədbirli olun.

**OXATAN** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız aşağı səviyyədə olacaq. Həmin ərəfədə neytral və təmkinli olun. Sonrakı müddətdə isə bir neçə sürprizlə rastlaşacaqsınız.

**OĞLAQ** - Ağlabatmayan, riskli işlərdən uzaq olmaqla qarşıya qoyduğunuz planların əksəriyyətini reallaşdıra bilərsiniz. Saat 13-16 arası perspektivli təkliflər, təzə xəbərlər mümkündür.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində, eləcə də fəaliyyət zəminində bəzi qalmaqallar gözlənilir. Özünüzü ələ alın. Tələsik qərar çıxarmayın. Lazım gəlsə, təcrübəli adamlarla məsləhətləşin.

**BALIQLAR** - İxtiyarınızda olan bu təqvimin ümumi görüntüsü daha çox gərginliyə yaxındır. Odur ki, əsəblərinizi cilovlamağa ehtiyac duyulur. Nahardan sonra isə qazanmaq ehtimalınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Tənbəlliyə qarşı toplantıda yuxuya getdilər



**Çinin Xubey bölgəsində altı məmur "Tənbəl və ləng bürokratiyanı motivasiya" mövzusunda keçirilən toplantıda yuxuya gedib. Bu barədə Reuters ttp://www.reuters.com/ agentliyi xəbər yayıb. Xəbərdə qeyd olunur ki, yatanlardan biri fond direktorunun müavini olub. Digəri isə şəhər planlaşdırma bürosu rəhbəri olub. Yatmış məmurların şəkillərini kmzscc.com saytında müzakirə olunub və daha sonra Çin sosial şəbəkələrində qızğın müzakirələrə səbəb olub. Bunun ardınca mövzu kütləvi informasiya vasitələrində, ardınca isə hökumətdə müzakirə olunub. İntizam bürosunu qərarına görə, toplantıda yatan məmurlar xalqdan üzr istəməlidilər.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017



# Azərbaycandakı Rusiya banklarının sirli fəaliyyəti...

## Əkrəm Həsənov: "Zərərlə işləyən bu bankların ölkədə qalması siyasi səbəblərlə bağlıdır"

**Azərbaycanda fəaliyyət göstərən Rusiya banklarının zərərlə işlədiyi barədə məlumatlar var. Bununla belə, onlar ölkədə qalmaqda israrlıdır. Ekspertlər həmçinin bu banklarda korrupsiya faktlarının həm çoxluğuna, həm də məbləğin yüksəkliyinə diqqət çəkirlər. Bildirilir ki, bankların problemli kreditləri də yüksək həddədir.**

Vaxtilə **"Bank VTB"-də işləyən, bank sahəsi üzrə ekspert Əkrəm Həsənov** musavat.com-a bildirdi ki, ümumən Azərbaycanda iki Rusiya bankı var: "Bank VTB" və "Nikoil bank": "VTB Rusiyanın dövlət bankıdır. Rusiya dövlətinin orada payı 50 faizdən çoxdur. Amma başqa səhmdarları da var. Rusiyanın VTB-sinin 3 faizi Azərbaycanın Neft Fondunundur. Biz oraya 500 milyon manat qoymuşuq və səhmləri almışıq. Amma "Nikoil bank" özəl bankdır. Bank özü adətən deyir ki, Rusiyadakı Azərbaycan oliqarxının, Vahid Ələkbərovundur. Ümumən hər iki bank Azərbaycanda çox ağır itkilərlə işləyir. Ötən ilin maliyyə hesabatlarını "Nikoil bank" açıqlayıb. Açıqlamasına görə, 148,5 milyon manat həcmində zərərlə başa vurub. Bu da maliyyə hesabatlarını açıqlamış banklar arasında ən yüksək rəqəmdir və onun gösstəricisidir ki, vəziyyət pisdir. VTB-yə gəldikdə, yerli VTB-də 51 faiz pay Rusiya VTB-sinindir, 49 faiz "AtaHolding"indir. Bu bank da ili ağır itkilərlə bitirib, amma maliyyə hesabatlarını gizlədir. Ondan əvvəlki maliyyə hesabatlarından açıq-aşkar görünür ki, bu banklarda vəziyyət çox pisdir, itkilərlə qurtarıblar. Azərbaycandakı Rusiya bankları ən zərərlə işləyən banklardandır. Əsas səbəb korrupsiyadır. Ən pis yerli bankımızı götürsək belə, o bankın sahibi buradadır, özü vəsait oğurlasa da, başqalarının oğurlamasına imkan vermir, çünki bank onundur. Amma VTB-də vəziyyət fərqlidir. Bu bankda işləmişəm, uzun müddət ikinci vəzifəni tutan adam olmuşam, İdarə heyətinin sədr müavini vəzifəsində işləmişəm. Bankın rəhbərliyi Rusiyadadır, Rusiyada da konkret şəxs deyil, o da bir bankdır. Oradan kimlərisə buraya təyin edirlər, onların öz maraqları, daha çox da korrupsiya maraqları olur. VTB bu gün problemli kreditlər içində batır. Çünki kreditləri bank üçün sərf etməyən şərtlərlə veriblər, aşağı girovla veriblər. Bunlar hamısı onun göstəricisidir ki, bank işçiləri o krediti alanlardan qeyri-rəsmi pullar alıblar ki, belə asan şərtlərlə kredit veriblər. Mən VTB-nin daxili təlimatlarının, qaydalarınının hazırlanmasında şəxsən özüm iştirak etmişəm, çox sərtdir əslində. Amma buna baxmayaraq, kreditlərdə girovları onlar formal qiymətləndiriblər, aydındır ki, burada korrupsiya var. Bank özü də korrupsiya hallarını gizlətmir. Misal üçün, ötən il bank iddia edirdi ki, onun filiallarının təmirində 600 minə yaxın yeyinti olub".

**Ə.Həsənovun sözlərinə görə, 2010-cu ildə "Bank VTB"də aktiv fəaliyyətə başlayandan kreditlərlə bağlı konfliktlər yaşayıb:** "Onların öz maraqları olur. O zaman sədr müavini təyin edilmişdim, Rusiyadan göndərilmiş idarə heyətinin sədri ilə konfliktim çıxdı. Bu, ilk iri kreditin verilməsində oldu. Bir neft şirkətinə 1 milyon yarım kredit verirdilər, guya şirkət neft işi ilə məşğuldur. Mən sənədlərə baxıb dedim ki, boş şeydir, onların pulu yoxdur. O 1 milyon yarım getdi və həmin müştəri bir qəpik də ödəmədi, indiyə kimi də VTB o kreditini qaytara bilmir. Sonra mən hər dəfə bu cür kreditlərin verilməsinin əleyhinə səs verirdim, amma əksəriyyət lehinə səs verirdi. Sonra mən başa düşdüm ki, Rusiyanın özündə bunları himayə edən adamlar var və onlar bundan pul qazanırlar. Ən sonuncu konfliktim AzMeCo-ya görə olmuşdu. "Azmetanol" zavodun rəhbəri Nizami Piriyev hətta Beynəxalq Bankdan da xeyli kredit götürmüşdü, illər sonra onu həbs etdilər. Beynəlxalq Bankdan 500 milyondan çox kredit alıb. O zaman AzMeCo VTB-dən 20 milyon dollar kredit istəmişdi. O kreditin əleyhinə idim. Dedim ki, bunlar sadəcə pulu götürüb aradan çıxacaqlar. Amma məni buna görə hətta Rusiyaya çağırdılar, oradan buraya gəldilər. Dedilər ki, sən bu banka işləməyə imkan vermirsən. Mən dedim ki, sizin pulunuzu qoruyuram, deyirəm, problemli kredit olmasın. Ədalət naminə demək lazımdır ki, Rusiya VTB-sində kifayət qədər vicdanlı adamlar da var idi və onlar məni müdafiə edirdilər. Amma sıxma-boğmadan sonra kredit verildi. Bu, elə böyük kredit idi ki, buna razılıq verməsəydim, kredit çıxmayacaqdı. Ona görə mən şərt qoydum ki, iri bir bank buna təminat dursun. O zaman onlar gedib Beynəlxalq Bankdan təminat gətirdilər, bundan sonra razılıq verdim. Kreditin şərtlərini çox ağır yazdım, bir ildən sonra qaytarmalı oldular. Bundan sonra da VTB-dən getdim. İşdən çıxandan sonra isə eşidirdim ki, vəziyyət ildən-ilə pisləşir. Bu gün VTB-yə qarşı bəzi borcalanların işlərini aparıram. Deyirəm ki, krediti verəndə kor olublar, nə olublar, belə krediti vermək olmaz".

**Ekspertin fikrincə, bu bankın Azərbaycanda qalmasında siyasi maraqlar var:** "VTB-nin dünyanın müxtəlif ölkələrində bankları var, o cümlədən keçmiş MDB-də, Gürcüstanda, Ermənistanda, Qazaxıstanda, Ukraynada, Belorusiyada bankları var. Keçmiş MDB məkanında bütün VTB bankları zərərlə işləyir. Bir müddət sonra başa düşdüm ki, zərərlə işləyən Rusiya banklarının Azərbaycanda qalması siyasi səbəblərlə bağlıdır. Amma Avropa ölkələrində zərərlə işləmir. Yəni, sadəcə, vacibdir ki, bu banklar Azərbaycanda olsun, necə işləyir, işləsin".

**Ə.Həsənov bu bankın müxtəlif qüvvələrlə bağlılığına da diqqət çəkib:** "Rusiya VTB-sinin sədrinin birinci müavini Rusiya Federal Təhlükəsizlik Bürosu - FTB-yə bağlı bir adamdır. Yəni Rusiya xüsusi təhlükəsizlik orqanının qurumlarının birinin rəhbəridir. Həmin şəxs bir müddət bizim buradakı VTB-nin Müşahidə Şurasının rəhbəri idi. Mənim belə təsbitlərim var ki, bu bankın Rusiya təhlükəsizlik kəşfiyyat orqanları ilə sıx əlaqəsi var. Ona görə bu bank çox güman ki, o məqsədlər üçün istifadə olunur. VTB-də işləyəndə ən böyük əleyhidarım Rusiya VTB-sinin Təhlükəsizlik deparmamenti idi. Hansı ki, birbaşa FTB ilə bağlı idi, hamısı "KQB" işçiləri idi. Onlar ümumiyyətlə, məni bir nömrəli düşmən elan etmişdilər. Azərbaycanda elə adam qalmamışdı ki, onunla görüşüb mənim haqqımda məlumat almasınlar. Bu bankın Rusiyanın dövlət maraqlarını, siyasi maraqları həyata keçirən bir qurum olduğu haqda məndə fikir formalaşıb. Hətta yerli VTB-nin Təhlükəsizlik Departamentinin rəisi bizim MTN-nin keçmiş polkovnikidir. Onun əməllərində o qədər qanunsuzluq tuturdum ki, əslində işləməsi mümkün deyildi, amma yenə də işləyirdi. İcazəsiz və bankın qaydalarını pozaraq kameralar alırdı, onun bu hərəkətini tuturdum, deyirdim ki, burada böyük ehtimalla, korrupsiya halı var, belə şey eləmək olmaz. Və yaxud bir nəfərə kredit vermək istəyirdi, təyinatını yazdırmışdı ki, rüşvət verilmək üçün istəyir. Bunları Moskvaya göndərirdim, deyirdim o adam bu kimi işlərlə məşğuldur. Mənə deyirdilər ki, ona toxuna bilməzsən. O adam indiyə kimi oradadır".

❑ **Röya RƏFİYEVA**

# Hökumət tikinti şərtlərini xeyli sadələşdirdi

## Ekspert: "Əgər hər hansı şəhərdə tikinti dayanıbsa, deməli, o şəhər ölüb"

**Hökumət inşaat sektorunda çalışan iş adamları üçün şərtləri yüngülləşdirib. Bunu tikinti sahəsində çalışan sahibkarlardan biri "Yeni Müsavat"ın müxbiri ilə söhbətində deyib. O qeyd edib ki, yeni qaydalara əsasən artıq tikinti üçün sərəncamı Bakı Şəhər İcra Hakimiyyəti deyil, rayon icra hakimiyyətləri verir. Daha müsbət bir məqam isə odur ki, sərəncam müraciət edildiyi gündən sonra 3 gün ərzində təqdim olunur, yəni süründürməçiliyə yol verilmir.**

Sahibkarın sözlərinə görə, əvvəlki dövrlərdən fərqli olaraq artıq Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da tikinti sektorundakı iş adamlarına problem yaratmırlar. Hətta bu duruma nəzarət üçün Prezident Administrasiyasının kuratorları Bakı şəhərini gəzərək tikinti gedən ünvanlara baş çəkir, iş adamlarının problemləri ilə maraqlanır, məmurlardan onlara qarşı təzyiq olub-olmamasını soruşurlar. Sözügedən durum son zamanlar tikinti sektorunun canlanmasına və yeni inşaat sahələrinin artmasına da səbəb olub.

"Yeni Müsavat"a açıqlamasında bu durumu dəyərləndirən **mənzil-tikinti məsələləri üzrə ekspert Nüsrət İbrahimov** da bildirdi ki, hökumət iqtisadiyyatı canlandırmaq üçün tikinti sektorundan başlamaqla doğru addım atıb: "Tikinti sektoru iqtisadiyyatın lokomotividir. Əgər hər hansı şəhərdə tikinti gedirsə, deməli, orada iqtisadiyyat var, əgər tikinti dayanıbsa, deməli, o şəhər ölüb. Ona görə də, iqtisadiyyatı qaldırmaq üçün birinci növbədə tikinti sektoruna hərəkətə gətirməlisən. O baxımdan ilk növbədə diqqət bu sahəyə yönəlir. Əgər əvvəllər dövlət məmurları tərəfindən tikintiyə maneə törədilirdisə, bu gün həmin maneələr tədricən aradan qaldırılır. Bu da iqtisadiyyatdakı mövcud durumu tezliklə həll etməyə yönəlib. Tikinti sahəsini canlandırmaqla həm məşğulluğu artırmaq olar, həm də insanların maddi və mənzil problemlərini həll etmək olar. Əsas məqsəd budur".



**Ekspertin fikrincə, tikinti sektorunda çalışan sahibkarların üzərindəki təzyiqlərin götürülməsi bir müddət sonra mənzil bazarında qiymətlərin stabilləşməsinə, o cümlədən ilkin bazarda ucuzlaşmaya səbəb ola bilər:** "Çünki bilirsiniz ki, tikintiyə yaradılan inzibati maneələr son nəticədə satış qiymətinin artmasına gətirib çıxarırdı. O maneələrin aradan qalxması satış qiymətlərinin stabilləşməsi qaçılmaz olacaq. Satışın həcmində də artımlar olacaq. Çünki sahibkarların çoxu o maneələrdən çəkinərək tikintidə məhdudiyyətlər yaşayırdı. İndi isə tikintinin həcmində artım olacaq. Bu da son nəticədə məşğulluğun artmasına, yeni iş yerlərinin yaranmasına gətirib çıxaracaq".

**Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı** isə qeyd etdi ki, tikinti sektorunda bürokratik əngəllər aradan qalxsa da, bu, qiymət siyasətinə təsir etməyib: "Ölkədə iqtisadi vəziyyətin mürəkkəbləşməsi təbii ki, hökuməti daha çevik addımlar atmağa sövq edir. Bunlardan biri də Azərbaycanda sahibkarlıq mühitini yaxşılaşdırmaq, iş adamlarına yaradılan süni problemlərin aradan qaldırılmasıdır. Hesab edirəm ki, tikinti sektorunda tətbiq edilən yeni qaydalar da bu prosesin tərkib hissəsidir. Uzun müddət idi ki, biz də hökumətə təkliflər verirdik, bildirirdik ki, Azərbaycanda tikinti sektorunda problemlər məhz inzibati müdaxilələrin çox olması nəticəsində yaranır. Hökumət, nəhayət ki, bu addımlar atmaqla o problemlərin bir hissəsini aradan qaldırdı. Ancaq tikinti sektorunda kənar ödənişlərin bürokratik əngəllərin aradan qaldırılmasına baxmayaraq, təəssüf ki, biz yeni tikililərdə qiymət ucuzlaşması müşahidə etmirik".

**İqtisadçının sözlərinə görə, Azərbaycan hökuməti islahatlara getsə də, tikinti şirkətləri hələlik qiymət siyasətində əvvəlki proqramla işləməyə meyllidirlər:** "Çox təəssüf ki, Azərbaycanda sahibkarların əksəriyyəti qiymət siyasətində tələb-təklif faktoruna əsaslanmırlar, gəlir və xərcləri arasındakı nisbətə uyğun addım atmırlar. Bu da Azərbaycanda müəyyən sahələrdə nəzəri baxımdan müəyyən vərdişlərin olmamasından, iqtisadi nəzəriyyənin işləməməsindən irəli gəlir. Bu islahatların öz məqsədinə nail olması üçün tikinti sektorunda qiymət siyasətinə nəzarət gücləndirilməlidir. Qiymət siyasətini dəyişməyən şirkətlərin kifayət qədər kənar maliyyə resursları var və həmin resurslar hesabına fəaliyyət göstərirlər, ona görə də satmadıqları binaların boş qalması onları narahat etmir. Ancaq boş qalmış binalar hökuməti narahat etməlidir".

❑ **Nərgiz LİFTİYEVA**

# Ölkəyə qanunsuz ovçu-turist gətirən şirkətlər cəzalandırılacaq

## ETSN qərar verdi; 16 əcnəbi ölkəmizin ov qanunlarını pozduqlarına görə cərimələnib

**Bu günlərdə Azərbaycana axın edən ərəblərin növbəti ov görüntüləri yayılıb və bu, yerli əhalinin narazılığına səbəb olub. Görüntülərdə bahalı avtomobillərdə bölgələrə yollanan ərəb turistlərin yüzlərlə heyvan və quş ovladığı əks edilib. Ərəblərin sosial şəbəkələrdə paylaşdıqları görüntülərdən törətdiklərini açıq-aydın görmək olar. Bir sıra azərbaycanlılar sosial şəbəkələrdə bunu vəhşilik adlandırıb qınayıb. Bəziləri isə xarici turistlərə ov üçün icazə verilib, yerli camaata ovçuluğun qadağan edilməsindən gileylənib.**

Əslində isə turistləri ölkəmizə gətirən turist şirkətləri onları Azərbaycanın qayda qanunları, ovçuluq mədəniyyəti ilə tanış etməli idi. Onlara Azərbaycanın qayda qanunlarına uyğun hərəkət etməli olduqları anladılmalı idi. Ancaq bunu etməyiblər. Buna görə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi davranışları ilə dəyərlərimizə açıq hörmətsizlik edən ovçu-turistləri gətirən şirkətlərlə əməkdaşlığın dayandırılmasını qərara alıb. Bu barədə "Yeni Müsavat"a yazılı şəkildə bildirən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat xidməti yayılan görüntülərin bir qisminin digər ölkələrdə lentə alındığını bildirdi: "Əcnəbi ovçu turistlərin ölkə ərazisində ov edərkən Azərbaycan əhalisinin gözləntilərinə uyğun olmayan qeyri-etik davranışları ilə dəyərlərimizə hörmətsizlik nümayiş etdirmələri və qanunları pozmaları barədə KİV və sosial şəbəkələrdə yayılan məlumatlar, görüntülər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumlarında təhlil edilib. Yayılan şəkillərin və görüntülərin təhlili onu ehtimal etməyə əsas verib ki, çəkilişlərin bir qismi digər ölkələrdə lentə alınıb. Eyni zamanda, yayılan çəkilişlərdə Azərbaycan ərazilərindən də olan görüntülər əks olunub. Qeyd edək ki, payız-qış aylarında Azərbaycan ovçularına və xarici ölkələrdən gələn ovçu turistlərə xidmət göstərən Azərbaycan şirkətlərinə, müraciət əsasında qanunvericilik çərçivəsində kvota ayrılır. Yeri gəlmişkən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) isə mahiyyət etibarı ilə ovçuluq fəaliyyətinin məhdudlaşdırılmasının tərəfdarıdır, lakin Azərbaycan qanunlarından irəli gələrək istər yerli, istərsə də xarici ovçular öz hüquqlarından istifadə etməkdə israrlıdır. Həmçinin beynəlxalq öhdəliklərdən, ölkəmizin qoşulduğu konvensiyalardan irəli gələrək, o cümlədən Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli Qərarı ilə əcnəbilərə və vətəndaşlığı olmayanlara ov icazəsi verilməsi təsbit olunub".

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən görüntülərdə əks olunan heyvan və quşların içərisində Azərbaycanın "Qırmızı Kitab"ına düşən növlərin olmadığı bildirildi. Ümumiyyətlə mövcud normativlərə əsasən yerli ovçulara 1 ov günü müddətinə 6-dək, xarici vətəndaşlara 5 ov günü müddətinə 10-dək su-bataqlıq quşunun, dovşanın isə yerli ovçulara 1 baş, xarici ovçulara 2 baş ovuna icazə verilir: "Xarici turist ovçular əksər hallarda qrup halında ov edir və yekunda ov qənimətlərinin toplum halında şəklini yayır. Yəni ilkin təhlillərə görə, inzibati ölçü götürülməsi üçün ciddi araşdırma aparılması tələb olunur. Eyni zamanda, yayılan görüntülərlə əlaqədar xaricilərin ovunu təşkil edən şirkətlərin də fəaliyyəti ETSN tərəfindən təhlil olunur. Artıq turizm şirkətlərinə xəbərdarlıq edilib ki, gələn ovçu turistləri əvvəlcədən təlimatlandırsınlar, onları ölkə ərazisində təvazökar, dürüst olmağa, özlərini Azərbaycan əhalisinin gözləntilərinə uyğun aparmağa sövq etsinlər. Ovçuluq etikasına uyğun gəlməyən, davranışları ilə mənəvi-mədəni dəyərlərimizə açıq hörmətsizlik nümayiş etdirən, ölkə qanunlarını pozan ovçu-turistlərin gətirilməsi faktları aşkar olunduğu təqdirdə həmin şirkətlərlə əməkdaşlıq dayandırılacaq".





Qeyd edək ki, təkcə bu ov mövsümündə ərəb ölkələrindən gələn 16 ovçu-turist ölkənin ov qanunlarını pozduqlarına görə cərimələnib, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında onların ölkədən xaric edilməsi təmin olunub.

**ETSN vətəndaşlardan konkret faktlarla bağlı məlumat olduqda, 168 nömrəli "Qaynar xətt"ə müraciət etmələrini xahiş edir.**

❑ **Günel MANAFLI**

# Leyla Şıxlinskayadan dələduzluq ittihamına cavab - "Yalandır, qəsdən edirlər"

**Bir neçə gündür ki, Rusiya mətbuatında Azərbaycanın xalq artisti Leyla Şıxlinskayanın adı dələduzluq ittihamında hallanır.**

Life.ru saytının yaydığı məlumata görə, Rusiya Reyestr İdarəsinin Moskva şöbəsi külli miqdarda dələduzluq faktı ilə bağlı polisə müraciət edib. Nəticədə Moskvanın ən nüfuzlu küçələrindən biri sayılan Petrovkada elit binalardan birinin sonuncu mərtəbəsində iki mənzilin mənimsənilməsi faktının üstü açılıb.

Mənzillərdən birinin sahibinin Azərbaycanın xalq artisti Leyla Şıxlinskaya olduğu bildirilir. Müəyyən edilib ki, dəyəri 500 milyon rubldan çox olan həmin iki mənzil son bir ildə saxta sənədlərlə bir neçə nəfərin adına keçirilib. 336 kv.m-lik, dəyəri 250 milyon rubl olan bir mənzilə Abdulvaris M. adlı şəxsin, onunla qonşu olan 400 kv.m-lik mənzil isə Şıxlinskaya Leyla Fərrux qızının adına sənədləşdirilib.

Mənzilin gerçək sahiblərinin isə heç bir yerdə şikayətinə rast gəlinməyib. Əgər məhkəmədə sənədlərin saxta olduğu təsdiqini tapsa, mənzillər dövlət tərəfindən müsadirə olunacaq. Məlumatda o da qeyd edilib ki, xalq artisti ilə əlaqə yaradıb, məsələyə aydınlıq gətirmək mümkün olmayıb.

Qeyd edək ki, Azərbaycanın xalq artisti hazırda Rusiyada yaşayır. Onun Bakıda adına böyük klinika fəaliyyət göstərir. Məsələyə aydınlıq gətirmək üçün əməkdaşımız Leyla Şıxlinskaya



Klinikası ilə əlaqə saxlayıb.

Azərbaycanın xalq artisti Leyla Şıxlinskaya adının dələduzluqda hallanmasına münasibət bildirib.

**Bu barədə musavat.com-a danışan xalq artisti barəsində səslənən ittihamları rədd edib:** "Bütün bu ittihamların hamısı yalandır. Bütün bunları qəsdən ediblər. Mənim özümün 18-19 ildir ki, Moskvada "Mir" prospektində böyük, gözəl evim var. O mənim birinci ailəmdən, keçmiş ərimdən qalıb. Qalmaqalda deyilən ev əslində ev deyil, çardaqdır. Əslində bu qalmaqalı xüsusi olaraq yaradıblar. Əgər mən həmin evi 4 milyona almışamsa, onda niyə adım dələduz adlandırılır? Bu hadisənin kökü təxminən 7-8 il əvvələ dayanır. Onda belə bir təklif edilmişdi ki, ora satılır. Amma mən almadım, eləcə qaldı. Mənə sənəd göstərsinlər ki, mən oranı almışam, mənim adımadır. Ümumiyyətlə, 4 milyona Moskvada ev alınmır. Mənim adım niyə bu qalmaqalda hallanır? Mən sadə adam deyiləm, axı... Bütün bunları Azərbaycanda tanınmış bir şəxsin xanımı edib. Nə vaxtsa, o xanım 3-4 il bundan əvvəl klinikada işləyib. Klinikanı tərk etdikdən sonra bu cür qalmaqallar baş verir".

❑ **Xalidə GƏRAY**

# Dərsə tələsməyənin məşqə gecikməsi



**Samir SARI**

**Neçə vaxtdır sosial şəbəkədə gözümə "məşqə gecikirəm" sözlü statuslar, şərhlər dəyirdi. Necə olubsa, başım qarışıb, bu yeni lağlağı trendinin qaynağını ötürmüşəm.**

Ancaq xalqımızın baməzə övladlarının bitməyən bu lağlağı kampaniyası vadar etdi ki, "Sabahın xeyir, kral" klipindən sonra bu qədər populyarlaşan "məşqə gecikirəm" söhbətini öyrənim, qarabağlılar demişkən, vacehinə yetim.

Gənclərdən soruşdum, video linki göstərdilər, baxdım.

Bilənlər bilir, bilməyənlər üçün aydıralım ki, kamera qarşısında 16-17 yaşlı, bığ yeri tərləmiş, amma hələ ülgüc dəyməmiş bir növcavan gənc dayanıb, reportyor ona 20 Yanvar faciəsi haqda sual verir, bu günün nəylə əlamətdar olduğunu soruşur, gənc də deyir ki, bilirəm, amma məşqə gecikirəm. Jurnalist bir az da dirəşir, gənc cavab verir ki, faciə olub, ermənilər gəlib Azərbaycanın torpağını işğal eləyiblər.

Hiss olunur ki, o gənc həqiqətən də məşqə gecikir. Uşağın fikri-zikri məşqdədir, idmançı olmaq, bayrağımızı qaldırmaq, himnimizi oxutmaq, olimpiadada qızıl medal qazanmaq, yarım milyon pul, ev, maşın əldə etmək istəyir.

Sadəcə, adam bir işə mat qalır ki, budur 27 ildir ki, hər dəfə yanvar ayında millət "şəhidlər" deyə-deyə qara bağlayır, göy örtür, yüz minlərlə insan ziyarətə gedir, orta məktəblərdə dərsini də keçirlər, tədbirlər təşkil edirlər, bu uşaq harada böyüyüb ki, bütün bunlardan xəbərsiz qalıb?

**Böyük ehtimalla məşqə gecikmək istəməyən o gənc məktəbə, dərsə həmişə gecikib, ona görə hər şeydən xəbərsizdir.**

Bu xüsusda bir az amerikalılara çəkmişik. Onların da (çoxunun) dünyadan xəbəri yoxdur. Ötəndəfəki prezident seçkilərində vitse-prezident postuna namizəd olan qubernator qadın böyük-böyük ölkələrin belə harada yerləşdiyini bilmirdi. Hətta özüm Amerikada olanda (axırıncı dəfə) bir italiyalı professorla həmsöhbət oldum, adam özü musiqiçiydi, həvəskar gitaraçı idi, amma öz soydaşı, eləcə də həmvətəni, dünya şöhrətli bəstəkar Ennio Marrikonini tanımırdı. Ondan ötrü Marrikoninin "Bir dəfə Amerikada" filminə yazdığı məşhur melodiyanı zümzümə də etdim, dedi ki, birinci dəfədir eşidirəm. O qədər yəni.

Bu baxımdan manısların yazıçı Steynbeki və Markesi tanımamalarını artıq normal qarşılamaq olar. Eləcə də Şərif Ağayar sabah müğənni Niyamla qarşılaşsa və onu tanımasa, gərək günahından keçək. O jurnalistlərdir, hamını tanıyırlar - Nadir Qafarzadədən tutmuş Cem Yılmaza, Britni Spirsə, Şakiraya, onun əri Pikeyə, Ərdoğanın müşaviri Boynukalına qədər hər kəsi. Eləcə də jurnalistlər Ekvadorun, Malinin, Laosun hansı qitələrdə yerləşdiyini, paytaxtlarının hansı şəhər olduğunu bilməyə borcludurlar. Bilməsələr, bu, minus sayılır.

Hərçənd elə elementar şeylər var ki, bunları hamı bilməlidir. Məsələn, hamı ölkəmizlə qonşu olan dövlətləri, Murovdağın harada olduğunu, Sınıq körpünün harada yerləşdiyini bilməlidir.

Axtarsaq, məlum olacaq ki, 20 Yanvarın nə günü olduğunu bilməyən o məşqə gecikən gənc 14 fevralın nə günü olduğunu bilir. Niyə? Çünki ikinci daha maraqlıdır, türkün sözü, aşk-məşq məsələsidir (düzünə qalsa, adam gərək bu məşqə də gecikməsin).

Dünyanın hər tərəfində belədir. O gün TRT-1-də bir bilik yarışması göstərirlər, ali təhsilli, mədəni görünüşlü bir gənc xanım "teatr tamaşasındakı fasiləyə nə deyirlər" sualının cavab variantları arasında "antrakt"dan başqa bütün cavabları seçdi və uduzdu. Demək ki, bu xanım o yaşa çatıb, ömründə bir dəfə teatrda olmayıb. Bu cür "zəngin intellekt"ə sahib olan şəxsin bilik yarışmasında nə işi var - bu başqa bir sualdır.

Məşqə gecikməyə qalsa, Ronaldo, Messi, üzgüçü Felps, tennisçi Rafael Nadal və yüzlərcə başqa məşhur idmançılar da məşqə gecikmirlər, amma telekamera önündə danışanda elə danışırlar, sanasan, doktorluq dissertasiya müdafiə edən alimlərdir. Çünki onlar məşqlərini vaxtlı-vaxtında edirlər, boş vaxtlarında kafelərdə laqqırtı vurmurlar, gedib qəzet-kitab oxuyur, maraqlı verilişlərə baxır, ölkələrində, dünyada baş verənlərlə maraqlanır.

**Gərək telejurnalistlər də anlayışlı olsunlar, məşqə gecikənlərdən və suala cavab verə bilməyənlərdən mini-müsahibə almasınlar. Heç manısları da Ziqmund Freyd yerinə qoymaq lazım deyil.**

YENİ MÜSAVAT
N 31 (6645) 11 fevral 2017

# 6 mağazanı yarıb, avtomobil oğurlayan dəstəni 7 il həbs gözləyir



**Şəmkirdə maşın oğrusu tutulub. ARB Kəpəz xəbər verir ki, yanvarın 31-i saat 23:00 radələrində Şəmkir rayonunun Dəllər qəsəbəsindən avtomobil qaçırılıb. Naməlum şəxs qəsəbə sakini Mehdi Tağıyevin "VAZ 21011" markalı avtomobilini yaşadığı evin qarşısından oğurlayıb.**

Mehdi Tağıyev - zərərçəkən şəxs: "Axşam saat 23:00 radələrində evimin qarşısında maşını saxladım. Səhər 8:00-da qalxdım ki, maşınım oğurlanıb. Dərhal Daxili İşlər Nazirliyinin 102 xidmətinə zəng etdim. Şəmkir polisindən gəldilər".

Şəmkir polisi maşın oğrusunun kimliyini müəyyən etməyə o qədər də vaxt sərf etməyib. Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobilin Mehdi Tağıyevin həmkəndlisi 23 yaşlı Əli Yusifov tərəfindən oğurlandığı məlum olub. O və avtomobilin yeri müəyyən edilərək istintaqa təhvil verilib.

İstintaq Əli Yusifovun digər oğurluq cinayətini də ortaya çıxarıb. 23 yaşlı gənc mağazalara da qənim kəsilib. Ona bu işdə bir müddət əvvəl Goranboyda saxlanılan həmyerlisi Arzu Əsgərov və Bakı sakini Ağasif Baxışov kömək olub. Marketlərdən xeyli miqdarda nəğd pul, tütün məmulatları, spirtli içkilər və müxtəlif danışıq kartları oğurlayanlar Gəncədə bir müddət kirayənişin yaşamaqla əməllicə kef çəkiblər.

Əli Yusifov - saxlanılan şəxs: "Kür qəsəbəsində 1, Tovuzda 1, Goranboyda 1, Şəmkirin özündə 3-4 mağazaya girmişik. Pul, siqaret və kontur götürmüşük. Ayrı heç nə götürməmişik".

Hazırda Şəmkir Rayon Polis Şöbəsinin istintaq bölməsində Əli Yusifov və onun cinayət ortaqlarının əməlindən zərərçəkənlərin sayı müəyyənləşdirilir. Günahları tam sübuta yetirilərsə, dəstə üzvlərini ən azı 7 il dəmir barmaqlıqlar arxası gözləyir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Qar yağacaq, yollar buz bağlayacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) ölkə ərazisində hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib. ETSN-in Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, ölkə ərazisində qeyri-sabit hava şəraiti fevralın 14-ü gündüzədək davam edəcək.**

Arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlama ehtimalı var.

Fevralın 11-də isə Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

ETSN Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, bəzi yerlərdə zəif duman olacaq, şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-2° şaxta, gündüz 3-5° isti, Bakıda gecə 1°-dək şaxta, gündüz 3-5° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütunu, nisbi rütubət 75-85 % təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin arabir yağıntılı olacağı, qar yağacağı, duman olacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz ayrı-ayrı rayonlarda yağıntıda fasilə yaranacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-7° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı gözlənilir.



## "Gənclik Mall"da kütləvi dava

**Bakı şəhəri, Nərimanov rayonunda yerləşən "Gənclik Mall" ticarət mərkəzinin giriş qapısının önündə kütləvi dava düşüb. Report-un xəbərinə görə, "Gənclik Mall" ticarət mərkəzindən çıxan 27 yaşlı Namiq İsmayılov bir neçə şəxsin hücumuna məruz qalıb.**

Əlbəyaxa dava zamanı N.İsmayılova 6 bıçaq zərbəsi vurulub. N.İsmayılov qanaxmadan huşunu itirib. O, taksi sürücüsünün köməkliyi ilə 1 saylı Şəhər Kliniki Tibbi Mərkəzə yerləşdirilib. Həkimlərin verdiyi məlumata görə, N.İsmayılovun vəziyyəti ağırdır.

Faktla bağlı Nərimanov Rayon Polis İdarəsində araşdırmalara başlanılıb.

## 3 uşaq atası qonşusunu öldürdü- su üstündə...



**Bakıda qonşusunu su üstündə öldürən şəxs məhkəmə qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqdirləndirilən 1982-ci il təvəllüdlü Eminov Fərman Kazım oğlunun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən prosesdə F.Eminovun anket məlumatları dəqiqləşdirilib.

3 azyaşlı övladı olan F.Eminov orta təhsillidir.

Məhkəmənin baxış iclası fevralın 17-nə təyin edilib.

Hadisə Sabunçu qəsəbəsi Natavan küçəsi 16 ünvanında baş verib.

Fərman Eminov 1980-ci il təvəllüdlü qonşusu Əmənov Elməddin Nəbi oğlunu bıçaqlayaraq qətlə yetirib.

Qonşular arasında qanlı olayın səbəbi sudur. Belə ki, Elməddin Əmənov qonşuluqda yaşayan Fərman Eminovun həyətinə gedən su borusunu kəsib. Suyun kəsildiyini görən Fərman qonşusu ilə dava edib və münaqişə zəminində onu öldürüb.

Bir neçə bıçaq xəsarəti almış 36 yaşlı Elməddinin həyatını xilas etmək mümkün olmayıb.

Qətlə yetirilən şəxs də 2 uşaq atası olub.

❑ **İ.MURADOV**

## Piyadanı öldürən sürücüyə 8 il həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törətməkdə təqsirləndirilən Fikrət Əliyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın xəbərinə görə, hakim Mail Bayramovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, F.Əliyev 8 il müddətinə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, hadisə ötən ilin sentyabrında Zabrat qəsəbəsində baş verib. Şəhər şosesində Əliyev Fikrət Yusif oğlu idarə etdiyi "VAZ 2107" markalı avtomobillə piyada 1964-cü il təvəllüdlü Əliyev Zahir Natiq oğlunu vuraraq öldürüb.

## Cəlilabadda saxta pul yayan şəxs həbs edildi

**Cəlilabad rayonunda saxta pul yayan şəxsin həbs edilməsi üçün əməliyyat keçirilib. Teleqraf.com xəbər verir ki, Cəlilabad rayon polis şöbəsi Orxan Cavadovu həbs edib.**

Ondan 74 ədəd 50, 25 ədəd 100 manatlıq saxta əskinas götürülüb. Faktla bağlı cinayət işi başlanıb.


## Elan

**Selim İsmail Kavadar Mehmet Fikri Kavadar oğlunun adına olan şəxsiyyət vəsiqəsi (oturum kartı) itdiyi üçün etibarsız sayılır.**

# Dollar ucuzlaşdı, bəs tikinti materialı?

## Bəhanə ilə qiyməti artıranlar, indi də məzənnənin sabit olmadığını söyləyirlər; bazarda alıcılarla satıcılar arasında söz savaşı gedir

**Son günlər manatın dollara nisbətdə bahalaşması prosesi gedir. 10 gün öncə 1 manat 90 qəpiyin üzərində olan qiymətlə satılan dolların, hazırda manata qarşı rəsmi məzənnəsi 1.73 AZN-dir.**

Bəlli olduğu kimi, dollar bahalaşdıqca ölkəyə xaricdən gətirilən bütün növ məhsulların qiymətində bahalaşma müşahidə olunurdu. Bu bahalaşmadan istifadə edib yerli malların da qiymətini qaldıranlar az deyildi. Xüsusilə dolların bahalaşması daha çox tikinti materialları bazarına təsir etmişdi. Belə ki, dolların bahalaşması nəticəsində dəmirin qiymətində kəskin artım olmuş, keyfiyyəti isə işbazlar tərəfindən azaldılmışdı.

*Bəs tikinti materialları bazarında hazırkı vəziyyət necədir?*

Qiymətləri və ümumi durumu öyrənmək üçün paytaxt ərazisində tikinti materiallarının satıldığı yerlərdə olduq. Öyrəndik ki, dolların ucuzlaşmasından asılı olmayaraq, materialların qiymətində dəyişiklik yoxdur. Olduğumuz bir çox mağazada müştərilərin satıcılarla qiymət mövzusunda mübahisə etdiyinin şahidi olduq. Material almaq istəyən şəxslər bildirirlər ki, bazarda özbaşınalıq hökm sürür: "10 gün öncə qiymətləri qaldıran satıcılar az qalırdılar ki, ağlasınlar. Deyirdilər ki, biz qiymətləri qaldırmaq istəmirik. Camaatın vəziyyətini başa düşürük, ancaq dolların bahalaşması bizi buna məcbur edir. Çünki bütün məhsulları xaricdən gətiririk. İndi isə dollar ucuzlaşıb. Deyirik ki, bəs nə oldu? Cavab verirlər ki, biz malı dolların 1.93 AZN olduğu vaxt gətirmişik. Ona görə də ucuz sata bilmərik. Ölkədə dolların qiyməti cəmi bir neçə gün 1 manat 90 qəpikdən baha oldu. İndi bu satıcıların sözlərinə görə, guya onlar bütün mağazadakı malları elə həmin günlər ərzində gətiriblər. Ancaq təbii ki, reallıqda bu belə deyil" deyə, alıcılar bildirdilər.









**Alıcılar kimi satıcıların da öz arqumentləri var. Belə ki, söhbət etdiyimiz taxta satıcısı Nemət Cəfərov bildirdi ki, alver etmək xeyli çətinləşib. Ona görə də çıxılmaz duruma düşüblər:** "İndi alıcılar belə danışırlar, ancaq özlərini bizim yerimizə qoyub düşünsələr, vəziyyəti başa düşərlər. Birincisi, taxtanın qiymətində nə artım var, nə də azalma. Elə dollar 1.70 AZN olanda qiymətlər necə idisə, sonrakı bahalaşmada da eyni oldu, indi də eynidir. Çünki satıcılar pis vəziyyətdə qalıblar. Dollar gah bahalaşır, gah da ucuzlaşır. Bir dəfəlik 3 manat olsa, biz də işimizi bilərik. Yaxud da bunu bir dəfəlik 1 manat 50 qəpik etsələr, yenə də ona uyğun qiymət təyin edərik. Ancaq belə deyil. Hər həftə məzənnə bir cür dəyişir. Ona görə də satıcılar risk etmirlər. Düşünürük ki, birdən yenə qalxar ucuz satdığımız malın pulu ilə gedib yenidən mal gətirə bilmərik. Bax, əsas məsələ də budur. Bir günün içində qiymətin düşməsi ilə bazarda qiymətləri tənzimləmək olmur. Çünki məzənnə sabit deyil".

Demək olar ki, bazar boyu hər mağazada bu cür söhbətlərə qulaq müsafiri olduq. Alıcılar dolların ucuzlaşmasını əsaslandırıb malın qiymətini endirməyə çalışır, satıcılar isə məzənnənin sabit olmadığını vurğulayıb, əllərindəki malı baha satmaq istəyirlər.

Bazardakı ümumi qiymətlərlə də maraqlandıq. Öyrəndik ki, dolların manata nisbətdə ucuzlaşması dəmirin qiymətinə cüzi də olsa təsir edib. Belə ki, ötən günlər 0.5 mm-lik dəmir lövhə 12.5 AZN-ə satıldığı halda, bu gün qiymətində 1 manat ucuzlaşma var. Ancaq bir məqamı da qeyd edək ki, manatın birinci devalvasiyasından sonra bu materialın qiyməti 9 AZN olub.

Boruların qiymətində isə artımdan sonra heç bir dəyişiklik yoxdur. Belə ki, diametri 25 mm olan borunun qiyməti bir ay öncə 2.60 AZN olduğu halda, hazırda 2.90 AZN-dir. 32 mm-lik boru bir ay öncə 3.30 AZN-ə satıldığı halda, hazırda 3.80 AZN-ə satılır. 50 mm-lik borunun qiyməti isə bir ay ərzində 70 qəpik bahalaşaraq 5.70 AZN olub. Armaturun da qiyməti artımdan sonra dəyişməz qalıb. Belə ki, təxminən bir ay öncə tonu 760 AZN olan armatur hazırda 800 AZN-ə satılır.

Divar kağızlarının (oboy) qiymətində enmə yoxdur. Bazarda 10-30 manat arasında qiymətlərlə bu növ materialı almaq olar. Gipsin 40 kiloqramlığının qiyməti 5 AZN, 30 kiloqramlığı isə 4 AZN-ə satılır. Taxtanın isə kubu 270-280 AZN-ə satılır.

**Nəticə olaraq qeyd edə bilərik ki, dolların manata nisbətdə bahalaşması ilə artan qiymətlər, dolların ucuzlaşmasından asılı olmayaraq, elə baha olaraq da qalıb.**

**❑ Əli RAİS**
**Fotolar müəllifindir**

# Günümüzün neçə saatı telefonla keçir?

## **Elnur Rüstəmov:** "Bu, informasiya əsrinin yaratmış olduğu problemlərdən biridir"

## **Əhməd Qəşəmoğlu:** "Bunlar milli ruha, milli hisslərə ciddi təsir edən məsələlərdir"

**Mobil telefonlar həyatımızın ayrılmaz hissəsinə çevrilib. Mobil telefonlar 10-15 il öncə olduğu kimi artıq yalnız kiməsə axtarmaq, mesaj atmaq kimi istifadə edilmir. Bu gün ağıllı mobil telefonlar həm də bir növ cib kompüteri funksiyasını daşıyır. Belə ki, biz bu kiçik cihazla həm danışır, həm mesaj atır, həm film izləyir, həm də müxtəlif sosial şəbəkələrə daxil olur, istədiyimiz məlumatları əldə edə bilir, yemək, hətta təyyarə bileti belə sifariş edə bilirik.**



Bunun nəticəsidir ki, günümüzün yarıdan çoxunu telefonla "oynamağa" həsr edirik. Səhər yuxudan ayılar-ayılmaz, ilk axtardığımız əşya telefon olur və beləcə, telefon əlimizdə yeni bir gün başlanır. Bir sıra şəxslər mobil telefondan istifadənin işində, gündəlik həyatında mühüm rol oynadığını desə də, əksəriyyət bunun onda pis bir vərdişə çevrildiyini və hətta xəstə olarkən belə telefondan ayrı qala bilmədiyini deyir. Bəs belə psixoloji asılılıqdan qurtulmağın bir yolu varmı?

**Psixoloq Elnur Rüstəmov** bunun informasiya əsrinin yaratmış olduğu problemlərdən biri olduğunu dedi: "Ümumi götürəndə telefon əslində rabitə, insanlar arasında ünsiyyət vasitəsi kimi yaranmışdı. Ancaq bu gün telefon ünsiyyətdən daha çox bir əyləncə vasitəsi kimi istifadə olunur. Yəni mobil telefonu olan insan bəlkə də gün ərzində 15-20 dəqiqə əgər kiminləsə telefonla danışırsa, qalan vaxtını telefonda sosial şəbəkəyə girməklə, oyunlar oynamaqla keçirir. Əlbəttə ki, bu da insanda bir asılılıq, alışqanlıq yaradır. Bu gün elə insanlar var ki, onun çoxfunksiyalı mobil telefonu var. Az maaş alsa belə yaxşı, bahalı telefonu var. Çünki insan orada əyləncə axtarır və həyatının böyük bir qismini mobil telefon üzərinə köçürür. Bu da şübhəsiz ki, insanda narahatlıq yaradır. Elə insanlar var ki, mobil telefonu olmadığı təqdirdə o məkana getmirlər. Yaxud mobil telefonu yaddan çıxaranda, internet olmayanda narahat olurlar. Mobil telefondan daha irəli olan bir şey internet asılılığıdır. Düşünürəm ki, bu da informasiya əsrinin yaratmış olduğu problemlərdən biridir. Məsələn, əvvəllər biz deyirdik zərərli vərdişlərdən asılılıq, həmin asılılıq arasında internet və mobil telefondan asılılıqda mövcuddur".

Qeyd edək ki, mobil telefonların psixoloji problemləri ilə yanaşı sağlamlığa da ciddi zərərləri var. Belə ki, mobil rabitədən istifadə edənlər digərlərinə nisbətən baş ağrılarından, əsəb pozğunluğundan daha çox şikayətçi olurlar. Zərərli elektromaqnit dalğaların təsiri nəticəsində orqanizmdə immun sistemin gərginliyi artır. Bu səbəbdən də orqanizmin xəstəliklərə qarşı müqaviməti azalır. Alimlər müəyyən ediblər ki, mobil rabitədə elektromaqnit şüalanmanın mənbəyi olan başqa elektrik avadanlıqlar kimi bioloji fəal olaraq insanın səhhətinə mənfi təsir edir. Lakin televizor, kompüter və başqa elektrik avadanlıqlardan fərqli olaraq, mobil telefon istifadə edərkən onu bilavasitə beyin və gözlərimizə yaxın tuturuq. Bu zaman radiotezlik diapazonunun elektromaqnit şüalanması beynin toxumaları tərəfindən mənimsənilir. Şüalanma görmə qabiliyyətinə və eşitmə orqanlarına da mənfi təsir göstərir. Bu da sirr deyil ki, şüalanma çox hallarda onkoloji xəstəliklərin yaranmasına təkan verir. Metroda, əsasən də vaqon hərəkət edərkən mobil telefondan istifadə edən insanlar həyatlarını birbaşa riskə atmış olurlar. Belə ki, vaqon relslər üzərində hərəkət edərkən elektromaqnit şüalar çoxalır ki, bu da insan səhhəti üçün olduqca zərərlidir.

Problem yalnız mobil telefonla bağlı deyil, eyni zamanda şəhər telefonundan asılı qalan qadınlarla bağlıdır. Xüsusən də evdar xanımlar bəzən günlərinin tam yarısını telefonla danışmaqla keçirirlər. **Sosioloq Əhməd Qəşəmoğlu bunun cəmiyyətin bir bəlası olduğunu dedi:** "İnsan faydalı bir işlə məşğul olmayanda bu işlərə vaxtı daha çox olur. Yəni hər hansı bir evdar qadının ciddi bir işi olsa, hətta evdəki rahatçılığı, ahəngi yaratmaqla bağlı çox işləri ola bilər. Necə ki, kənddəki qadınların səhərdən axşamadək işləri olur. Onların da evdə yemək hazırlamaqla, uşaqların tərbiyəsi ilə bağlı çoxlu işləri ola bilər. Bəzən uşaq ac qalır, ağlayır, ana ya telefonda, ya da sosial şəbəkələrdə saatlarla vaxt keçirir. İnsanın bu qədər boş vaxtı varsa, bu, onun normal həyat yaşamamasının əlamətidir. Bizim telefondan asılılıq məsələmiz görünür davranışlarımızdakı müəyyən çatışmazlıqla bağlıdır. Əvvəllər də demişdik ki, insanın davranışı 3 güclü faktora təsir edir. **1.** Onun yaşadığı mühit, şərait. **2.** Aldığı informasiya. **3.** Üstünlük verdiyi dəyərlər. Deməli, indiki cəmiyyətimizdə bir xəstə vəziyyət var ki, burada insanlar öz davranışını elə bir vəziyyətə gətirib çatdırıblar ki, onlar bundan daha məhsuldar, faydalı şəkildə daha az istifadə edirlər. Biz bilirik ki, vaxt ən mühüm sərvətlərdən biridir. Mühüm sərvətimizi biz uzun müddət boş-boşuna danışmağa, qeybətə sərf edirik ki, bu da insana mənfi təsir edir. Bunların hamısı o deməkdir ki, cəmiyyətimizdə, yəni əhalinin keyfiyyətində müəyyən problemlər var və bu problemlərlə də ciddi məşğul olmaq lazımdır".

**Sosioloq mobil telefondan da iş adı ilə saatlarla danışmağın insanın psixoloji durumundakı müəyyən problemlərdən xəbər verdiyini dedi:** "İnsanların sosial şəbəkələrə bu qədər vaxt sərf etməyi lap dəhşətli məsələdir. Çünki sosial şəbəkələrdə daha çox gənclər oturur. Bəziləri yaşlarının elə vaxtında sosial şəbəkədə otururlar ki, o zaman onlar öz gələcəkləri üçün karyeralarını qurmalıdır. Yəni bu gənc əlaçı oxuya bilərdisə, yaxud bir musiqi alətində çala bilirdisə, bunun əvəzinə sosial şəbəkəyə daxil olur və öz karyerasını, səhhətini məhv edir. Həmçinin bu vəziyyət həmin gəncə əxlaqi cəhətdən də pis təsir edir. Çünki orada qeyri-ciddi söhbətlər, əxlaqa o qədər də uyğun olmayan münasibətlər, yazışmalar əxlaqi cəhətdən təsir edir. Bu da birbaşa milli ruha, milli hisslərə ciddi təsir edir".

**❑ Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 31 (6645) 11 fevral 2017*




# 5 il ərzində sənədsiz və pulsuz 10 ölkə gəzib

**2012-ci ildə itkin düşən Kanadanın Toronto şəhər sakini Anton Pilipi Amazonkadakı cunqlidə tapıblar. Son 5 il ərzində o, sənədsiz və pulsuz 10 ölkə adlayıb. Lenta.ru saytı CBC-ə istinadən xəbər yazıb ki, çirkli paltarda, ayaqyalın formada yolda gedən saqqallı kişini ötən ilin noyabr ayında Braziliya polisləri aşkar etmişdi. Öncə onu kasıb kimi qəbul ediblər, ardınca isə polis onunla ingilis dilində danışaraq, Kanadadan gəldiyini üzə çıxarıb. Polis onun qardaşı ilə əlaqə yaratmağa nail olub. Məlum olub ki, kişini sonuncu dəfə 2012-ci ildə Torontoda görüblər. Ondan sonra ailəsi onun harada olduğunu tapıb üzə çıxara bilməyib. Qohumları ehtimal edir ki, kişi evdən psixoloji problemlərə görə gedib.**

Aydınlaşdırma zamanı məlum olub ki, Pilip öncə ABŞ sərhədini keçib, ordan Meksikaya keçib, ondan sonra Kosta Rika, Panama, Kolumbiya, Venesuella və Argentinada olub. Səfərinin böyük hissəsini o, piyada gerçəkləşdirib, bəzən isə yolda maşın tutub və yük maşınlarının kuzovunda gizlənib. Yolboyu kişi meyvə və giləmeyvə ilə qidalanıb. Şəhərlərdəki maşınyuma məntəqələrində isə geyimlərini təmin edib.

# İspan oğlan dünyanın ən cazibədar feldşeri seçildi

**İspaniyanın Madrid şəhərindəki xəstəxanalardan birində çalışan Fren Suarez adlı tibb qardaşı (feldşer) dünyanın ən cazibədar tibb qardaşı seçildi. Bu barədə lenta.ru saytı "Daily Mail"ə istinadən xəbər yayıb. Xəbərə görə, tibb qardaşı olmaqla yanaşı, Fren model kimi çalışır və rəqs edir. İspan gənc idman zalında müntəzəm məşğul olmaqla özünü formada saxlaya bilir. Bundan başqa, o, İnstaqram sosial şəbəkəsində də bir səhifə aparır. Suares həm xəstəxanadakı iş prosesindən, həm də idman zalındakı məşğuliyyətlərindən maraqlı fotolar paylaşır. Hazırda 54.6 min İnstaqram izləyicisi onu təqib edir.**



Yanvar ayında isə məlum olmuşdu ki, Norveçdən olan 30 yaşlı yanğınsöndürən Qunn Narteni sosial şəbəkədə 48.5 min nəfər izləyir. İzləyiciləri bu qadını təkcə cazibədar görkəminə görə yox, eyni zamanda fitneslə bağlı faydalı məsləhətlərinə görə də təqib edirlər.

# Otel açmağın ilginc səbəbi - gənclərə "məsləhət"

**Amerikanın Kolorado ştatında otel sahibi Gerald Foosun son 29 ildə ora gələn müştərilərn intim həyatını izlədiyi ortaya çıxıb. İngiltərənin "Daily Mail" qəzetinin xəbərinə görə, o, 1960-cı illərdə açdığı oteldə daha sonra həyat yoldaşının da köməyi ilə otaqlara gizli kamera yerləşdirib. Bunun ortaya çıxmasında isə özü təşəbbüskar olub. Belə ki, ölkədə insanların özəl həyatı ilə bağlı araşdırma hazırlayan jurnalist Gey Talese ilə əlaqə saxlayan otel sahibi ona "son 15 ildə cütlüklər arasında hazırlıqsız yaşanan intim münasibətə şahid oldum, müşahidə etdim və araşdırma hazırladım" deyib. Jurnalist isə iyul ayında yayımlanacaq kitabında bu detallara da yer verib. Hüquq-mühafizə orqanları isə bununla bağlı hər hansı hüquqi addım ata bilməyəcəklərini deyiblər. Belə ki, baş vermiş hadisə tarix etibarilə öz aktuallığını və cinayət dərəcəsini itirib. Otel sahibi isə etiraf edib ki, otel açmasının əsas səbəbi elə bu cür münasibətlərə kənardan, heç bir kompleks keçirmədən baxa bilməsidir.**





# Bu kafedə kirpi olduğu üçün... orda oturmaq bahadır

**Yaponiyanın paytaxtı Tokio şəhərində açılan kafe öz qəribəliyi ilə diqqət çəkir. Belə ki, bura gələn müştərilər kafedəki kirpilərlə oynaya bilirlər. Bu barədə lenta.ru saytı "The Guardian"a istinadən xəbər verib. Kafedə bir saat oturmaq üçün həftə içi 9, həftə sonları isə 12 dollar ödəmək lazımdır. İçəridə 20 növə yaxın kirpi saxlanır. Heyvanlar şüşə qutularda qorunur və onların hər birini ələ götürmək mümkündür. Kafenin əməkdaşı Mizuki Murata deyir ki, daha öncə dovşanlı kafedə çalışsa da, kirpilərlə vaxt keçirmək onun ən böyük arzusu olub. "Biz bu layihə ilə insanlara sübut etmək istədik ki, iynələrinə baxmayaraq kirpilər çox şirin heyvanlardır. Ümid edirəm ki, biz qonaqlarımızı onlara toxunmaq qorxusundan azad edə biləcəyik".**

2015-ci ilin noyabrında isə Britaniyanın Bristol şəhərində pişiklər üçün pub açılmışdı. Kafenin 44 yaşlı sakini Lyuk Deniels demişdi ki, elə 15-ə yaxın pişik bu məkanın divarları arxasında doğulub.




**QOÇ** - Böyük bir layihəni həyata keçirmək fikrindəsiniz. Amma nədən və necə başlamağı bilmirsiniz. Tərəddüd etməyin. Çünki indi hakim bürc sizsiniz və risk sizi müvəffəqiyyətə qovuşduracaq.

**BUĞA** - Planetiniz olan Veneranın aktivlik nöqtəsində dayanması ümumi ovqatınıza yaxşı təsir göstərəcək. Bu hal bir xeyli sürəcək. Odur ki, tərəddüddən qorxmayın, vacib planları həyata keçirməyə çalışın.

**ƏKİZLƏR** - Səhər saatları müəyyən qədər gərginliklə başlasa da, bu heç də qazanacağınız uğurlara sipər çəkməyəcək. Odur ki, narahat olmayın və bəxtinizə inanın. Gecəni mütləq öz evinizdə keçirin.

**XƏRÇƏNG** - Bəri başdan əmin olun ki, gün ərzində heç bir qanqaraçılığı və ya uğursuzluqla rastlaşmayacaqsınız. Əksinə, ətrafınızda olanların əksəriyyəti sizə xoş ovqat bəxş edəcək.

**ŞİR** - Mənfi enerjili Ayın bürcünüzdə qərar tutması sizin üçün süstlük yaradacaq. Bu səbəbdən də qeyri-ənənəvi addımlar atmaqdan çəkinin. Daha çox gözləmə mövqeyində durun.

**QIZ** - Ulduzlar göstərir ki, ayın uğurlu bir gününü yaşayacaqsınız. Sürprizlər də öz yerində. Göy qübbəsi saat 17-dən sonra təmiz havada gəzinməyi, qonaq getməyi məsləhət görür.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə aktivliyinizi artırmağa ehtiyac var. Sevindirici bir yeniliklə rastlaşma ehtimalınız böyükdür. Axşamsa yaxın ünvanlara qonaq getmək məsləhətdir.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvimdə səhhətinizlə bağlı problemlər, həmkarlarınızla mübahisələr, həmçinin iştahasızlıq daxili sabitliyinizi poza bilər. Buna baxmayaraq tədbirli olun.

**OXATAN** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız aşağı səviyyədə olacaq. Həmin ərəfədə neytral və təmkinli olun. Sonrakı müddətdə isə bir neçə sürprizlə rastlaşacaqsınız.

**OĞLAQ** - Ağlabatmayan, riskli işlərdən uzaq olmaqla qarşıya qoyduğunuz planların əksəriyyətini reallaşdıra bilərsiniz. Saat 13-16 arası perspektivli təkliflər, təzə xəbərlər mümkündür.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində, eləcə də fəaliyyət zəminində bəzi qalmaqallar gözlənilir. Özünüzü ələ alın. Tələsik qərar çıxarmayın. Lazım gəlsə, təcrübəli adamlarla məsləhətləşin.

**BALIQLAR** - İxtiyarınızda olan bu təqvimin ümumi görüntüsü daha çox gərginliyə yaxındır. Odur ki, əsəblərinizi cilovlamağa ehtiyac duyulur. Nahardan sonra isə qazanmaq ehtimalınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Tənbəlliyə qarşı toplantıda yuxuya getdilər



**Çinin Xubey bölgəsində altı məmur "Tənbəl və ləng bürokratiyanı motivasiya" mövzusunda keçirilən toplantıda yuxuya gedib. Bu barədə Reuters ttp://www.reuters.com/ agentliyi xəbər yayıb. Xəbərdə qeyd olunur ki, yatanlardan biri fond direktorunun müavini olub. Digəri isə şəhər planlaşdırma bürosu rəhbəri olub. Yatmış məmurların şəkillərini kmzscc.com saytında müzakirə olunub və daha sonra Çin sosial şəbəkələrində qızğın müzakirələrə səbəb olub. Bunun ardınca mövzu kütləvi informasiya vasitələrində, ardınca isə hökumətdə müzakirə olunub. İntizam bürosunu qərarına görə, toplantıda yatan məmurlar xalqdan üzr istəməlidilər.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100